# Xalq qəzeti

Xalqın qəzeti!

№ 220 (30624) 8 oktyabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## ABŞ "insan haqları" mövzusunu təzyiq alətinə çevirib

**Beynəlxalq statuslu hüquq müdafiə təşkilatlarının Gürcüstana yönəlik bəyanatları intensivləşib. Təkcə jurnalist təşkilatları son bir ay ərzində 6 müxtəlif mövzu üzrə rəsmi Tbilisini qınayan açıqlama yayıblar. Digər təyinatlı təşkilatlar, o cümlədən "Amnesty İnternational", "Freedon House" , "Human Rights Watch" da sinxron davranırlar.**



Onların səsləndirdikləri bəyanatların əksəriyyəti əsassızdır, arqumentlərlə tamamlanmayıb. Çox aydın şəkildə görünür ki,çevik və total hücumlar təşkil etməklə, qonşu dövləti qlobal ictimai rəyin hədəfinə çevirmək, hansısa güzəştlərə sövq etmək istəyirlər.

*(ardı 4-cü səhifədə)*

## Təzminat: cinayətə görə cəza, yoxsa tarixi ədalətin bərpası?

**Artıq xeyli müddətdir ki, Azərbaycanda Ermənistanın işğalı və hərbi cinayətləri nəticəsində ölkəyə dəyən ziyanın müqabilində təzminat ödənilməsi məsələsi siyasi gündəmin əsas mövzularından birinə çevrilmişdir.**



İşğala məruz qalmış ölkənin təzminat alması ehtimalı nə qədər realdır və bu təzminatın alınması üçün dünyada hüquqi baza və hər hansı təcrübə varmı? Bu məsələlərə aydınlıq gətirmək üçün təzminatın tarixin hansı dönəmində meydana gəldiyini və bu günə qədər hansı işğalçı ölkənin öz qurbanlarına təzminat ödədiyini araşdırmaq qərarına gəldik. Ümumiyyətlə, təzminat ilkin olaraq qalib tərəfə



və ya münaqişənin qurbanlarına dəymiş zərərin ödənilməsi üçün ödənilən kompensasiya olaraq şərh edilir. Təzminatların tarixi çox qədim dövrlərə gedib çıxır, lakin XX və XXI əsrlərdə təzminatlar dünya müharibələri, müstəmləkəçilik və köləlik qurbanlarına ödənişlərlə bağlı proseslər səbəbindən xüsusi əhəmiyyət kəsb etməyə başlayıb. Təzminatların tarixi və müasir dünyada onların rolu nədən ibarətdir?

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan MDB məkanında keçmiş ittifaq ortaqları ilə fəal əməkdaşlıq edir



Səhifə ⇨ 2

## Cəbrayıl Simurq quşu tək yenidən doğulur

### *Döyüşçülərimizin baş qoyduqları yerlərə Prezident daş qoyur*

**4 oktyabr Cəbrayılın yeni tarixinin yazılmağa başladığı, yandırılmış, dağıdılmış, xarabazarlıqdan Simurq quşu təki dirçəldildiyi gündür. Çağdaş qəhrəmanlıq tariximizin bu şanlı səhifəsi Cəbrayılın yenidən doğulması, cəbrayıllıların nicat günüdür. Bu hadisə ruhun cana qovuşması timsalıdadır.**



Bu günü xalqımıza, ilk növbədə, cəbrayıllılara 4 il əvvəl od-alov içindən tac götürən cəngavərsayağı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bəxş etdi. Bununla da o, "tarixi qəhrəmanlar yaradır" gerçəyinə öz möhürünü vurdu.

Şuşanı çevrələyən yüksəkliklərdən biri olan Ziyarət dağının güney ətəklərindən Zəngəzurun şərqi ilə Xudafərin körpüsünün söykəndiyi Diridağa, Arazqırağına uzanmış, əski çağlardan Cəbrayıl adlandırılmış bu bölgə Azərbaycanın qədim və zəngin tarixi olan guşələrindəndir. Mən gözəlliklər qoynunda uyuyan bu məkanda dünyaya göz açmışam. 18 yaşadək onun 5 kəndində məktəbə getmişəm. Həmin obalarda müəllim işləmiş ata-anam övladlarına o yerlərin saf bulaqlarının suyunu içirdiblər, can dərmanı meyvələrini, sarı buğda çörəyini yedirdiblər. Biz Cəbrayılın ulularımızın ruhları dolaşan havası ilə böyümüşük. Ziyarət dağının ətəklərindən üzüaşağı Arazadək çeşidli adlarla kəndləri, dərə-təpələri, bulaqları, düzləri meyvə bağları var Cəbrayılın.

*(ardı 3-cü səhifədə)*

# ABŞ Azərbaycana qarşı şantaja son qoymalıdır!

## *Vaşinqton ermənipərəst konqresmenlərin "noxtasını"dartmalıdır*

**ABŞ konqresmenlərinin ermənipərəst mahiyyət daşıyan "fəaliyyətləri" ikrah doğurur. Azərbaycan Respublikasının Milli Məclisinin bir qrup deputatının ölkəmizin Xarici işlər naziri Ceyhun Bayramova ünvanladıqları müraciətdəki motivlər də həmin ikrah hissinin təzahürüdür. Əslində, parlamentarilərimiz bütövlükdə cəmiyyətimizin mövqeyini ifadə ediblər.**



Son vaxtlar Birləşmiş Ştatlarda, belə demək mümkünsə, ermənipərəstlik külələri əsməkdədir. Prezident İlham Əliyev bununla bağlı qəti mövqeyini oktyabrın 4-də Cəbrayıl sakinləri ilə görüşündə də bildirib. Dövlətimizin başçısı, kifayət qədər, açıq mətnlə bu fikirləri dilə gətirib: "Bu gün səhər mənə məlumat verildi. Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni, özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik. Burada erməni yaşayıb? Yox, siz – Cəbrayılın sakinləri".

Bəli, Qarabağdakı separatçı rejimin təmsilçilərinin ABŞ Konqresinə dəvət edilmələri, qurumda "Dağlıq Qarabağın süqutu"na həsr olunmuş tədbirin düzənlənməsi, Birləşmiş Ştatların hökumət, parlament və vətəndaş cəmiyyəti institutlarının Qarabağdan köç etmiş ermənilərə dəstək xarakterli çoxsaylı təşəbbüsləri, konqresmen Adam Şiff və həmkarları tərəfindən irəli sürülmüş 2024-cü il üçün "Artsax gəlirlərinin bərpası aktı", USAID-in rəhbəri Samanta Pauerin "ermənilərin Qarabağdan kütləvi köçü"nə dair bəyanatı və ümumən USAID-in Ermənistan təəssübü cavabsız qalmamalıdır. Nəzərə alaq ki, ABŞ-nin aparıcı piar şirkətləri Azərbaycana qarşı beynəlxalq media kampaniyasına cəlb ediliblər. Buna da adekvat yanaşılmalıdır.

Vaşinqtonun məqsədi erməni avantürizmini dirçəltməkdir və bütün bunların nəticəsidir ki, Ermənistanda yenidən Qarabağdan, "etnik təmizləmədən" danışmağa başlayıblar. Təsəvvür edin ki, 2024-cü il üçün "Artsax gəlirlərinin bərpası aktı" deyilən qondarma təşəbbüs ABŞ-dakı Azərbaycan aktivlərinin müsadirəsini və həmin vəsait hesabına Qarabağın erməni əhalisinə yardım göstərilməsini nəzərdə tutur. Aydındır ki, söhbət sadə ermənilərə köməkdən getmir.

Məqsəd Ermənistanı silahlandırmaqdır ki, mövcud istiqamətdə son vaxtlar digər addımların atıldığı da diqqətdən yayınmır.

*(ardı 3-cü səhifədə)*

## Çanaq Ermənistanın öz başında çatlayacaq



Səhifə ⇨ 3

## "Araz Vadisi İqtisadi Zonası"nda daha 3 müəssisə yaradılır



Səhifə ⇨ 7

## Gerçək məhşər

### *Yaxın Şərq od içində*



Səhifə ⇨ 11

# Azərbaycan MDB məkanında keçmiş ittifaq ortaqları ilə fəal əməkdaşlıq edir

# Prezident İlham Əliyevin Rusiyaya səfəri

## Moskvanın Vnukovo-2 Beynəlxalq Hava Limanında qarşılanma





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 7-də Rusiya Federasiyasına səfərə gəlib.**

Moskva şəhərinin Vnukovo-2 Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentini Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin və digər rəsmi şəxslər qarşıladılar.

## Moskvada MDB dövlət və hökumət başçılarının qeyri-rəsmi naharı olub

Oktyabrın 7-də Moskvada MDB dövlət və hökumət başçılarının qeyri-rəsmi naharı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

**AZƏRTAC**

# Laçın şəhəri gələn il MDB-nin mədəniyyət paytaxtı olacaq



**Dünən Rusiyanın paytaxtı Moskvada Müstəqil Dövlətlər Birliyinin Xarici İşlər Nazirləri Şurasının iclası keçirilib.**



Xarici işlər naziri Ceyhun Bayramov toplantıda iştirak edib. Nazir çıxışında Azərbaycanın MDB çərçivəsində iqtisadiyyat, ticarət, nəqliyyat-kommunikasiyalar, süni intellekt, humanitar, gənclər və s. istiqamətlər üzrə əməkdaşlığa baxışı, habelə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi barədə məlumat verib. O, Nazirlər Şurasının iclasının yüksək səviyyədə təşkilinə görə Rusiya Federasiyasına təşəkkür edib, növbəti ildə Birliyə sədrliyi həyata keçirəcək Tacikistana uğurlar arzulayıb.

İclasda təşkilata üzv dövlətlərlə qarşılıqlı səfər və təmasların artırılmasının ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığa töhfə verdiyi, o cümlədən Xarici İşlər Nazirləri Şurası formatının öz növbəsində qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsində faydalı olduğu vurğulanıb. Humanitar və gənclər sahəsində əməkdaşlıq üzrə birgə tədbirlərin keçirilməsini nəzərdə tutan planların üzv ölkələr və xalqlar arasında əməkdaşlıq və yaxınlaşmaya töhfə verəcəyinə dair inam ifadə olunub.

Ölkəmizin "Birliyin mədəniyyət paytaxtı" təşəbbüsünə xüsusi önəm verdiyi, bu istiqamətdə növbəti il üçün Laçın şəhərinin MDB-nin mədəniyyət paytaxtı elan olunması haqqında dövlət başçıları tərəfindən qəbul edilməsi nəzərdə tutulan qərarın bu il mədəniyyət sahəsində birgə genişmiqyaslı layihə və tədbirlərin təşkilinə imkan verəcəyi diqqətə çatdırılıb.

Ölkəmizin COP29 sədrliyi barədə ətraflı məlumat verən nazir Ceyhun Bayramov Azərbaycan tərəfindən danışıqlar prosesinin aparıldığını və görülən hazırlıq işlərinin qlobal iqlim fəaliyyətinə mühüm töhfə olması məqsədilə genişmiqyaslı sədrlik fəaliyyəti həyata keçirildiyini diqqətə çatdırıb.

**XQ**



# "Yüksəliş" müsabiqəsi Təşkilat Komitəsinin iclası

**"Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin növbəti iclası keçirilib.**

Müsabiqənin işçi qrupundan bildirilib ki, iclasda Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, iqtisadiyyat naziri Mikayıl Cabbarov, elm və təhsil naziri Emin Əmrullayev, xarici işlər nazirinin müavini Fariz Rzayev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Milli Məclisin deputatı Ülvi Quliyev, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Balakişi Qasımov, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev və müsabiqənin işçi qrupu iştirak ediblər.

Təşkilat Komitəsinin üzvlərinə dördüncü "Yüksəliş" müsabiqəsinin yekunlaşması ilə bağlı hazırlanan hesabat təqdim edilib. İclasda dördüncü "Yüksəliş" müsabiqəsinin mentorluq proqramı ilə əlaqədar təkliflər müzakirə olunub, müvafiq qərarlar qəbul edilib. İclasda çıxış edən Komitə üzvləri layihənin gedişatı barədə qarşıdan gələn tədbirlərin uğurlu təşkili üçün bir sıra vacib təkliflər irəli sürüblər.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən – böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

Dördüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti tərəfindən 2023-cü il dekabrın 25-də sərəncam imzalanıb.

**XQ**

# MEDIA-nın saxta məlumatla bağlı açıqlaması

**Medianın İnkişafı Agentliyinin "X" sosial şəbəkəsində dərc edilmiş saxta məlumatla bağlı açıqlamasında deyilir: "X" sosial şəbəkəsində "@Dr.EliDavid" adlı hesab vasitəsilə Azərbaycan Respublikasının Rəhbərliyi adından saxta məlumat yayılıb".**

Agentlik bununla əlaqədar həmin sosial şəbəkə platformasında məlumatın saxta olduğunu bildirib və paylaşım "X" sosial şəbəkə platformasından operativ qaydada silinib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin keçirdiyi bütün tədbir və görüşlərdəki çıxışlarının, səsləndirdiyi fikirlərin mətni dövlət başçısının rəsmi veb-saytı və sosial şəbəkə hesabları, eləcə də informasiya agentlikləri vasitəsilə yayımlanır".

**XQ**




# 8 vətəndaşımız repatriasiya edilib

**Azərbaycan Respublikası Hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində 2024-cü il sentyabrın 18-də Suriya Ərəb Respublikasından 6 nəfər, oktyabrın 7-də isə İraq Respublikasından 2 nəfər Azərbaycan vətəndaşının ölkəmizə repatriasiyası həyata keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, ilk növbədə, repatriantların yeri, şəxsiyyəti və Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyəti müəyyən edilib.

Suriya və İraqdan Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının nümayəndələri Türkiyəyə və İraqa ezam edilib, repatriantların ilkin tibbi və psixoloji müayinəsinin həyata keçirilməsi təmin olunub.

Azərbaycan Respublikasının həmin ölkələrdəki diplomatik nümayəndəlikləri tərəfindən müvafiq əlaqələndirmə işi aparılmaqla vətəndaşlarımız Azərbaycana qayıdış şəhadətnamələri ilə təmin edilib və nümayəndə heyətinin müşayiəti əsasında qeyd olunan vətəndaşların ölkəmizə repatriasiyası həyata keçirilib.

Repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Nazirlikdən o da bildirilib ki, Azərbaycan Respublikası Hökuməti tərəfindən xarici ölkələrin ərazisində silahlı münaqişənin qurbanına çevrilmiş Azərbaycan vətəndaşlarının repatriasiyası üçün zəruri tədbirlərin görülməsi davam etdiriləcək.

# ABŞ Azərbaycana qarşı şantaja son qoymalıdır!

**(əvvəli 1-ci səhifədə)**

Əminliklə deyə bilərik ki, Birləşmiş Ştatların Dövlət Departamenti Azərbaycanı şantaja keçib. Təxminən belə: İstəsək, sizin pulunuzla Ermənistanı silahlandırarıq. Amma başqa hədə-qorxu mesajları da var. Aydındır ki, ölkəmiz rəsmi Vaşinqtonun konqresmenlərin dili ilə ifadə olunmuş şantajı qarşısında geri çəkilməyəcək. Heç bir halda, Cənubi Qafqazda sülh mühiti Ermənistanın təxribatçı mahiyyətinin qorunduğu, həmin qorunma rıçaqlarının mövcud olduğu şərtlərlə bağlanmayacaq. Prezident İlham Əliyevin diqqətə çatdırdığımız sitatdakı fikirləri də əminliyimizin təsdiqidir. Deputatlarımzın XİN rəhbəri Ceyhun Bayramova müraciətində ifadə olunanlar da həmçinin.



Bəli, ABŞ Senatının və Nümayəndələr Palatasının bir qrup üzvünün 2024-cü il oktyabrın 3-də bu ölkənin dövlət katibi Entoni Blinkenə göndərdiyi müraciətdəki müharibə cinayətkarlarının azadlığa buraxılmalarına və Ermənistanın hərbiləşdirilməsinə çağırış ruhu əsla qəbuledilməzdir, beynəlxalq hüquqa ziddir. Deputatlarımız çox doğru olaraq vurğulayırlar ki, belə bir sənəd, həmçinin, ABŞ-ın ikitərəfli münasibətlərin rəvan şəkildə davam etdirilməsində maraqlı olmadığını göstərir: "Məgər konqresmenlər bilmirlər ki, onların "Dağlıq Qarabağın siyasi liderləri" kimi təqdim etdikləri şəxslər müharibə caniləridir, Xocalı cəlladlarıdır, silah dəllalları, maliyyə fırıldaqçıları, əli hər cür çirkin işlərə bulaşmış oliqarxlardır?! Niyə ABŞ Xocalı soyqırımını törətməklə qürrələnənləri müdafiə edir, separatçılara viza verir, onlara qucaq açır?! Bu caniləri azad etməyə çağıranlar bircə dəfə olsun 30 ildən artıqdır ki taleyi bilinməyən 4 min azərbaycanlı itkinlə bağlı səsini çıxardırmı?!"

Təəssüf ki, müasir dövrdə ABŞ-Azərbaycan münasibətləri birincinin çoxsaylı riyakarlıq səhnələri ilə "zəngindir". Bu fikri söyləyərkən, tarixə qısa ekskurs etməyə ehtiyac yaranır. İlk xatırladığımız "Azadlığa dəstək aktı"na məlum 907-ci düzəlişdir. Düşünün ki, Ermənistan Xocalı soyqırımını törədir, Şuşanın, Laçının işğalını həyata keçirir, ABŞ İrəvana deyil, Bakıya sanksiya tətbiq edir və uzun müddət bu sanksiyanı qüvvədə saxlayır. Nəticədə Azərbaycan Vaşinqtonun birbaşa yardımından məhrum duruma düşür. BMT-nin torpaqlarımızın işğalı ilə bağlı dörd qətnaməsi də Ağ evi tutduğu ermənipərəst mövqeyindən daşındırmır.

Prezident İlham Əliyev Cəbrayıl sakinləri ilə görüşdə bu ədalətsizliyin riyakarlıq səhnələrini də vurğulayır: "Amerika 1992-ci ildə bizə qarşı sanksiya tətbiq etmişdir, o vaxt ki, torpaqlarımız əldən gedirdi. Sonra sanksiyalar 2001-ci ildə aradan qaldırıldı. Nə üçün? Çünki onların Əfqanıstandakı işğalçılıq fəaliyyəti başlamışdı, işğalçılıq müharibəsi başlamışdı və bizə ehtiyacları var idi. Nə qədər ki, onlar Əfqanıstanda qalmışdılar, hər il bu sanksiya Amerika Prezidenti tərəfindən qaldırılırdı. Onlar ki, Əfqanıstandan qaçdılar, - özü də bütün dünyanın gözü qarşısında, - bu sanksiyalar yenidən bizə qarşı tətbiq edildi. Bu nankorluğun dərəcəsi var, yoxsa yox?! Yəni, biz sizə lazım olanda sən bu sanksiyaları aradan qaldırırsan, biz sizə lazım olmayanda yenidən bərpa edirsən, nə üçün? Bax buna görə, buna görə, bu binaya görə. Bunun kimi bütün bölgələrdə inşa etdiyimiz, bərpa etdiyimiz keçmiş köçkünlərimizin yaşayış yerlərinə görə. Bax, onların gözü bunu götürmür, bu günü götürmür. Bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür, matəm günüdür".

Tam aydındır ki, 44 günlük müharibədəki şanlı Zəfərimiz və lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ermənipərəst qüvvələrin, dünya erməniliyinin kürkünə birə salıb. Dövlətimizin başçısı çox doğru olaraq vurğulayır ki, onlar yas və matəm içindədirlər. Əslində, düşdükləri durum son dərəcə rəzillikdir və Birləşmiş Ştatlara bu rəzillikdən böyük pay düşür. Amerika özünün dünyaya bəyan etdiyi haqq və ədalət prinsiplərini, beynəlxalq hüququ, bəşəri dəyərləri tapdalayır.

ABŞ-ın Cənubi Qafqazda erməni milliyyətçiliyini diri saxlamaq niyyəti reallaşmayacaq və hər bir halda itirən özü olacaq. Ölkənin rəsmi dairələri, eyni zamanda, "erməni sevdası" ilə xəstələnmiş konqresmenləri unutmamalıdırlar ki, Azərbaycan keçmiş SSRİ-nin süqutundan sonra Qərbin regionda möhkəmlənməsi baxımından ən praktik addım atmış ölkədir. Tarixin heç bir dövründə Qərb, o cümlədən, ABŞ kapitalının Cənubi Qafqazdakı təmsilçiliyi indiki səviyyədə olmayıb. Ona görə hazırkı durumda Amerika "beyin strateqlərinin" Ermənistan üzərinə yatırmaq istədikləri siyasi sərmayə boş və mənasızdır. Kimsə düşünməsin ki, Azərbaycanı arxa plana atmaqla, bölgə üzərindən hansısa planlar gerçəkləşdirmək mümkündür. Milli Məclisin deputatları çox doğru olaraq vurğulayırlar: "Dövlət Departamentini Azərbaycana və onun Prezidentinə təzyiq göstərməyə çağıran konqresmenlərə xatırladırıq ki, xüsusilə 2020-ci ildən sonra baş verən hadisələr bir daha onu göstərdi ki, Azərbaycan heç vaxt hansısa təzyiqə, böhtana boyun əyməyib və heç bir iftira, heç bir hədə onun iradəsinə zərrə qədər belə təsir edə bilməz. Əksinə, bu kimi əməllərlə ABŞ Azərbaycan cəmiyyətində onsuz da dibə enən nüfuzunu daha da itirir. Bizim bu məktubumuz həm də Azərbaycan xalqının ABŞ-nin ikili standartlarına, yalançı dəyərlərinə olan hiddətini ifadə edir. Regionun ən güclü dövlətinə qarşı belə ədalətsiz, gülünc ittihamlar, hədələr həm də məktuba imza atan konqresmenlərin səbatsızlığını göstərir".



Əslində, deputatlarımızın XİN rəhbəri Ceyhun Bayramova müraciətlərində ifadə etdikləri tələb Azərbaycanın ABŞ-a qarşı reallaşdıra biləcəyi tədbirlərin çox kiçik hissəsidir. – Yəni, parlamentarilərimizin Azərbaycan və Birləşmiş Ştatlar arasında qüvvədə olan müqavilələrə, ələlxüsus, 1997-ci ildə imzalanmış "Azərbaycan Respublikası və ABŞ arasında gələcək hərbi və müdafiə əlaqələri haqqında" birgə bəyanata, 2013-cü ildə imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında avadanlığın alınması və qarşılıqlı xidmət haqqında" sazişə xitam verilməsi, yeni müqavilələrin razılaşdırılması və qüvvədə olmuş müqavilələrin uzadılması üzrə danışıqların dərhal dayandırılması, habelə ABŞ-ın Beynəlxalq İnkişafa Yardım Agentliyinin (USAID) və ölkənin qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycanda həyata keçirilən bütün layihələrin yolverilməzliyi və yeni layihələrə icazə verilməməsi, eləcə də USAID-in ölkəmizdəki fəaliyyətinə son qoyulması tələbləri mahiyyətcə yumşaq səciyyə daşımaqdadır.

Hiss olunur ki, körpüləri yandırmaq niyyətimiz yoxdur. ABŞ Dövlət Departamenti, ümumən, ölkənin hakim siyasi industriyasının təmsilçiləri bunu düşünməli və nəticə çıxarmalıdırlar. Bilməlidirlər ki, Azərbaycan dövləti adekvat addımlara getmək ixtiyarını və iradəsini özündə saxlayır. Ağ ev erməni lobbi və diaspor təşkilatlarının rüşvəti ilə bəslənən konqresmenləri, necə deyərlər, ayağına bağlamalı, onların murdar ağızlarını yummalı, ölkəmizlə münasibətin konstruktiv məcraya düşməsinə çalışmalıdır. Hazırda bunu etmək gec deyil, sabah indiki durum olmaya bilər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Çanaq Ermənistanın öz başında çatlayacaq

## *Paşinyan Cənubi Qafqazı böyük güclərin savaş meydanına çevirməyə çalışır*

**Ermənistan odla oynayır. Bunu tək biz demirik, digər ölkələrdə də belə fikirlər səsləndirilir. Məsələn, sonuncu dəfə Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) rəhbəri Aleksandr Bortnikov bildirib ki, Qərb İrəvan və Bakı arasında münasibətlərin normallaşmasına kömək etmək üçün Cənubi Qafqazda NATO kontingentini yerləşdirmək istəyir. Hayastanda gedən son proseslər də göstərir ki, Nikol Paşinyan hökuməti Cənubi Qafqaz regionunu böyük güclərin savaş arenasına döndərmək istəyir və bu qarışıqlıqdan faydalar götürəcəyini düşünür. Amma tarix dəfələrlə təsdiqləyir ki, ermənilər hər zaman böyüklərin döyüşündə əzilən tərəf olublar.**



Astanada MDB-yə üzv dövlətlərin Təhlükəsizlik Orqanları və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının 55-ci iclası keçirilib. İclasda Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Özbəkistan, İcraiyyə Komitəsi və MDB Antiterror Mərkəzinin nümayəndə heyətləri iştirak ediblər. Görüşdə beynəlxalq terrorizm, qeyri-qanuni miqrasiya, transmilli cinayətkarlıq, kibercinayətkarlıq və narkotiklərin qanunsuz dövriyyəsi sahəsində xüsusi xidmət orqanları arasında əməkdaşlığın cari məsələləri müzakirə olunub. İclasın yekunları üzrə kəşfiyyat xidmətlərinin rəhbərləri əməkdaşlığın forma və sahələrinin genişləndirilməsinin zəruriliyi, eləcə də MDB ölkələrinin təhlükəsizliyi sahəsində əməkdaşlığın gücləndirilməsinin zəruriliyi barədə razılığa gəliblər.

Amma bizi maraqlandıran təkcə iclasda qəbul edilmiş qərarlar yox, həmçinin görüşdə səsləndirilən bəyanatlar da maraqlandırır. Xüsusilə də FTX rəhbəri Aleksandr Bortnikovun Ermənistan-Qərb münasibətləri barədə çıxışı diqqət çəkir. Öncədən qeyd etmək yerinə düşər ki, Aleksandr Bortnikov kifayət qədər məlumatlı yüksək vəzifəli şəxsdir və dediyi sözlərin çəkisini çox yaxşı bilir. Astanda keçirilən görüşdə o, bəyan edib ki, amerikalılar və avropalılar Cənubi Qafqazda sabitliyin yaradılmasında maraqlı deyillər: "Qərb İrəvanı Bakı ilə danışıqları təxirə salmağa sövq etməklə, Ermənistan–Azərbaycan münaqişəsinin nizamlanması prosesinə rəhbərlik etməyə və regionda öz "sülhməramlı" kontingentinin, de-yure BMT və de-fakto NATO-nun yerləşdirilməsinə nail olmağa çalışır". Onun sözlərinə görə, Avropa İttifaqının (Aİ) Ermənistan və Azərbaycan sərhədində müstəqil mülki monitorinq missiyası şübhələr yaradır. FTX-nin məlumatına görə, missiya iştirakçıları Rusiya və onun tərəfdaşlarına qarşı kəşfiyyat fəaliyyəti həyata keçirirlər.

Bundan əlavə, FTX rəhbəri əmindir ki, Qərb dövlətləri Ermənistanı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxmağa inandırırlar və bu da İrəvanı NATO-dan asılı vəziyyətə salacaq. O bildirib ki, NATO-nun dünyanın müxtəlif regionlarında əvvəlki vasitəçilik təcrübəsini nəzərə alaraq, blokun Cənubi Qafqazda möhkəmlənməsi, təbii ki, regionda sabitliyə kömək etməyəcək. Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan KTMT-ni Ermənistanla Azərbaycan arasında Qarabağ münaqişəsi zamanı yardım göstərmədiyinə görə dəfələrlə tənqid edib. Fevralda o, ölkənin təşkilata üzvlüyünün dondurulduğunu elan edib və sonradan İrəvan onun maliyyələşdirilməsində iştirakını dayandırıb.

Lakin Aİ, gözlənildiyi kimi, A.Bortnikovun səsləndirdiyi bəyanatla razılaşmadığını bildirir. Qurumun xarici siyasət xidmətinin rəsmi nümayəndəsi Piter Stano Rusiya FTX rəhbərinin bəyanatını "cəfəngiyyat" adlandırıb: "Bu şərhlər tamamilə cəfəngiyatdır, yalan və manipulyasiyadır, Ermənistana verdiyi vəd və öhdəliklərin dəfələrlə yerinə yetirilməməsini ört-basdır etməyə çalışan Rusiya rejiminə xasdır". Amma başqa ölkələr bilməyə bilər, amma Azərbaycan görür ki, Aİ və Qərbin ermənipərəst ölkələri Ermənistan sərhəd zonasında nə işlə məşğuldurlar. Azərbaycan Cənubi Qafqazın məsuliyyətli və əsas dövləti kimi regionda davamlı sülh, sabitlik və təhlükəsizliyin bərqərar olmasında maraqlıdır. Ancaq Qərb İrəvana aktiv şəkildə silah-sursat verməklə və Azərbaycanın çoxdan həll olunmuş hesab etdiyi Qarabağ məsələsini gündəmə gətirməyə çalışmaqla, bununla da regionda gərginliyi artırmağa çalışır.

Qərb, guya Ermənistanın təhlükəsizliyi naminə regionda öz zəruriliyini fəal şəkildə təbliğ edir. Ermənipərəst ölkələrin Ermənistandakı mövcudluğunun ilk əlaməti 2022-ci ildə Azərbaycanla sərhəddə peyda olan Avropa İttifaqının müşahidə missiyası oldu. Bu missiyanın hələ də regionda olması özlüyündə İrəvan tərəfindən Bakı ilə əldə edilmiş razılaşmaların pozulmasıdır. Axı Azərbaycan ilkin olaraq şərti sərhəd istiqamətində Ermənistan tərəfində iki-üç ay müddətinə kiçik müşahidə missiyasının yerləşdirilməsinə razılaşdı. Lakin sonradan Bakının razılığı olmadan missiyanın qalma müddəti uzadıldı və sayı artırıldı. Daha sonra bu missiyaya Kanada nümayəndələri də daxil edildi. Beləliklə, Aİ-nin "mülki" elan etdiyi missiyası əslində NATO-nun hərbiləşdirilmiş missiyasına çevrildi.

Oktyabrın 4-də Cəbrayıl şəhərində sakinlərlə görüşdə də Prezident İlham Əliyev bir daha Ermənistana və onun havadarlarına sərt ismarıclar göndərdi. Ermənistanı təhlükəli oyunlardan uzaq durmasını, 44 günlük müharibədə ağır məğlubiyyətə uğradığını və Azərbaycandan imdad dilədiyini unutmamağı tövsiyə etdi. Qərb üçün Ermənistan Rusiya ilə böyük oyunda sadəcə sövdələşmə obyektidir və yaxşı olardı ki, Ermənistan təhlükəsiz şəraitdə yaşamaq istəyirsə, Qərb himayədarlarına arxalanmağı dayandırmalı və regional siyasətinə yenidən baxmalıdır. Qərb himayədarlarının onu sürüklədiyi təxribatlar və qarşıdurma, ilk növbədə, Ermənistanın özünə yeni bəlalardan başqa heç nə gətirməyəcək.

***S.ELAY***
***XQ***

**Qayıdışın akkordları**

# Cəbrayıl Simurq quşu tək yenidən doğulur



**(əvvəli 1-ci səhifədə)**

Qədim Türküstandan, Tanrı dağlarının yamaclarından, İraqdan, Suriyadan, Misir piramidalarından, İslam dünyasının qibləsi Məkkədən, Hindistanda Tac Mahaldan, Afrikanın günbatanında Məğribdən, quzeydə Londondan, Parisdən baxmışam Cəbrayıla. Onların hamısından gözəl, şirin, qutsal və ruhsal olub öz doğma yurdum mənə. Dopdolu tarix idi mənim Cəbrayılım. Türküstandakı Serik, Bayat, Talas və s. yüzlərlə toponimlərin, hidronimlərin, oykonimlərin hamısı var Ana yurdun bu kiçik parçasında.

Divlər və Azıx mağaraları, Hacı Qaraman ziyarətgahı, Xudafərin körpüsü, Dədə Qorqudda adı keçən Qazanzəmi kimi tarixi yerləri olan bu qədim diyarı xaçı sipər tutmuş haylar daşı, dəmiri, taxtası ilə taladı, satdı, yedilər. Məskunlaşdıra bilməsələr də qədim türk yurdunda qurduqları Ermənistana bağlamaq üçün bura yol çəkmək istəyirdilər. Dövlətimizin, elimizin xilaskar lideri İlham Əliyev 44 günlük ölüm-dirim savaşından sonra çəkdirdiyi yeni yolu göstərib onlara gülmüşdü: "Cəbrayıla yolu bax belə çəkərlər!"

1939-cu ildən Cəbrayılda müəllim işləmiş, 102-ci yaşında, qələbəyə bir il qalmış Bakıda gözlərini əbədi yummuş atam ulu öndər Heydər Əliyevin "Biz Şuşaya qayıdacağıq!" sözləri, Prezident İlham Əliyevin vədləri ilə təskinlik tapırdı. İnanıram ki, ulularımızın ruhları artıq ana yurdun yağı tapdağından xilas edilmiş torpaqlarında dolaşır, bu elin xilaskarına minnətdarlıq edirlər.

Prezidentimizin Cəbrayılda tarixi yerlərdən olan, Diridağla Qaradağ arasında Araz çayının üstündən salınmış Xudafərin körpüsündən o taya, bu taya müzəffər sərkərdə baxışları ilə nəzər salması xalqımıza çox mənalar anlatdı. Bu baxışların qarşısında böyük bir gələcək dayanıb.

Mən ağsaçlı başımı yurd həsrəti ilə dünyadan nisgilli köçmüş doğmalarımın, şəhidlərimizin də əvəzindən Cəbrayılımızın, külli Qarabağın xilaskarı, namusumuzu arındırmış Liderin qarşısında əyərək bu gerçəkliyi təkrarlayıram: bütün millət Sizin arxanızdadır, ey elimizin, dövlətimizin əbədi lideri!..

Son 30 ildə dünyanın ədalət tərəzisinin pərsənginin pozulduğu, meyarların itdiyi dönəmdə elini siyasətin dolanbac labirintləri ilə işıqlı sabaha aparan, ölkəsinin qələbəsinə meydan açan, torpağını işğaldan azad edən, millətini töhmətdən qurtaran lider müdriklər müdriki, qəhrəmanlar qəhrəmanıdır.

Eramızdan öncələrdə Türküstanın qadın hökmdarı Tomiris Ana (Dəmir üz qadın, indiki anlamda Dəmir ledi oğlunun qatili, fars hökmdarı Kirin kəsilmiş başını qanla doldurulmuş tuluğa ataraq "Qan hərisiydin, di iç!" demişdi. Qarabağın xilaskarı İlham Əliyev Cəbrayıldan başlanıb Şuşada və Xankəndidə tamamlanan müzəffər yürüşü ilə öz adını Tomrisdən Atatürkədək şanlı Türk sərkərdələrinin siyahısına yazdı!!! Zəmanəmizin bu böyük türkünü təkcə 50 milyonluq Azərbaycan deyil, Anadoludan, Qafqazdan Türküstanadək böyük və əzəmətli Türk dünyası sevir.

İşğalın ilk illərində çadırlarda yaşamış Cəbrayıl əhalisi çətinliklərə sinə gərərək 30 il sonra öcümüzü alan, bu gün yurd yerlərinə qayıdan yeni nəsli yetirdi. Dövlət başçısının şanlı Zəfərimizin səhərisindən başlayaraq davamlı olaraq təməllər atdığı – daş qoyduğu yerlərə Vətənin igid övladları 4 il əvvəl bugünlərdə qorxu-hürükü bilmədən, uf demədən baş qoyurdular. Oğullar ona görə baş qoyurdular ki, daşı-daş üstündə qalmayan bu yerlərdə yenidən daşı-daş üstə qoya bilək. Bu gün o daşlar düşmənlə dinc savaşımızda erməni vandalizminin izlərini silib-süpürən, olların murdar izlərini yox edən quruculuq gülləri və mərmiləridir.

3 min igidimizin əbədiyyət yamaclarında torpağı yenidən Vətən eləyən qanlarının yerində çəkilən yollar, elektrik, qaz, su xətləri, ucalan yaraşıqlı Cəbrayıl şəhəri, yeni kəndlər, yaradılan elektrik stansiyaları, aqrar parklar və müəssisələr – bütövlükdə, nəhəng tikinti meydanı olan Qarabağ və Şərqi Zəngəzurun xarabalıqlardan boy atıb yüksələn hər daşı, hər tikilisi, hər məntəqəsi xalqımıza tarixin ən böyük savaş qələbəsini qazandırmış Prezident və Ali Baş Komandan İlham Əliyevin zəka və qüdrətinin əməli işlərdə təcəssümüdür.

Bu gün azad edilmiş torpaqlarda – Vətən yolunda qurban getmiş hər igidin baş qoyduğu yerdə, müzəffər sərkərdənin dediyi kimi, əbədi olaraq yaşayacağımız yurdun abad evlərinin, çörəkli iş yerlərinin, çağdaş həyat mənbələrinin daşları ucalır.

***Fazil GÜNEY,***
***Əməkdar jurnalist,***
***fəlsəfə doktoru***

# İrəvan "konstitusiya problemi"ni çözə bilər

## *Müsahibimiz Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxovdur*

**Ermənistan hakimiyyəti sözdə Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş imzalanmasını istədiyini bildirsə də, əməldə buna zidd addımlar atır. Rəsmi İrəvan sazişin imzalanmasına əngəl olan əsas məsələni həll də aradan qaldırmayıb. Söhbət ölkə konstitusiyasında Azərbaycana ərazi iddialarını ehtiva edən Müstəqillik bəyannaməsinə istinadın qalmasından gedir. Qarşı tərəfin son davranışları onun konstruktiv addım atacağına böyük şübhələr yaradır.**



Nikol Paşinyan hökumətinin üzvləri son vaxtlar müstəqillik bəyannaməsinə istinadın Azərbaycana ərazi iddiası ehtiva etməsini danmağa başlayıblar. Onlar öz mövqelərini ölkənin Konstitusiya məhkəməsinin sentyabrın 26-da qəbul etdiyi qərarla "əsaslandırmağa" çalışırlar. Həmçinin, Paşinyan bir müddət öncə konstitusiya dəyişikliyi üzrə referendumun 2026-cı ildən tez keçirilə bilməcəyini açıqlamışdı. Bir sözlə, İrəvanın mövqeyi iki ölkə arasında yaxın vaxtlarda sülh sazişinin imzalanacağı ehtimalını heçə endirir.

Yaranmış vəziyyəti şərh etməsi üçün Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxova müraciət etdik.

**– Fikrət müəllim, Ermənistan xarici işlər nazirliyinin mətbuat katibi Ani Badalyan ölkəsinin "sülhsevər mövqeyi" ilə bağlı açıqlama verib. Azərbaycan XİN isə oktyabrın 5-də yaydığı məlumatda həmin açıqlamanın beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə manipulyasiya olduğunu bildirib. İlk olaraq, bu məsələyə münasibətinizi öyrənmək istərdik…**

– Ermənistanın bu cür yalanlar uydurmasının əsas məqsədi dünya və xüsusilə Avropa ictimaiyyətinin diqqətini əsas məsələdən, yəni özünün sülh istəyində səmimi olmamasından yayındırmaq və gələcəkdə də manipulyativ xarakter daşıyan addımların atılmasına zəmin yaratmaqdır. Qarşı tərəf bununla, təbii ki, özünü, necə deyərlər, "sülh göyərçini", Azərbaycanı isə aqressor kimi qələmə verməyə çalışır. Onların bütün addımlarının məqsədi budur. İstəyirlər ki, manipulyasiyanı gələcəkdə daha da genişləndirsinlər.

**– Sizcə, Ermənistanın indiyədək yürütdüyü siyasət onun Azərbaycanla sülhdə maraqlı olmadığının göstəricisi deyilmi?**

– Əslində, bütün faktların təhlili göstərir ki, Ermənistan sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişi imzalamaqda maraqlı deyil. Bundan hər vəchlə boyun qaçırır. İrəvanın sülhdən boyun qaçırmasının bir sıra səbəbləri var. Əvvəla, hiss edir ki, bir sıra Avropa dövlətləri, xüsusilə Fransa onun başını sığallayırlar. Onları ABŞ Konqresində dəstəkləyən müəyyən şəbəkə var. Həmin qüvvələr ölkəmizə qarşı müəyyən dinləmələr keçirir, fikirlər səsləndirirlər. Guya, biz Qarabağ ermənilərinə qarşı "etnik təmizləmə" həyata keçirmişik. Ermənistan bundan istifadə edərək vaxtı uzatmağa çalışır. Bununla süni problemlər yaradır. Görünür, bu da bəzi Avropa ölkələrini və siyasi dairələri qane edir.

Çox güman ki, Nikol Paşinyan iqtidarının belə bir mövqe tutması elə avropalılar tərəfindən sifariş şəklində İrəvana göndərilib. Ermənistanın ümidi hazırda Fransaya, amerikalı konqresmenlərədir. Ola bilsin ki, Ermənistan hökuməti hansısa sazişə imza atmaq istəyir. Amma xarici havadarlar tələb edirlər ki, onların şərtləri üstün tutulsun. Biz isə bu məsələyə obyektiv yanaşırıq və sadəcə olaraq, Cənubi Qafqaz bölgəsində sabitliyin yaranmasının tərəfdarıyıq. Həm Avropa, həm də Amerika bölgədən çox uzaqda, necə deyərlər, uzaq sahillərdə yerləşir. Burada yaşayan bizik – azərbaycanlılar və ermənilər. Görünür, bunu İrəvanda nədənsə yaddan çıxarırlar.

**– Bu il sentyabrın 26-da Ermənistan Konstitusiya məhkəməsi iki ölkə arasında sərhədlərin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyətini tənzimləyən reqlamentin ölkə konstitusiyasına uyğunluğu barədə rəy verib. Ermənistan xarici işlər nazirliyinin mətbuat katibi Ani Badalyan məhkəmənin qərarına Hayastan konstitusiyasında "qonşuların qarşı ərazi iddialarının mövcud olmadığının təsdiqi" kimi istinad edib. Bu açıqlamanı necə şərh edərdiniz?**

– Məsələ bundadır ki, həm delimitasiya və demarkasiya məsələsi, həm Konstitusiya məhkəməsinin sərhədlərin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyətini tənzimləyən reqlamentin ölkə konstitusiyasına uyğunluğu barədə verdiyi rəy, həm də əsas qanunda ərazi iddialarının qalması bir-biri ilə ziddiyyət təşkil edir. Əgər Konstitusiya məhkəməsi delimitasiyaya dair reqlamenti təsdiq edirsə, bu heç də o demək deyil ki, onların ərazi iddiaları yoxdur. Bunlar tamamilə fərqli məsələlərdir. Əsas məsələ konstitusiyanın giriş hissəsində Ermənistanın Azərbaycana birbaşa ərazi iddialarının qalmasıdır. Konstitusiyada müstəqillik bəyannaməsinə istinad var. Bəyannamədə isə Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi çağırışı yer alıb. Qeyd edilir ki, Ermənistan Qarabağla birləşərək vahid dövlət olmalıdır. Bundan əvvəl isə Ermənistan parlamentinin sələfi olan Ali Sovetin bununla bağlı qəbul etdiyi qərar var. Həm bu qərar, həm də Müstəqillik bəyannaməsində olan maddələr tam olaraq əsas qanuna daxil edilib. 1995-ci ildə Ermənistanın yeni konstitusiyası qəbul edilərkən bu müddəa yenidən əsas qanunda öz əksini tapıb. Yəni, bunlar, sadəcə olaraq, konstitusiyadan həmin müddəanı çıxarmamaq üçün müxtəlif bəhanələr axtarıb tapırlar. Guya, delimitasiya məsələsində də qarşı tərəfin iddiaları yox idi və proses tam könüllü şəkildə həyata keçirilib. Ermənistan az qalmışdı ki, delimitasiya məsələsində bizə iddialar irəli sürsün. Onlar delimitasiyanı könüllü həyata keçirdikləri kimi qələmə verməməlidirlər. Bu, Azərbaycanın təzyiqinin nəticəsi idi. Bunlar Azərbaycana məxsus kəndlər idi. Biz digər kəndlərin qaytarılması ilə bağlı da addımlarımızı atacağıq. Düşünürəm ki, konstitusiyada müstəqillik bəyannaməsinə istinadın qalması ilə sərhədlərin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyətini tənzimləyən reqlamentin əsas qanuna uyğunluğu barədə verilən rəy arasında heç bir oxşarlıq və uyğunluq yoxdur.

**– Konstitusiya məhkəməsinin qərarında Azərbaycan ərazilərinə iddianı ehtiva edən müstəqillik bəyannaməsinə istinadın əsas qanunun ayrılmaz tərkib hissəsi kimi əhəmiyyəti vurğulanıb. Xüsusən də, məhkəmə qərarında preambula və dolayısı ilə müstəqillik bəyannaməsi "erməni dövlətçiliyinin əsas prinsipləri" kimi səciyyələndirilib və onların dəyişilməz müddəalar olduğu qeyd edilib. Ermənistan həqiqətən sülh istəyirsə, bu müddəadan niyə imtina etmir? Bir ölkənin gələcəyini 33 il bundan əvvəl qəbul edilmiş sənədə qurban verək olarmı?**

– Müstəqillik bəyannaməsi qəbul etmək hər bir xalqın öz işidir. İndi belə düşünüb bəyannamə qəbul ediblərsə, özləri bilər. Söhbət onun konstitusiyaya daxil edilməsindən və müddəalarından gedir. Yəni, onlar hesab edirlər ki, konstitusiyadan müstəqillik bəyannaməsinə istinadı çıxarsalar, guya, həmin sənədə zərbə vuracaqlar. Amma, bu, belə deyil. Onların Müstəqillik bəyannaməsi ilə bizim heç bir işimiz yoxdur və bu, bizi maraqlandırmır. Yenə deyirəm, söhbət bəyannamənin giriş hissəsində ölkəmizə qarşı yönəlmiş maddədən gedir. Onlar bütün vasitələrdən istifadə edirlər ki, bunu ört-basdır etsinlər. Bunun üçün gah delimitasiya məsələsi ilə bağlı Konstitusiya məhkəməsinin qərarından, gah da digər məsələlərdən danışırlar. Bizi onların əsas qanunu maraqlandırır. Çünki konstitusiya ölkənin əsas qanunudur. Bütün ölkələrdə konstitusiyadan irəli gələn addımların atılması hökumətlərin başlıca vəzifəsidir. Əgər biz əsas qanunda Müstəqillik bəyannaməsinə istinad aradan qaldırılmadan Ermənistanla sülh sazişi imzalayacağıqsa, bunun gələcəyini də düşünməliyik. Gələcəkdə Ermənistanda hansısa siyasi qüvvə hakimiyyətə gəlsə, sülh sazişini çox asanlıqla öz maraqlarına cavab verməyən sənəd kimi qəbul edə bilər. Deyə bilər ki, konstitusiyanın preamb ulasında belə bir maddə var. Hə bunu nəzərə alaraq, onu daha üstün hesab edirik, nəinki Azərbaycanla imzalanmış ikitərəfli sazişi. Baxın, əsas məsələ budur. Yəni, bu, biz tərəfdən olduqca sadə, konkret, normal yanaşmadır. Heç bir dövlət buna imza atmaz.

Əgər onlar bizimlə sülh sazişi imzalamaq, sülh şəraitində yaşamaq istəyirlərsə, konstitusiyadan preambula hissəsini çıxarmaq üçün müxtəlif variantlar düşünə bilərlər. Onlar fikirləşməli, ölkənin ən tanınmış hüquqşünaslarını bir yerə yığmalı və məsələnin hüquqi çözüm yolunu tapmalıdırlar. Düşünürəm ki, istəsələr, bu məsələni çox asanlıqla yoluna qoya bilərlər.

Biz torpaqlarımızı ona görə döyüşərək, şəhidlər verərək işğaldan azad etməmişik ki, yenə də onların ərazi iddiaları ilə üzüzə qalaq. Qarşı tərəf Azərbaycana ərazi iddiasına əsas verən hər cür addımlardan birdəfəlik əl çəkməlidir. Bunlar çox mühüm siyasi-hüquqi məsələlərdir. Onlar nə qədər manipulyativ hərəkət etsələr də, hansısa ictimai dairələri aldatmaq istəsələr də, sənədlər göz önündədir. Sənədləri hər zaman qaldırmaq və bizə qarşı ittihamla çıxış edən hər bir kəsə sübut kimi göstərmək olar. Amma hazırda bizim əsas məqsədimiz bundan ibarətdir ki, Ermənistan özü bunu başa düşsün və ölkəmizə qarşı ərazi iddialarından əl çəksin. Əks təqdirdə biz işğalçı ölkə ilə sülh sazişi imzalaya bilməyəcəyik.

***Səxavət HƏMİD***
***XQ***

# ABŞ "insan haqları" mövzusunu təzyiq alətinə çevirib

**(əvvəli 1-ci səhifədə)**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Effekt əldə etmək üçün yeni mexanizmlər də yaradıblar. Məsələn, Avropa Şurasının nəzdində fəaliyyət göstərən "Jurnalistlərin Təhlükəsizliyi Platformasını" idarə edən "Tərəfdaş təşkilatlar"dan ibarət olmaqla, əlahiddə koalisiya yaradıblar. "Gürcüstan üzrə xüsusi Faktaraşdırıcı missiya" adlandırılan və 8 beynəlxalq jurnalist təşkilatından ibarət olan bu koalisiyanın məramnaməsndə göstərilir ki, o, "Gürcüstanda media və ifadə azadlığı üzrə öhdəliklərin yerinə yetirilməsinin vəziyyəti barədə məlumat toplamalıdır". Gerçəklik isə budur ki, onlar Gürcüstanı "söz və ifadə azadlığının pozduğuna görə" ittiham edən hesabatlar hazırlamaq yönündə təlimatlandırılıblar.

Oktyabrın 3-də "Faktaraşdırıcı missiya" adından yayımlanmış hesabatdan belə görünür ki, koalisiya dərin araşdırma aparmayıb. Qərşısına çıxan istənilən faktı tərsinə şərh edərək, Gürcüstan hakimiyyətinin əleyhinə olan arqument kimi sənədləşdirib. Məsələn, sentyabrın 15-də qeydə alınan fakt üzrə Gürcüstanı ona görə pisləyiblər ki, sürgündə olan Belarus jurnalisti Andrey Mialeşkanın Tbilisiyə gəlişinə mane olublar. Sentyabrın 17-də isə erməni "jurnalist" Arsen Xaratyanın Gürcüstana girişinə icazə verilməyib. Dövlət Sərhəd Xidməti insidenti hər iki şəxsin sənədlərində aşkarlanan uyğunsuzluqla izah edib. Missiya isə buna nəzər yetirmir. Faktı "jurnalist hüquqlarının pozulması" kimi fiksasiya edir.

"Faktaraşdırıcı missiya" Arsen Xaratyanın jurnalist, yoxsa siyasətçi olması faktına diqqət yetirməyib. Hansı ki, o, "Aliq Media"nın təsisçisi olmaqdan daha çox, Nikol Paşinyanın müşaviri kimi tanınır. Qərb institutları uzun illər ərzində dünyaya təlqin ediblər ki, "siyasətə bulaşanda, jurnalistika bitir"; "Təbliğatçı mövqe tutan subyekt KİV qurumu olmaq statusunu itirir, siyasi bülletenə çevrilir". Amma AŞPA yanındakı "Faktaraşdırıcı missiya"nın tərkibinə daxil olan 8 beynəlxalq jurnalist təşkilatının heç biri Arsen Xaratyanın siyasi kimliyinə diqqət yetirmir. Çünki, Xaratyanın kimliyini araşdırmaq onlara sərf eləmir. Onlara Gürcüstanı ittiham etmək üçün "fakt" lazımdır. Bu faktın doğru və yanlış olmasının əhəmiyyəti yoxdur.

"Faktaraşdırıcı missiya" Gürcüstan parlamentinin sentyabr ayının 17-də qəbul etdiyi "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi" adlı qanuna münasibəti də eyni kontekstdən çıxış edir. Onlar hesab edirlər ki, bu qanun "mətbuat və ifadə azadlığına ziddir". Arqumentləri budur ki, yeni qanunvericilik ölkədə "LGBT+ mövzusunda sərbəst reportaj hazırlamaq imkanlarını məhdudlaşdırır". Maraqlıdır, Gürcüstan öz ərazisində ailə institutunu qorumağa yönəlmiş addımlar atırsa, Avropa nə üçün bu qədər narahat olur?

Gürcüstan Avropa strukturlarına, o cümlədən, Avropa Əməkdaşlıq və Təhlükəsizlik Təşkilatına (ATƏT), yaxud Avropa Şurasına ona görə üzv olmayıb ki, gəlib burada "LGBT+" hərəkatını, ya da "Radikal feminizm" istimulaşdırsınlar, ailə institutunu dağıtsınlar. ATƏT-ə, AŞ-yə üzv olmaqda məqsəd ölkənin təhlükəsizliyinə təminat almaqdır, demokratik inkişaf yolunda dəstək qazanmaqdır. Bu gün ərazisi param-parça olmuş, ən azı 3 yerə parçalanmış Gürcüstanın suverenliyinin təmin edilməsi üçün ATƏT və AŞ hansı real addımları atıblar? Avropa institutları "LGBT+" icmasının hüquqlarını qorumaq üçün göstərdikləri entuziazmı, qətiyyəti Gürcüstanın ərazi bütövlüyünün, suverenliyinin bərpası məsələsində nə üçün sərgiləmirlər?

Yeri gəlmişkən, Avropa institutları bu cür qondarma mövzular üzrə Gürcüstana qarşı təkcə bəyanatlar verməklə kifayətlənmirlər. Həm də bu ölkəyə qarşı təsirli sanksiyalartətbiq edirlər. Bu işi əvvəlcə "insan haqlarını müdafiə edən təşkilatlar" müştəvisində həyata keçirirlər. Daha sonra dövlətlərarası təşkilatların siyasətində əks etdirirlər. Məsələn, "Faktaraşdırıcı missiyanın" üzvlərindən biri olan "Sərhədsiz Reportyorlar" Təşkilatı Gürcüstanın "media azadlığı indeksi" üzrə reytinqini son bir il ərzində böyük ölçüdə - 26 pillə - geri atıb. Onu 77-ci pillədən 103-cü pilləyə endirib. Hesabatın şərh bölümündə bu addım bir neçə səbəblə əlaqələndirilib. Argumentlərdən biri budur ki, Gürcüstan 2023-cü ildə "Xarici agentlər haqqında qanun" layihəsini (Xarici təsirlərin şəffaflaşdırılması haqqında qanun) müzakirəyə çıxarıb.

RSF-nin bu iddiasının cəfəngiyyat olduğu barədə çoxsaylı məqalələr yazıldığı üçün üzərindən keçirik. Qısaca olaraq vurğulayaq ki, eyni məzmunlu qanun ABŞ-də mövcuddur. Amma buna görə heç bir təşkilat ABŞ-yə irad bildirmir, onu qınaq hədəfinə çevirmir.

Paradoksal haldır ki, ABŞ və Avropa İttifaqı bu mövzuya görə Gürcüstana sanksiyalar tətbiq ediblər. "Xarici təsirin şəffaflığı haqqında" Qanun 2024-cü ildə qəbul edildikdən sonra ABŞ rəsmi Tbilisiyə yardım məqsədilə nəzərdə tutulmuş 95 milyon dollarlıq paketi ləğv edib. Avropa İttifaqı da eyni cür davranaraq, 2024-cü ildə Gürcüstan silahlı qüvvələrinə dəstək üçün Avropa Sülh Fonduna ayırdığı vəsaiti dondurub.

Qərb dövlətlərinin fəaliyyətində müşahidə edilən paradoksal davranışlar təkcə ABŞ-nin özündə olan qanunu Gürcüstanda görüb qıcıqlanması ilə bitmir. Paradoksallıq həm də Qərbdə mənzillənmiş "insan haqları müdafiəçilərinin", "beynəlxalq statuslu jurnalist təşkilatları"nın əməllərindədir. Son bir il müddətində Gürcüstana qarşı sərgilənən münasibət onu sübut edir ki, bu təşkilatların "müstəqilliyi", "prinsipiallığı" barədə deyilənlər sadəcə fiksiyadır. "İnsan haqları", "hüquq müdafiəçiliyi", "söz və ifadə azadlığı", "vətəndaş cəmiyyəti institutları" anlayışları Qərbdə özünün klassik mənasını itirib. Adıçəkilən məfhumlar ABŞ və Qərbi Avropa dövlətlərinin əlində soyuq silah alətinə çevrilib. Bu gün "Amnesty İnternational", "Freedon House", "Human Rights Watch", "Sərhədsiz Reportyorlar" Təşkilatının Gürcüstana qarşı münasibəti ABŞ Dövlət Departamentinin, Avropa İttifaqı Şurasının siyasi qərarları ilə sinxronluq təşkil edirsə, hansı "müstəqillik"dən, "hüquq müdafiəçili"yindən danışmaq olar? Gürcüstan nümunəsi təsdiq edir ki, bu təşkilatlar Qərb siyasi çevrələrinin qərarlarının icraçısına çevriliblər. Tezis alıb, sifariş icra edirlər. Qərbin cızdığı siyasi çevrədən kənara çıxan, ABŞ-nin siyasi ambisiyalarına boyun əyməyən dövlətləri hədəfə gətirib, ictimai qınaq obyektinə çevirirlər. ABŞ-nin, Avropa İttifaqı Şurasının hədəf dövlətlərə qarşı sanksiyalar tətbiq etmələri üçün zəmin hazırlayırlar.

Müqayisə üçün qeyd edək ki, media fəaliyyətini, söz və ifadə azadlığını kəskin şəkildə məhdudlaşdıran 2 fərqli qanun son illərdə Fransada da qəbul edilib. "İnformasiya manipulyasiyasına qarşı mübarizə haqqında 1202 saylı Qanun" 2018-ci ilin dekabr ayında qüvvəyə minib. 2019-cu ildə isə "Qlobal təhlükəsizlik" qanununun layihəsi müzakirəyə çıxarılıb. Hər iki qanun ciddi etirazlara səbəb olub. Analitik mərkəzlər iddia edirdilər ki, "İnformasiyanın manipulyasiyasına qarşı mübarizə qanunu" Fransada mətbuata qarşı senzuraya yol açır. "Evronews" yazır ki, Fransa parlamenti hakimlərə seçki kampaniyaları zamanı "saxta xəbərləri" dərhal silmək üçün səlahiyyət verməklə, ifadə azadlığını pozur, tənqidi səsləri susdurmağa şərait yaradır. Çünki ani məqamda "saxta xəbərlə" "tənqidi fikri" fərqləndirmək, hansı xəbərin dezinformasiya, hansının tənqid olduğunu müəyyənləşdirmək çətindir: "Bu yanaşma imkan verir ki, dezinformasiya adı altında həm də Fransa prezidentinə qarşı yönələn tənqidi fikirlər dövriyyədən çıxarılsın".

Yazdılar, tənqid etdilər. Amma bu iki qanunun heç birinə görə Fransanın adı "Sərhədsiz Reportyorlar"ın media azadlığı indeksi"ndə geri pilləyə çəkilməyib. Əksinə, 2017-ci ildə Fransanın adı "media azadlığı indeksi"ndə 39-cu yerdə olub, 2018-ci ildə isə 33-cü pilləyə irəli çəkilib. Bu gün isə 21-ci yerdədir. Yəni, Fransa neqativ yüklü qanun qəbul etdiyinə görə mükafatlandırılıb. Hansı məntiqlə, eyni əmələ görə Fransa mükafatlandırılıb, Gürcüstan isə cəzalandırılıb? Budur Avropa dövlətlərinin və Avropada məskunlaşan hüquq müdafiə təşkilatlarının insan haqlarına, söz və ifadə azadlığına münasibəti.

Sirr deyil ki, Qərbdə mənzillənən "insan haqları təşkilatları"nın indiki halda Gürcüstanı hədəf seçmələrinin səbəbi ölkədə insan haqları pozuntusu ilə bağlı deyil. İndiki təşviş oktyabr ayının 26-da keçiriləcək parlament seçkiləri ilə bağlıdır. Qərbin boyunduruğunda sürünən siyasi qruplarının bu seçkilərdə qələbəsini təşkil etmək üçün suyu bulandırırlar. Sanksiyalar tətbiq etmək, təzyiqlər göstərmək, ictimai rəyi çaşdırmaqla üstünlüyü ələ almağa çalışırlar. Gürcüstanda hədəfə çatmaq üçün ABŞ Dövlət Departamenti hansı planı qurursa, "insan haqlarını müdafiə təşkilatları" da onu icra edirlər. "İnsan haqları", "söz və ifadə azadlığı" mövzusunu öz məqsədləri naminə manipulyasiya edirlər.

Belə riyakarlıq təkcə Gürcüstana qarşı münasibətdə deyil, Azərbaycana yönəlik siyasətdə də özünü biruzə verir. Son bir ay ərzində baş verənlər kifayət qədər nümunə yaradır. 27 sentyabr – 4 oktyabr 2024-cü il tarixdə Avropa Şurası Parlament Assambleyasının payız sessiyası keçirilən zaman, Azərbaycanın özünün iştirakı təmin edilmədən, "Azərbaycanda insan haqları üzrə " dinləmələr keçirildi. Avropa Şurası Monitorinq komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Liz Kristoferson Bakıda həbsdə olan "Qarabağ liderlərinin" işgəncəyə məruz qaldığını, "Qarabağda ermənilərə qarşı etnik təmizləmə tətbiq edildiyini" bəyan etdi. Xanım Kristofersenin iddiaları o qədər absurddur ki, şərh verməyə lüzum qalmır. Amma o, hansısa məntiqlə "dəstək qazanır".

58 nəfər qanunverici oktyabrın 3-də ABŞ-nin Dövlət katibi Antoni Blinkenə məktub yazaraq, COP29 sammiti ərəfəsində Azərbaycana "insan hüquqları ilə bağlı" təzyiq göstərməyə çağırdılar. Onlar da Bakıda saxlanılan "separatçı liderlərin" azadlığını istəyirlər.

Avropa və ABŞ qanunvericiləri "Qarabağ liderləri"nin "haqlarını" insan hüquqları kontekstində təqdim edirlər. Bəs 30 il müddətində yurd-yuvasından didərgin salınmış 1 milyonluq qaçqının, Qarabağ müharibələrinin gedişində həyatını itirmiş minlərlə şəhidin, girov götürülmüş, əqibəti bu gün də bəlli olmayan 4 min nəfərə yaxın Azərbaycan vətəndaşının, müharibə travması almış 90 min nəfərdən artıq insanın haqlarını nə vaxt insan hüquqları kontekstində dəyərləndirəcəklər?

Təbii ki, heç zaman. Onlara insan haqlarının təmin edilməsi lazım deyil. Cənubi Qafqazda siyasi maraqları var. Həmin maraqların təmin edilməsi üçün alət olanların hüquqlarını qoruyurlar.

# "Bəs nə oldu, Paşinyan, Cəbrayıla yol çəkdirirdin?"



**Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır… Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir.**

**Azərbaycan Prezidenti İlham Əliyevin birinci andiçmə mərasimindəki nitqindən.**

**31 oktyabr 2003-cü il**

**Azərbaycan Prezidenti İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirakını, yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarının təqdim edilməsini və dövlət başçımızın oradakı tarixi çıxışını mən də maraqla izlədim. Üstəlik, həmin çıxışın tam mətni yayılana qədər hansısa xəbər saytı yazmışdı ki, Prezident Əliyev nəinki Ermənistana xəbərdarlıq etdi, hətta, Avropa və ABŞ rəsmilərini də riyakarlıqdan əl çəkməyə çağırdı. Həmin çıxışın yazılı variantını oxuduqca isə bu gün dünyada hamının tanıdığı iki məşhur avropalının müharibə və sülh barədə ifadələri yadıma düşdü.**

## Millətin güvənc qılıncı

Dövlət başçımızın Cəbrayıldakı çıxışında geridə qalan illər, xüsusən, ATƏT-in məlum münaqişənin nizamlanması məqsədilə yaratdığı Minsk qrupu həmsədrlərinin yarıtmaz fəaliyyəti barədə danışarkən xatırlatdığı üç cümləyə diqqət yetirək: "Biz bütün beynəlxalq platformalarda öz haqq səsimizi ucaldanda bizə deyirdilər ki, sizin sözləriniz çox kəskindir. Bu kəskin ritorika sülhü yaxınlaşdırmır, sülhü uzaqlaşdırır. Ermənistanla dil tapmalısınız, barışmalısınız, müharibəni uduzmusunuz, bununla barışın".

Təbii ki, dünyanın aparıcı güc mərkəzlərindən eşitdiyimiz bu təkliflər təkcə işğalın əsaslandırılması üçün edilən riyakarlıq yox, həm də açıq türkofobiya, islamofobiya, anti-Azərbaycan mövqeyin nümayiş etdirilməsi, başqa sözlə şərəfsizlik idi.

Cənab Prezidentin Cəbrayıldakı çıxışının həmin məqamını eşidəndə mən alman dövlət xadimi və XIX əsr dünya siyasətinə ciddi təsir etmiş şəxs olan Otto fon Bismarkın (1862–1890-cı illərdə Prussiyanın əvvəlcə nazir-prezidenti olmuş, sonra isə kansler kimi Almaniyanın birləşdirilməsi məsələsi ilə məşğul olmuşdu) bir ifadəsini xatırladım: "Hər millət taleyi üçün öz qılıncına güvənməlidir".

Həmin arqumentlə öz arqumentimizi uzlaşdırmaq üçün xatırladım ki, Prezident İlham Əliyev əsrlər boyu müxtəlif dövlətlərin tərkibində yaşamağa məhkum edilmiş Azərbaycan millətində məhz "öz qılıncına güvənmək" keyfiyyətinin formalaşdırılması üçün nə gərəkdisə, onu etdi və nəticədə – 2020 -ci ilin payızında bizi iki əsr gözlədiyimiz tam suverenliyə qovuşdurdu. Fransadakı bədxahlarımızı və ABŞ-dəki bəzi mənfi ünsürləri istisna etsək, dünyada hamı bizim suverenliyimizi tam bərpa etməyimizi alqışlayır.

## "Sülh" uğrunda müharibə

Cənab Prezident cəbrayıllılarla görüşdə dedi ki, Cəbrayıldan və Hadrutdan sonra Füzuli əməliyyatı oktyabrın 17-də uğurla başa çatmışdır və yolumuz həm Şuşaya, həm Zəngilan və Qubadlı istiqamətinə açılmışdır: "Müzəffər Ordumuzun zəfər yürüşü bundan sonra daha sürətlə getmiş və qeyd etdiyim kimi, döyüş meydanında böyük yaşayış məntəqələrini – Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, rayonlarını, Laçın rayonunun bir neçə kəndini və nəhayət, noyabrın 8-də Şuşa şəhərini azad edə bilmişik. Bütövlükdə, 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Beləliklə, Ermənistan noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu".

Oxucu məni qınamasın, həmin çıxışdakı bu məlumatları dinləyərkən də mən başqa bir avropalının savaş və sülh haqqında dediyi, sonralar ədalətli müharibə aparan xalqların dilində aforizmə çevrilmiş bir fikiri xatırladım. Belə ki, əslində, müharibənin əleyhinə olan böyük alim Albert Eynşteyn iştirak etmək istədiyi müharibənin şərtini dilə gətirmişdi: "Mən sülh uğrunda müharibə etmək istəyirəm".

Az qala, demək istəyirsən ki, eynilə bizim kimi. Çünki Prezident İlham Əliyev, sözün həqiqi mənasında, təkcə Azərbaycanla Ermənistan arasında deyil, regionda və bütün dünyada sülhün bərqərar edilməsi üçün çalışan ən müdrik siyasətçilərdən biridir. Elə 2020-ci il sentyabrın 27-də ordumuza "İrəli!" əmrini verəndə də, mübarizənin sona qədər – bütün ərazilərimizin işğaldan tam azad olunmasınadək – aparılacağını söyləyəndə də ilk məqsədi ərazi bütövlüyümüzün bərpası olsa da, ikinci məqsədi də regiondakı üzücü münaqişənin sülhlə əvəzlənməsinə nail olmaq idi. Bunu qalib ölkənin Ali Baş Komandanının müharibə qurtaran kimi qarşı tərəfə sülh təklifləri göndərməsi də sübut edirdi.

## Erməni fitvasının ifşası

Başqa bir məqama diqqət yönəldək. Mətbuatdan məlum olduğu kimi, guya, ABŞ parlamentariləri bu ölkənin Dövlət katibinə yazılı müraciət edərək Azərbaycana qarşı hansısa sanksiyaların tətbiq edilməsini istəyiblər. Əslində isə o məktubun bilavasitə dövlət katibliyində hazırlandığı heç kəsdə şübhə doğurmur.

Dövlət başçımız okeanın o tayındakı "dostlarımızın" irqi ayrı-seçkiliyi ehtiva edən, böhtan dolu, dialoq ruhuna zidd olan, müharibə cinayətkarlarının azadlığa buraxılmasına və Ermənistanın hərbiləşdirilməsinə çağırış edən həmin cəfəngiyyatı Azərbaycan tərəfindən qəbuledilməz, beynəlxalq hüquqa və Azərbaycan – ABŞ ikitərəfli münasibətlərinin ruhuna zidd addım kimi qiymətləndirdi. Prezident İlham Əliyev Cəbrayıldakı çıxışında dedi ki, Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir: "Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir… Yəni, özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik".

## Cəhənnəmdən cənnətə yol

Uşaqlıq illərində eşitdiyimiz bir mahnının bu sözləri Cəbrayıl şəhərində yeni ev almış keçmiş məcburi köçkün Firudin Əliyevin çıxışını eşidəndə yadıma düşdü. Firudin müəllim dövlət başçımıza dedi ki, sizin yol barədə məşhur bir ifadəniz var idi. Cəbrayılın yol məsələsi artıq öz həllini tapıb.

Xatırladaq ki, işğalçı ölkənin hərdəmxəyal baş naziri 2019-cu ildə Cəbrayıla yol çəkdirdiyini demişdi. Azərbaycan Ordusu qarğa - quzğunu qovaraq, Cəbrayılda Günəş doğmasına zəmin yaradandan sonra dövlət başçımız çıxışlarının birində demişdi: "Bəs nə oldu, Paşinyan, Cəbrayıla yol çəkdirirdin?".

Bəli Cəbrayıla yol çəkildi. Həm də o torpaqların öz sahiblərinin əli ilə. Dövlət başçımız o yol barədə elə Cəbrayılın özündə söz açdı: "İnfrastruktur layihələrinin icrası dərhal başlamışdır və bu gün Cəbrayıla gələn hər bir insan görür, həm köhnə yol, hansı ki, sovet vaxtında olan yol yenidən qurulmuşdur və mən o yolu çox yaxşı xatırlayıram. Çünki Zəfərdən sonra o yolla dəfələrlə bu bölgələrə gəlmişəm. Yeni dördzolaqlı magistral yol uğurla inşa edilir və Zəngilana qədər, Qubadlıya qədər və oradan da Laçına qədər davam edir".

## Bizimlə sevinən dostumuzdur

Dövlət başçımız cəbrayıllılarla görüşdə xatırlatdı ki, bizim qazandığımız tarixi uğurları həzm edə bilməyənlər anti-Azərbaycan təbliğatlardan əl çəkmir, bəzən gizli, bəzən açıq düşmənçilik edirlər. Bu Zəfəri bağışlaya bilmirlər. Sonra da deyirlər ki, gəlin, dostluğumuzu möhkəmləndirək: "Hansı dostluqdan söhbət gedə bilər? Bizim dostumuz odur ki, bu günə sevinir. Mən bunu bir neçə gün bundan əvvəl demişəm. Bu günə məyus olan və bu günü qəbul etməyən heç vaxt bizim dostumuz ola bilməz, bunu Azərbaycan xalqı bilməlidir".

Xalqa öz sözünü həmişə açıq deyən Prezident xatırlatdı ki, biz heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq: "Xüsusilə mən gənc nəsli nəzərdə tuturam. Çünki bu gün anti-Azərbaycan qüvvələrin əsas hədəfi gənc nəsillərin şüurudur. Ona təsir etməyə çalışırlar. Ona görə Azərbaycana qarşı olmazın yalanlarını uydururlar, tirajlayırlar, öz mətbuatlarında, öz dırnaqarası qeyri-hökumət təşkilatlarında... Yəni, gənc nəslin şüuruna təsir etsələr, demək olar ki, Azərbaycanın gələcəyinə təsir edəcəklər, heç vaxt gənclər unutmasınlar".

## ...Və sonda

Dövlət başçımızın son dörd ildə Füzulidə, Ağdamda, Şuşada, Xankəndidə, Xocalıda, Laçında, Kəlbəcərdə, Suqovuşanda və ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərimizin hamısındakı görüşləri, çıxışları müasir tariximizin unudulmaz və şərəfli səhifələrinə yazılır. İyirmi, otuz, əlli ildən sonra bu səhifələri vərəqləyənlər əmin olacaqlar ki, Azərbaycan dövlətinin XXI əsrin üçüncü onilliyində qazandığı uğurların dörd sütunu var idi: Prezidentin qətiyyəti, xalqın iradəsi, ordunun rəşadəti və gəncliyin qaynar nəfəsi.

Dörd sütun üzərində inşa edilən ən mühüm tikili isə evdir.

Əliağa Vahid demişkən:

"Uçmaz elə bir xanə ki, memarı gözəldir!"

***İttifaq MİRZƏBƏYLİ***

## Zəfər marafonunun 11–12-ci günləri

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

• Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib.

• Müdafiə Nazirliyi məlumat yayıb: Cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Ordusunun endirdiyi zərbələr nəticəsində düşmən xeyli itki verib. Ermənistan silahlı qüvvələrinin 10-dək tankı, 6 ədəd D-20 topu, həmçinin "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilib. Ermənistan ordusunun müdafiə xətlərində yerləşən bölmələrinin bir qrup əsgəri döyüş mövqelərini özbaşına tərk edib.

# Vətən müharibəsinin xronikası: 7 oktyabr



• Azərbaycan Prezidenti İlham Əliyev CNN-Türk televiziyasına və "Euronews" televiziyasına müsahibə verib.

Dövlətimizin başçısı CNN-Türk televiziyası əməkdaşının müharibənin son vəziyyəti ilə bağlı sualına cavabında deyib: – Hər şey plan üzrə gedir. Bu gün Azərbaycan Ordusu öz ərazi bütövlüyünü bərpa edir. Əməliyyat uğurla davam edir. Artıq bir şəhər və bir çox kəndlər işğaldan azad edilib. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Biz bunu dəfələrlə demişik: Qarabağ bizim tarixi, əzəli torpağımızdır! Təəssüf ki, uzun müddət ərzində aparılan müzakirələr bir nəticəyə gətirib çıxarmadı. Belə olan halda, əlbəttə ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü bərpa etməli idi və bunu edir.

Prezident İlham Əliyev əlavə edərək bildirib ki, erməni silahlı qüvvələri keçən ayın 27-də bizə qarşı yeni hücuma keçdilər və bir çox şəhərlərimiz, kəndlərimiz atəş altındadır. İndiyədək bizim mülki şəxslər arasında 30-a yaxın itkilərimiz, şəhidlərimiz var. Ermənistan silahlı qüvvələri şəhərlərimizi, kəndlərimizi atəşə tutur və minə yaxın ev ya dağıdılıb, ya da ki, böyük ziyan görüb. Lakin hər şey plan üzrə gedir və ümid edirəm ki, qarşıda duran vəzifələr icra olunacaqdır.

Dövlətimizin başçısı müsahibədə Ermənistan ordusunun acizliyi və işğalçı ölkənin hərbi-siyasi rəhbərlərinin cinayəti barədə də danışıb: "Mülki şəxslərə zorakılıq göstərmək, onlara qarşı atəş açmaq, ballistik raketlərlə mülki şəhərləri dağıtmaq müharibə cinayəti sayılır. Bu, onu göstərir ki, Ermənistan döyüş meydanında bizim qarşımızda dura bilmir. Döyüşü uduzur və bizi dayandırmaq, eyni zamanda, mülki əhaliyə qarşı maksimum dərəcədə cinayət törətmək üçün belə çirkin əməllərə əl atır. Gəncə, Mingəçevir döyüş bölgəsindən uzaqda yerləşən şəhərlərdir. Eyni zamanda, döyüş bölgəsinə yaxın olan şəhərlərimiz hər gün atəşə tutulur. Ən yaxın bölgə Tərtər bölgəsidir və Tərtər şəhərinə gündə mindən iki minə qədər mərmi düşür və bunun əsas məqsədi mülki şəxslərə qarşı törədilən zorakılıqdır. Bu, bir daha Ermənistanın faşist mahiyyətini göstərir".

Ali Baş Komandan İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində isə Ermənistanın çox acı məğlubiyyətlə üzləşməsinə, atəşkəs üçün yalvarışına baxmayaraq status-kvonu dəyişməz olaraq saxlamaq istədiyini bildirib: "Minsk qrupunun həmsədrləri – ABŞ, Rusiya və Fransa, onların prezidentləri dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Ermənistan buna məhəl qoymadı, indi isə Azərbaycan özü status–kvonu dəyişir və düşünürəm ki, bu, münaqişənin ən tez zamanda həlli istiqamətində mühüm addım olacaq".

• Müdafiə Nazirliyi Ermənistan ordusunun məhv edilmiş döyüş texnikasının siyahısını açıqlayıb. Bildirilib ki, sentyabrın 27-dən oktyabrın 7-dək düşmənin 250-dək tank və digər zirehli texnikası, 270-dək artilleriya, yaylım atəşli raket sistemləri və minaatanı, 60-dək hava hücumundan müdafiə vasitəsi, 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 8 silah-sursat anbarı, 150-dək avtomobil texnikası və bir ədəd "S-300" zenit-raket kompleksi məhv edilib.

• Müdafiə Nazirliyi Ermənistan hərbçilərinin döyüş meydanında qoyub qaçdıqları texnikanın, həmçinin düşmən ordusuna məxsus bir neçə döyüş texnikasının məhv edilməsinin videogörüntülərini paylaşıb.

• Oktyabrın 7-si saat 18:00-a olan məlumata görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində həlak olmuş mülki şəxslərin sayı 30-a, xəsarət alanların sayı isə 143-ə çatıb, 427 evə və 66 mülki obyektə ciddi ziyan dəyib.

• Baş Prokurorluq Ermənistanın qadağan olunan bombadan istifadə edərək Bakı–Tbilisi–Ceyhan boru kəmərini hədəfə alması ilə bağlı məlumat yayıb.

Təcavüzkar Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən "Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyasının və Konvensiyaya olunmuş əlavə Protokolların tələblərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

## Vətən müharibəsinin xronikası: 8 oktyabr

• Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb: Ermənistan silahlı qüvvələrinin hərbi hissəsinin qərargahına, infrastrukturuna və silah-sursat anbarlarına bölmələrimiz artilleriya zərbələri endirib. Yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikasından ibarət hərbi kolonu dəqiq artilleriya atəşi ilə sıradan çıxarılıb. Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan ordusuna məxsus 10-dək tank, 6 ədəd "D-20" top, 1 ədəd "Akasiya" özüyeriyən





artilleriya qurğusu, 30-dək avtomobil texnikası və düşmənin xeyli sayda canlı qüvvəsi məhv edilib.

• Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində Ermənistan ordusu hərbçilərinin döyüş meydanında qoyub qaçdıqları zirehli texnikaların, düşməndən əldə olunan hərbi qənimətlərin videogörüntülərini paylaşıb.

• "Azərkosmos" ASC işğaldan azad olunmuş Cəbrayıl şəhərinin "Azersky" peykindən əldə edilmiş təsvirini yayıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində 8 oktyabr saat 13:00-a olan məlumata görə, həlak olmuş mülki şəxslərin sayı 31-ə, xəsarət alanların sayı isə 154-ə çatıb, 928 ev, 133 mülki obyekt və 45 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluğun məlumatında bildirilib.

**XQ**

# Təzminat: cinayətə görə cəza, yoxsa tarixi ədalətin bərpası?

(əvvəli 1-ci səhifədə)

## Təzminatlar tarixi XX əsrə qədər

Təzminat bir konsepsiya olaraq çox qədim köklərə malikdir. Reparasiya (latınca reparatio - bərpa) sözündən dilimizə çevrilmiş təzminat müharibə nəticəsində dəymiş itkilərin kompensasiyasıdır və təcavüzkar dövlət onu qalib ölkənin xeyrinə ödəyir. Erkən tarixi dövrlərdə təzminatlar işğalçılıq müharibələrindən sonra ödənilirdi. Məsələn, Qədim Misir və Romada fəth edilmiş ölkələrdən qaliblərə xərac ödəmələri tələb olunurdu ki, buna da çox vaxt qızıl, sərvətlər və qullar daxil idi. Bu təzminat formalarından məğlub olanları cəzalandırmaq və onların üzərində nəzarəti saxlamaq vasitəsi kimi istifadə olunurdu.

1918-ci ildə Birinci Dünya müharibəsi başa çatdıqdan sonra təzminat beynəlxalq siyasətin əsas mövzusuna çevrildi. 1919-cu ildə Versal müqaviləsinə əsasən Almaniya Antanta blokuna daxil olan ölkələrə (Fransa, Böyük Britaniya və başqaları) dəymiş ziyana görə külli miqdarda təzminat ödəməli idi. Təzminatlara maliyyə ödənişləri, eləcə də sənaye və kənd təsərrüfatı məhsullarının tədarükü daxil idi. İlkin olaraq 132 milyard qızıl markası olaraq təyin edilmiş təzminat məbləği Almaniya üçün son dərəcə ağır oldu. Nəticədə Almaniyanın üzərinə qoyulmuş bu yük 1930-cu illərdə ölkədə iqtisadi qeyri-sabitliyin və faşizmin yüksəlişinin səbəblərindən birinə çevrildi.

Ancaq Almaniyanın təzminat ödəməsini asanlaşdırmaq üçün 1924-cü ildə Daues Planı, 1929-cu ildə isə Yunq Planı hazırlandı. Buna baxmayaraq, dünya iqtisadiyyatı tarixində Böyük depressiya kimi tanınan 1930-cu illərin qlobal iqtisadi böhranı nəhayət, Almaniyanın öz öhdəliklərini yerinə yetirməsini qeyri-mümkün etdi və 1932-ci ildə təzminatın ödənilməsi dayandırıldı.

## İkinci Dünya müharibəsindən sonra təzminatlar

Birinci Dünya müharibəsindən fərqli olaraq daha böyük dağıntılara və insan itkisinə səbəb olan İkinci Dünya müharibəsindən sonra da təzminatlar münaqişədən sonrakı nizamlanmanın bir hissəsi oldu. Təzminatların tarixinin öyrənilməsi baxımından bu dövr daha maraqlıdır.

Almaniyanın təzminatları ödəməsi ilə bağlı danışıqlar 1945-ci ildə Yalta və Potsdam konfranslarında qərara alınıb. Versal müqaviləsindən fərqli olaraq, 1945-ci ildə təzminatlara yanaşma daha balanslı idi və bu təzminatların hesablanmasında qlobal iqtisadiyyatın bərpası zərurəti ciddi nəzərə alınmışdı. Potsdam konfransında Almaniyanın təzminatları əsasən sənaye avadanlığı və xammal şəklində ödəməsinə qərara verilmişdi. Qərarların qəbul edilməsində qalib dövlətlərin - SSRİ, Böyük Britaniya və ABŞ-ın liderləri – İosif Stalin, Uinston Çörçill və Franklin Ruzvelt (Yaltada) və Harri Trumen (Potsdamda) iştirak edirdilər.

1945-ci il fevralın 4-11-də keçirilən Yalta konfransında Sovet İttifaqı təzminatların ümumi həcminin 20 milyard ABŞ dolları məbləğində müəyyən etmək təklifi ilə çıxış etdi və bunun da 50 faizi SSRİ-nin xeyrinə ödənilməli idi. Lakin tərəflər bunu dəstəkləmədilər. Təzminatların toplanması planını hazırlamaq üçün xüsusi müttəfiq komissiyanın yaradılması qərara alındı.

Birinci Dünya müharibəsindən sonra müəyyən olunan təzminatların yalnız nağd pul şəkilində ödənilməsi qərarından fərqli olaraq, 1945-ci il 17 iyuldan avqustun 2-nə qədər Potsdamda keçirilən konfransın sənədlərində təzminatlar əsasən maddi formada (zavodlar, maşınlar, avadanlıqlar, inventarlar, habelə Almaniyanın xaricdəki investisiyaları) ifadə edilməli idi. Lakin qalib ölkələrin öz işğal zonalarından çıxara biləcəkləri alman əmlakının ümumi miqdarı dəqiqləşdirilmədi. Sonradan göstərilirdi ki, SSRİ ABŞ, Böyük Britaniya və Fransanın işğal etdiyi zonalardan sökülən texnikanın da əlavə olaraq təxminən 25 faizini alacaq. Polşanın təzminat tələblərini isə SSRİ öz payından təmin etməli idi. Ümumilikdə Polşanın 15 faiz alacağı planlaşdırılırdı. Anti-hitler koalisiyasının qalan üzvləri isə Qərbin işğal zonalarından təzminat paylarını almalı idilər.

1945-ci ilin noyabr-dekabr aylarında Parisdə keçirilən konfransda ABŞ, Böyük Britaniya və Fransa tərəfindən işğal olunmuş zonalardan təzminatların tədarük rejiminə dair razılaşmalar əldə edildi və bu, 14 yanvar 1946-cı il tarixli müqavilədə təsbit edildi. Onun iştirakçıları 19 ölkə, o cümlədən Böyük Britaniya, ABŞ, Fransa, həmçinin Albaniya, Yunanıstan, Çexoslovakiya və Yuqoslaviya idi. Paris Müqaviləsi ayrı-ayrı dövlətlər üçün təzminatların faizini müəyyən etdi və təzminatların uçotu və bölüşdürülməsinə cavabdeh olan Müttəfiqlərarası Təzminatlar Agentliyinin (baş ofisi Brüsseldə olan IARA) yaradılmasını nəzərdə tuturdu.

Lakin İkinci Dünya müharibəsindən sonra beynəlxalq səviyyədə Almaniyaya tətbiq edilən təzminatların konkret ümumi məbləği müəyyən edilməmişdir. 2000-ci ildə Almaniya Maliyyə Nazirliyi "qalib ölkələrin təzminat ödənişlərini birtərəfli qaydada qəbul etdiyini və bununla bağlı heç bir tənzimləyici qeydin olmadığını" vurğulayan bir hesabat hazırladı.

## SSRİ-yə təzminat necə ödənilirdi?

Hesabatlara görə, SSRİ özünün işğal zonasından və daha sonra ADR olan alman dövlətindən 66 milyard ADR markasından (15,8 milyard dollar) artıq əmlak müsadirə etmişdir. 1990-cı illərdə Rusiya tədqiqatçıları tərəfindən Qənimətlər Baş İdarəsindən aldıqları məlumatları nəşr etdilər və bu məlumatlara görə, Almaniyadan SSRİ-yə 72 min vaqon tikinti materialı, 3 minə yaxın zavod, 96 elektrik stansiyası, 340 min dəzgah, 200 min elektrik mühərriki, 1 milyon 335 min baş mal-qara, 2,3 milyon ton taxıl aparılmışdır. Bəzi mənbələrdə qeyd edilir ki, hətta Berlindəki zooparkdan heyvanlar da daxil olmaqla hər şeyi çıxarıb aparıblar. Aparılan heyvanlar arasında Hitlerin sevimli timsahı Saturn da var idi və o, 2020-ci ildə Moskvada ölüb.

1949-cu ildə Almaniya Federativ Respublikasının yaradılmasından sonra SSRİ-yə təzminat kimi Qərb işğal zonalarından tədarük dayandırıldı. Polşa Beynəlxalq Münasibətlər İnstitutunun 2005-ci il məlumatına görə, SSRİ 1938-ci ilin məzənnəsi ilə 3,081 milyard dollar məbləğində təzminat alıb ki, bunun da 228 milyon dolları – təxminən 7,5 faizi Polşaya çatıb.

1953-cü ildə Polşa rəhbərliyi ilə razılaşdırılmaqla SSRİ ilə ADR arasında müqavilə imzalandı və bu müqaviləyə əsasən 1954-cü il yanvarın 1-dən ADR-dən alınan bütün təzminatlar dayandırıldı.

İşğal olunmuş Almaniyanın qərb sektorlarından təzminatı faktiki olaraq 1950-ci ildə başa çatdı. IARA 1959-cu ildə fəaliyyətini dayandırdı və ölkədən çıxarılan əmlakın dəyərini 1938-ci ilin məzənnəsi ilə 530 milyon dollar müəyyən etdi. Sovet






mətbuatının hesablamalarına görə, ABŞ, Böyük Britaniya və Fransa işğal zonalarından təxminən 1,2 milyard dollar dəyərində avadanlıq, 277 ton (təxminən 300 milyon dollar ekvivalenti) qızıl, 200 milyon dollar dəyərində dəniz və çay gəmilərini söküb aparmışdılar. Almaniyanın təxminən 4 milyard dollarlıq xarici aktivləri bu ölkələrin nəzarətinə keçib. ABŞ və Böyük Britaniya tərəfindən ələ keçirilən alman patentləri və texniki sənədləri təxminən 5 milyard dollar dəyərində qiymətləndirilir. Amma bu, hələ Almaniyanın müharibəyə görə ödədiyi təzminatın sonu olmadı.

1952-ci ilin sentyabrında Almaniya ilə İsrail arasında Lüksemburq müqaviləsi imzalandı və 1953-cü ilin martında qüvvəyə minən bu sənədə uyğun olaraq, Almaniya hökuməti 14 il ərzində İsrail hökumətinə 1933-1945-ci illəri əhatə edən Holokost zamanı zərər çəkmiş yəhudilərə təzminat kimi 3 milyard marka, bugünkü məzənnə ilə təxminən 7 milyard avro məbləğində təzminat ödədi. Bir çox tarixçilər qeyd edirlər ki, bu, müharibə zamanı mövcud olmayan bir dövlət tərəfindən təzminatların alındığı və ödənildiyi yeganə haldır.

1960-cı ildə isə Almaniya və Yunanıstan arasında imzalanan müqaviləyə əsasən nasist işğalı illərində dəymiş ziyana görə Yunanıstan 115 milyon marka – 59 milyon avro təzminat aldı. Buna baxmayaraq, hətta son illərdə belə Yunanıstan dəfələrlə İkinci Dünya müharibəsi zamanı törədilmiş hərbi cinayətlərə görə Almaniyanın yeni təzminatlar ödəməsi məsələsini gündəmə gətirib. Yunan tərəfinin fikrincə, Almaniya 1938-ci ildə Yunanıstandan aldığı 3,5 milyard dollar (indiki məzənnə ilə təxminən 54 milyard avro) məbləğində məcburi işğal kreditin təzminatını da ödəməlidir. Lakin Almaniyanın bu məsələ ilə bağlı rəsmi mövqeyi sonuncu dəfə 2015-ci ilin martında kansler Angela Merkel tərəfindən kəskin səsləndirildi: "Təzminat məsələsi hüquqi baxımdan bağlanıb".

1961-ci ildə faşizmin italyan qurbanlarına təzminat ödənilməsi haqqında Almaniya-İtaliya müqaviləsi bağlandı və bu müqaviləyə əsasən İtaliya hökumətinə 40 milyon marka (təxminən 20 milyon avro) ödənildi. Buna baxmayaraq, 2008-ci ildə İtaliyanın Kassasiya Məhkəməsi nasist cinayətlərinin qurbanlarının İtaliya məhkəmələrində Almaniyaya qarşı iddia qaldıra biləcəkləri ilə bağlı qərar çıxardı. Buna cavab olaraq Almaniya Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edərək, İtaliya məhkəmə sistemini "Almaniyanın suveren dövlət kimi yurisdiksiya toxunulmazlığına məhəl qoymamaqda" ittiham etdi. 2012-ci ilin fevralında məhkəmə Almaniyanın nasist vəhşiliklərinə görə milli məhkəmələrdə təqib olunmaqdan qanuni immunitetə malik olduğunu, hökmün qəti olduğunu və başqa orqana şikayətin mümkün olmadığını bəyan etdi.

## Nasizm qurbanlarına təzminat

Almaniya işğala məruz qalan dövlətlərə təzminatlarla yanaşı, nasizm qurbanlarının müxtəlif kateqoriyalarına da təzminat ödəyir.

2000-2007-ci illərdə Almaniyada "Yaddaş, Məsuliyyət və Gələcək" Fondu fəaliyyət göstərib və bu fonddan İkinci Dünya müharibəsi zamanı Almaniyaya deportasiya edilmiş keçmiş məcburi işçilərə kompensasiyalar verilib. Ümumilikdə fond 5,2 milyard avro vəsaitə malik idi və bu vəsaitlər Almaniya hökuməti və alman müəssisələri tərəfindən köçürülmüşdü. Fondun fəaliyyəti müddətində ümumilikdə Rusiya, Polşa, Çexiya və digər ölkələrdə yaşayan 1,66 milyon insan 4,4 milyard avro məbləğində kompensasiya alıb. Ən böyük məbləği isə Almaniyaya qarşı Yəhudilərin Maddi İddiaları Konfransı adlı təşkilatı alıb – 1,149 milyard avro.

Almaniya Lüksemburq sazişi üzrə ödənişlərə əlavə olaraq, dəfələrlə Holokost zamanı müxtəlif kateqoriyadan olan qurbanlara birdəfəlik ödənişlər etmək qərarlar qəbul edib. 2011-ci ilin dekabrında Almaniya Holokost qurbanlarından 16 min nəfərə əlavə pensiya ödəməyə razılıq verib. 2012-ci ilin noyabrında keçmiş SSRİ ölkələrində yaşayan və Holokostdan sağ çıxan 80 min insana kompensasiya ödənilməsi proqramı başlayıb. Ödənişlərin ümumi məbləği təxminən 245 milyon avro təşkil edib. 2013-cü ilin mayında Qüdsdə Almaniyaya qarşı yəhudilərin maddi iddialarının təmin edilməsinə dair konfransda Almaniya 2014-2017-ci illərdə Holokost qurbanlarına dəstək verən müxtəlif qurumlara 772 milyon avro köçürməyi öhdəsinə götürmüşdü. Pulun üçdəbiri İsraildə yaşayan 56 min nəfərin sosial xidmətlərinə xərclənmişdir.

Dünyada təzminat problemləri Almaniya ilə başlamadığı kimi onunla da bitmir. Belə ki, Körfəz müharibəsi (1990-1991) başa çatdıqda, BMT Təhlükəsizlik Şurası İraqın təcavüzündən əziyyət çəkən Küveyt hökumətinə, korporasiyalarına və fərdi şəxslərə İraqdan təzminat ödənilməsinə qərar verdi. Bu qərara görə, İraqa ümumilikdə 352 milyard dollardan çox təzminat iddiası təqdim edilsə də, BMT-nin xüsusi orqanı cəmi 52,4 milyard dollar məbləğində ödənişi təsdiqlədi. Ancaq İraq hərbi işğala görə Küveytə təzminat ödəməyi 2021-ci ilə qədər başa çatdırdı. İki ölkə arasındakı razılaşmalara görə, İraq hər il neft və qaz ixracından əldə etdiyi mənfəətin 5% faizini BMT-nin xüsusi fonduna köçürür, oradan da vəsait Küveytə gedirdi.

Təzminatlarla bağlı daha bir məhkəmə qərarı Haaqada qəbul edilib. Uqanda təbii ehtiyatlarla zəngin İturi əyalətindəki münaqişələrdə roluna görə Konqo Demokratik Respublikasına 325 milyon dollar təzminat ödəməyə məcbur edilib. Zərər 1998-2002-ci illərdə baş vermiş İkinci Konqo müharibəsi zamanı vurulmuşdu. Konqo 11 milyard dollar təzminat tələb etsə də, məhkəmə 325 milyon dollar müəyyənləşdirdi.

Təzminat problemləri bu günümüzdə belə, beynəlxalq ictimaiyyətin ciddi müzakirə mövzusu olaraq qalır.

## XXI əsrdə təzminatlar

XXI əsrdə təzminatlar tarixi ədalət, müstəmləkəçilik və köləliyin vurduğu zərərin ödənilməsi kontekstində yeni məna kəsb etməyə başladı. Bəzi təşəbbüslər və müzakirələrə diqqət çəkmək, Ermənistana təzminat iddialarının Azərbaycanın haqqı olduğunun təsdiqi baxımından daha çox diqqət çəkir:

**Müstəmləkəçilik və köləliyə görə təzminat**



– Son onilliklərdə bir çox ölkələr və ictimai təşkilatlar qulların nəsillərinə və müstəmləkə istismarı qurbanlarına kompensasiyaların ödənilməsi imkanlarını müzakirə etməyə başlayıblar. Məsələn, ABŞ-da afro-amerikalılara əsrlər boyu əsarət və sistemli təzyiqlər üçün təzminatların verilməsi fəal müzakirə olunur. Kaliforniya kimi ştatlar qulların nəsillərinə təzminat ödəmək imkanlarını öyrənmək üçün komissiyalar yaradıblar.

– Karib İcmasına (CARICOM) daxil olan Karib hövzəsi ölkələri keçmiş müstəmləkəçi dövlətlərdən, əsasən İngiltərə, Fransa və Hollandiya kimi dövlətlərdən köləlik və müstəmləkəçiliyin vurduğu ziyana görə təzminat tələb etmişlər. Hətta 2013-cü ildə CARICOM təzminat işlərini əlaqələndirmək üçün komissiya yaradıb.

- 2021-ci ildə Almaniya XX əsrin əvvəllərində Namibiyanın müstəmləkəsi olduğu vaxtlarda bu ölkədə baş vermiş Herero və Nama tayfalarının soyqırımına görə məsuliyyətini rəsmən etiraf etdi. Bu səbəbdən də AFR Namibiyadakı inkişaf layihələri üçün 1 milyard avrodan çox təzminat ödəyəcəyini vəd etdi. Bu, keçmiş müstəmləkəçi dövlətin soyqırımını tanıdığı və təzminat ödəməyə razı olduğu ilk presedentlərdən biri idi.

– Kanada və Avstraliya da yerli xalqlara assimilyasiya və torpaqların itirilməsi prosesində dəymiş ziyana görə təzminat ödəməkdə davam edir. Kanadada hökumət həm də bir əsrdən çox mövcud olmuş Hindistan yaşayış internatlarında zərər çəkmiş qurbanlara kompensasiya ödəyib.

## Çağırışlar və tənqidlər

Təzminat ideyası nə qədər ədalətli görünsə də, onun həyata keçirilməsi bir çox problemlərlə üzləşir. Əsas çətinliklər təzminatın miqyasının müəyyən edilməsi, məsuliyyətin müəyyən edilməsi və vəsaitin tapılması ilə bağlıdır. Hətta Azərbaycanın işğalçı Ermənistana təzminat iddiası haqqına gəldikdə, bunun daha ciddi problemlərlə üzləşəcəyi istisna deyil. Əlbəttə, ikinci yazımızda biz bilavasitə bu məsələyə daha geniş spektrdən yanaşıb, həmin məqamları göstərəcəyik.

Bəzi tənqidçilər indiki nəsillərin əcdadlarının cinayətlərinə görə məsuliyyət daşımamalı olduğunu iddia edir. Lakin təzminatların tərəfdarları tarixi ədalətin və keçmiş səhvlərin etirafının vacibliyini vurğulayırlar.

Təzminatın dəqiq kimə ödənilməli olduğu və zərərin məbləğinin necə hesablanması məsələsi də vacibdir. Təzminatlar təkcə maddi ziyanı kompensasiya etməməli, həm də zərər çəkmiş qrupların sosial və iqtisadi vəziyyətini yaxşılaşdırmalıdır.

Təzminatlar keçmişdə vurulan zərəri etiraf edən və səhvləri düzəltməyə çalışan tarixi ədalətin bərqərar olmasıdır. Təzminatların tarixi göstərir ki, dünya ictimaiyyəti qurbanların əzablarını ədalətli şəkildə kompensasiya etməyə çalışıb və çalışır. İyirmi birinci əsrdə təzminat mövzusu xüsusilə müstəmləkəçilik, köləlik və yerli xalqların hüquqları kontekstində aktual olaraq qalır. Bu proqramların həyata keçirilməsi ilə bağlı çətinliklərə baxmayaraq, onlar tarixi ədalətin bərpasında və daha ədalətli cəmiyyətin qurulmasında mühüm rol oynayırlar.

*Hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

# Fındıqçılıq önəmli valyuta mənbəyidir

## *Ölkəmiz bu məhsulun 4-cü iri ixracatçısıdır*

**Son illər ölkəmizin qeyri-neft sektorunun ixracında mühüm rol oynayan kənd təsərrüfatı dövlətin gücləndirilmiş dəstəyi və davamlı islahatların aparılması nəticəsində əhəmiyyətli dərəcədə inkişaf edib, bu sahə əldə olunan yüksək göstəricilərlə xüsusi diqqət çəkib. Məhsuldarlığı və istehsalı artıran “ağıllı” kənd təsərrüfatı prinsiplərinin tətbiqi aqrar iqtisadiyyata böyük töhfə verib. Bu, respublikada kənd təsərrüfatının ənənəvi və önəmli sahələrindən biri olan fındıqçılıqda da özünü qabarıq göstərib.**



Prezident İlham Əliyev çıxışlarının birində bu barədə danışarkən deyib: “Şimal-qərb zonasında ənənəvi kənd təsərrüfatı sahəsi olan fındıqçılığa xüsusi diqqət yetirilir. Bir neçə il bundan əvvəl mövcud bağların sahəsi 32 min hektar idi. Bir neçə il ərzində bu, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi nəticəsində 80 min hektara çatdırıldı”.

Dövlətimizin başçısı daha sonra bildirib ki, şimal-qərb bölgəsində yaşayan insanlar üçün əsas qazanc mənbəyi fındıqçılıqdır. Hazırda Azərbaycan dünyada fındıq ixrac edən ölkələr arasında ön sıralarda qərarlaşır. Fındıqçılıq çox gəlirli, perspektivli bir sahədir. Bizim iqlimimiz buna uyğundur. İsmayıllı rayonundan ta Balakənə qədər, eyni zamanda, cənub zonasında, həmçinin Xaçmazda, Qusarda fındıqçılığın çox böyük perspektivləri var. Statistik rəqəmlər də ölkəmizdə fındıqçılığın hər il artan dinamika ilə inkişaf etdiyini göstərir. Məsələn, 2021-ci ildə 49 min ton, 2022-ci ildə 51 min ton, 2023-cü ildə 75 min ton fındıq istehsal edilməsi qeyd olunan fikrin bariz ifadəsidir.

Yeri gəlmişkən, bu sektor artan əkin sahələri, əlverişli iqlim və dövlətin strateji təşəbbüslərinin sinerjisi nəticəsində qeyri–neft sektorunun ixracına mühüm töhfə verir. Həyata keçirilən kompleks tədbirlər hesabına ölkəmiz qlobal səviyyədə dünyanın ixrac liderləri arasında fındıqçılıqda mövqeyini getdikcə möhkəmləndirir. Beynəlxalq Ticarət Mərkəzinin 2023-cü il üzrə məlumatına görə, Azərbaycan qlobal meşə fındığı ixracatçıları siyahısında 4-cü yerdə qərarlaşıb.

Sıralamada isə ilk 3 pillədə Türkiyə (995,3 min ton – 53,8 faiz), Çili ( 232,6 min ton – 12,6 faiz) və İtaliya (185,8 min ton – 10 faiz) yer alıb. Beşliyi isə ABŞ (99,1 min ton – 5,4 faiz) tamamlayıb.

Ekspertlər bildirirlər ki, yüksək keyfiyyəti ilə yerli meşə fındığına beynəlxalq bazarlarda böyük tələbat formalaşıb. Hazırda əsasən Rusiya, Almaniya, İtaliya və İsveçrəyə satılan meşə fındığı 2023–2024-cü illərdə Ukrayna, Belçika, Estoniya və İsrail kimi ölkələrə də ixrac olunmağa başlayıb.

Azərbaycanda fındıq yığımının 99 faizi fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarının payına düşür. 2023–2024-cü illərin statistik göstəricilərinə görə, respublikada əsasən, 39 şirkət fındıq ixrac edir. Onlardan 34-nün illik ixracı 100 min dolları, 24-nün isə illik ixracı 1 milyon dolları üstələyir.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-avqust aylarında Azərbaycandan 59 milyon 275 min dollar dəyərində 9 min 672 ton meşə fındığı ixrac olunub. Qeyd edək ki, bu il xaricə satılan fındıq kəskin bahalaşıb. Belə ki, 1 kiloqram fındığın orta ixrac qiyməti 10,42 manata bərabər olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,95 manat (23 faiz) çoxdur.

Xatırladaq ki, ötən ilin eyni dövründə fındığın ixrac qiyməti 8,47 manat təşkil etmişdi. Bu il ümumi ixracının 0,33 faizi, qeyri-neft sektoru üzrə ixracın isə təxminən 2,72 faizi fındığın payına düşüb.

Azərbaycanda fındıqçılıq geniş əkin sahələri və yüksək məhsuldarlıqla xarakterizə olunur. Belə ki, 2023-cü ilin sonuna fındıq əkmələrinin sahəsi 81 min 801,5 hektar təşkil edib. Cəmi məhsul yığımı isə ötən il 4,6 faiz artaraq 75 min 409,3 tona çatıb. Ölkəmizin ən çox fındıq bağlarının yerləşdiyi Şəki–Zaqatala və Quba–Xaçmaz iqtisadi rayonlarında 2023-cü ildə fındıq yığımı müvafiq olaraq 56 min 580,1 ton və 13 min 714,6 ton təşkil edib.

Ölkə iqtisadiyyatında qeyri-neft sektorunun payının artırılması kimi strateji hədəfi olan İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) kənd təsərrüfatı məhsullarının, xüsusilə, fındığın ixracının genişləndirilməsində və coğrafiyasının şaxələndirilməsində mühüm rol oynayır. İxracın təşviqi mexanizmlərinin tətbiqi vasitəsilə qeyri–neft ixracının stimullaşdırılmasına töhfə verən AZPROMO-nun dəstəyi ilə fındıq ixrac edən 9 yerli şirkət 2023-cü ildə “Anuga 2023” və 6-cı Çin Beynəlxalq İdxal sərgilərində, 2024-cü ildə isə “Foodex Japan 2024”, “Prodexpo 2024” və “Russia Halal Expo 2024” kimi sərgilərdə, eləcə də Cənubi Koreya şirkətlərinin Azərbaycana təşkil olunmuş alıcı missiyasının görüşündə iştirak edib.

Qeyd edək ki, son bir ildə sahibkarlara qeyri–ənənəvi bazarlara çıxmağa kömək etmək məqsədilə logistika subsidiyalarının verilməsi diqqətdə saxlanılıb. Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2023-cü il sentyabrın 1-dən cari il mayın 31-dək boş olan meşə fondu torpaqlarında, dağlıq və dağətəyi ərazilərdə salınan intensiv fındıq bağlarının hər hektarına görə 5 min manat məbləğində əkin subsidiyası ödənilib. Xatırladaq ki, subsidiya 1 hektarda minimum 330 ədəd ting əkilən və damcı suvarma sistemi ilə təmin olunan intensiv meyvə bağlarına aid edilib.

Subsidiya veriləcək digər meyvə bağlarında isə 1 hektara əkilən tinglərin minimum sayının 90 ədəd olması müəyyənləşdirilib. Yeri gəlmişkən, Aqrar Subsidiya Şurasının qərarı fındıq üzrə əkin əmsalı Ağdam, Ağdaş, Ağstafa, Ağsu, Balakən, İsmayıllı, Zaqatala, Zəngilan, Xaçmaz, Xocavənd, Qax, Qəbələ, Quba, Qubadlı, Oğuz, Qusar, Qazax, Tərtər, Tovuz, Şabran, Şamaxı, Şəki, Şəmkir və Yardımlı rayonlarına şamil olunub.

Bununla yanaşı, son illər Azərbaycanda kənd təsərrüfatında sığorta mexanizminin tətbiqi də fermerləri fındıq yetişdirməyə həvəsləndirir. Artıq təsərrüfat sahibi əmindir ki, baş verə biləcək hər hansı təbii fəlakət səbəbindən dəymiş ziyanın qarşılanmasında Aqrar Sığorta Fondu onun yanındadır. Məlum olduğu kimi, fındıq sahələrinin sığortalanması zamanı bitkinin məhsuldarlığı, qiyməti, yerləşdiyi ərazi və seçilən sığorta zərfi nəzərə alınır.

Onu da qeyd edək ki, qaydalara əsasən, hesablama aparılması üçün fındığın 1 hektar sahəsi üçün məhsuldarlıq və məhsulun qiymət normaları müəyyənləşdirilir. Daha doğrusu, sığorta fındığın bir hektarı üçün məhsuldarlıq normasına uyğun olaraq ödənilir. Bu da məhsulun bir sentneri üçün, təqribən, 350-550 manat təşkil edir.

# “Araz Vadisi İqtisadi Zonası”nda 3 yeni müəssisə yaradılır

**İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, dövlətimizin başçısı İlham Əliyevin oktyabrın 3-də Cəbrayıl rayonunda yerləşən sənaye parkında təməlini qoyduğu 3 müəssisə gələn il istifadəyə veriləcək.**



Bildirilib ki, həmin sənaye müəssisələrində dezinfeksiyaedici, ağardıcı, maye yuyucu və tamet daşları istehsal ediləcək. Həmçinin burada mebel klasterinin formalaşdırılması həyata keçiriləcək. Bu layihələrin gerçəkləşdirilməsi üçün 60 milyon manatdan çox sərmayə yatırılacaq, ümumilikdə, birinci mərhələdə 950 nəfərdən artıq adam daimi işlə təmin olunacaq.

Xatırladaq ki, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Park logistika imkanları baxımından əlverişli ərazidə yerləşir.

Müəssisə dövlət başçısının 4 oktyabr 2021-ci il tarixli fərmanı ilə yaradılıb. İndiyədək görülən işlərə 20 milyon manatdan çox investisiya yatırılan, 40-dan çox daimi iş yeri yaradılan sənaye parkında 13 sahibkarlıq subyektinə rezidentlik, 1 sahibkarlıq subyektinə isə qeyri-rezidentlik statusu verilib.

Agentlik rəsmisi bildirib ki, təməli qoyulan müəssisələrin 2025-ci ildə fəaliyyə başlaması planlaşdırılır. Həmin zavodlarda istehsal edilən məhsulların ilkin mərhələdə daxili bazarın tələbatının ödənilməsinə yönəldilməsi, növbəti mərhələdə isə xarici bazarlara çıxarılması nəzərdə tutulur.

Hazırda sənaye parkında qeydiyyatdan keçən rezidentlərin çoxu layihələndirmə, tikinti-quraşdırma işləri aparır. Sənaye parkında sement istehsalı, o cümlədən minatəmizləmə avadanlıqlarının istehsalı müəssisələrinin inşası sürətlə davam etdirilir. Bu müəssisələrin də növbəti illərdə fəaliyyətə başlanması planlaşdırılır.

Hazırda park ərazisində 1 müəssisə –“Avtolizinq Azərbaycan” fəaliyyətdədir. Burada kənd təsərrüfatı texnikalarına, yük maşınlarına servis xidməti göstərilir.

# Daha az plastik, daha çox təmiz dünya

**2022–2023-cü illərdə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti (ASCO) 289 ton polimer əsaslı, 56 ton isə plastik əsaslı tullantı toplayıb. Bunu ASCO-nun İdarə Heyətinin sədri Rauf Vəliyev Bakıda keçirilən “Daha az plastik, daha çox həyat: təmiz dəniz üçün birlikdə!” devizi ilə “ArtPlast” layihəsinin təqdimatı zamanı deyib.**

Tullantıların təkrar emal üçün sertifikatı olan təşkilatlara verildiyini bildirən R. Vəliyev ASCO fəaliyyətini hökumətin ekologiya ilə bağlı siyasətinə uyğun olaraq həyata keçirməyə çalışdığını, 2050-ci ildə sıfır emissiyaya çatmağı qarşıya məqsəd qoyulduğunu vurğulayıb: “Təbii ki, bunun üçün yeni texnoloji xidmətlərin tətbiqi və ciddi maliyyə tələb olunur. Ancaq bütün bunların öhdəsindən gələcəyimizə əminik və bunun üçün əzmlə çalışacağıq”.

ASCO

# Bu il İtaliya ölkəmizdən 9,6 milyard kubmetr qaz alacaq



***Energetika naziri Pərviz Şahbazov Braziliyaya səfəri çərçivəsində İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratini və Hidrogen Şurasının baş icraçı direktoru İvana Jemelkova ilə də görüşüb.***

Energetika Nazirliyindən aldığımız məlumata görə, italiyalı nazirlə görüşdə Dövlət Neft və “Eni S.P.A” şirkətləri əməkdaşlığının genişləndirilməsi, TAP layihəsinin ötürücülük gücünün artırılması, “Xəzər–Qara dəniz–Avropa” dəhlizinin texniki–iqtisadi əsaslandırılması və bərpaolunan enerjinin ixrac imkanları kimi məsələlər müzakirə edilib.

Görüşdə, eyni zamanda, bu il İtaliyaya 9,6 milyard kubmetr qaz ixracının gözlənildiyi bildirilib. “Yaşıl” enerji dəhlizi” layihəsi üzrə proseslərin cari vəziyyətindən, layihənin texniki-iqtisadi əsaslandırmasına Bolqarıstanın da daxil edilməsindən bəhs edilib. Serbiya və İtaliyanın da bu layihəyə qoşulma perspektivləri dəyərləndirilib. Söhbət zamanı COP29 çərçivəsində əməkdaşlığa da toxunulub.

Hidrogen Şurasının baş icraçı direktoru İvana Jemelkova ilə görüşdə isə “Hidrogen Bəyannaməsi”nin COP29 Sədrliyinin enerji təşəbbüslərindən biri olduğu, ölkəmizdə hazırda hidrogen strategiyasının hazırlandığı və dənizdə külək enerjisi əsasında hidrogen istehsalı və ixracını nəzərdə tutan layihələr barədə məlumatlar verilib. COP29-da hidrogen mövzusunda tədbirlərdə iştirak və əməkdaşlıq imkanları müzakirə edilib, iqlim konfransının uğurlu nəticə əldə etmək üçün Hidrogen Şurasının maraqlı dairələrin cəlbi istiqamətində dəstəyi təklif olunub.

# Balaxanı Sənaye Parkı istehsalı genişləndirir




**“Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin Balaxanı Sənaye Parkında daha iki sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Bununla da, sənaye parkında qeydiyyatdan keçən rezidentlərin sayı 27-yə çatıb.**

Parkın yeni rezidenti olan “Aral Pack” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən burada alüminium folqa qapaqları istehsal olunacaq. Digər sahibkarlıq subyekti “Baku Klişecilik və qrafik LTD ŞTİ” MMC isə parkın ərazisində müasir qrafik dizayn əsaslı çap qəliblərin istehsalı ilə məşğul olacaq. İstehsal müəssisələrinin fəaliyyətə başlaması ilə parkın ərazisində yeni iş yerləri yaradılacaq.

Yeri gəlmişkən, hər iki müəssisədə istehsal prosesi zamanı ətraf mühitin mühafizəsinə və tullantıların azaldılmasına xüsusi diqqət yetiriləcək. Eyni zamanda, yeni rezidentlər Balaxanı Sənaye Parkının ərazisində təkrar emal fəaliyyətləri ilə məşğul olmaqla “yaşıl” iqtisadiyyata mühüm töhfə verəcəklər.

# Soltanlı fabriki quşçuluğun baza müəssisəsi olacaq

**Prezident İlham Əliyev Cəbrayıla səfəri çərçivəsində rayonun Soltanlı kəndində “Hicaz quşçuluq” damazlıq yumurta istehsalı fabrikinin təməlini qoyub.**




Müəssisənin təsisçisi Səfər Sadıqov dövlət başçısına fabrikin damazlıq yumurta, inkubator və yem sahələrini əhatə edəcəyini, birinci mərhələdə 30 hektar ərazidə hər biri 1600 kvadratmetr olmaqla 24 obyektin istifadəyə veriləcəyini, burada illik 24 milyon ədəd damazlıq yumurta istehsal olunacağını bildirib.

S.Sadıqovun sözlərinə görə, bütün bunlarla yanaşı, 2 hektar ərazidə saatda 40 ton istehsal gücünə malik yem fabriki və inzibati bina inşa olunacaq. Həmçinin daha 2 hektar ərazidə isə soyuducu anbar və inkubasiya fabriki tikiləcək.

İstehsal prosesində müasir avadanlıqlardan istifadə ediləcək. Müəssisədə istehsal olunan məhsulun keyfiyyətinin daim nəzarətdə saxlanılması məqsədilə ən müasir avadanlıqlarla təchiz edilən laboratoriya da fəaliyyət göstərəcək. Layihə üzrə 150 daimi iş yeri yaradılacaq.

# Karbamid Zavodu karbonu azaldır

**Azərbaycan Dövlət Neft Şirkətinin Karbamid Zavodunda istixana qazlarının emissiyasının azaldılması təmin olunub. Bu barədə şirkətin törəmə müəssisəsi olan “Caspian Innovation Center”in baş məlumat mütəxəssisi Azad Hüseynov “Bakı İqlim Fəaliyyəti Həftəsi”nin 5-ci günündə keçirilən panel sessiyada məlumat verib.**

Hazırda SOCAR-da ENOM (Energy Network Optimizing Model) sistemindən istifadə edildiyini bildirən mütəxəssisin sözlərinə görə, süni intellekt əsaslı bu sistem Karbamid Zavodunda tətbiq olunur. “Səmərəlilik baxımından biz bunun çoxsaylı müsbət nəticələrini görürük. Bunlardan ən vacibi odur ki, biz emisiyaları azaltmağa nail olduq. Daha dəqiq desək, hər il 2 min avtomobilin yaratdığı tullantı səviyyəsində azalma təmin olunub”, – deyə o qeyd edib.



*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***




*Bəşəriyyətin narahat gündəmi*

# Ekoloji fəlakətdən “yaşıl” transformasiyaya körpü

## *COP29-a yol haradan başlayır?*

**(əvvəli qəzetin ötən saylarında)**

**İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı qırılma xətti də müasir iqlim gündəmində ən kəskin ziddiyyətlərdən birinə çevrilib. Bu xətt daxilində hər birinin özünəməxsusluğu olan bir neçə istiqaməti ayrı-ayrı vurğulamaq lazım gəlir.**

**Birincisi,** inkişaf etməkdə olan ölkələr və onların vətəndaşları əksər hallarda inkişaf etmiş ölkələrlə müqayisədə iqlim dəyişikliyinin nəticələrindən daha çox əziyyət çəkirlər. Bu, qismən onların coğrafi yerləşməsi ilə, əsasən, aşağı enliklərdə məskunlaşmaları ilə əlaqədardır. Burada bəzi yerlərdə orta temperaturun yüksəlməsi həyat şəraitini yararsız edir və kritik resurslar (suya çıxış, əkin sahələri və s.) uğrunda mübarizəni gücləndirir. Məhz bu səbəbdən iqlim dəyişikliyi ənənəvi olaraq silahlı münaqişə riskini artıran amil hesab edilir.

Anomal təbii hadisələrin və fəlakətlərin tezliyi və miqyasının artması ilə aşağı gəlirli ölkələr onların nəticələrinin aradan qaldırılmasının öhdəsindən daha çətin gəlir və vətəndaşlarının gündəlik həyatı Şimal ölkələrinə nisbətən daha çox təsirə məruz qalır: qasırğa bütöv bir qəsəbənin taxta evlərini və məhsulunu məhv edir, lakin böyük bir şəhərdə çoxmənzilli beton binaya və internetə daha az ziyan vurur. Əgər fəlakət baş verərsə, o zaman inkişaf etmiş bir dövlətin hakimiyyət orqanları zərəri minimuma endirmək üçün lazımi vəsaiti yönəldə biləcəklər, lakin iqtisadi cəhətdən zəif dövlətlər çox vaxt belə imkanlara malik deyillər və bu səbəbdən əhalinin yoxsul təbəqələri daha da kasıblaşa bilər.

**İkincisi,** iqlim dəyişikliyinə görə, tarixi məsuliyyət baxımından inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr əsaslı şəkildə fərqlənirlər. Hesablamalara görə, tarix boyu toplanmış CO2 emissiyalarının 25 faizinə ABŞ, 22 faizinə Avropa İttifaqı (Böyük Britaniya ilə), 12,7 faizinə (son 30 ildə emissiyaların sürətli artımı səbəbindən) Çin məsuliyyət daşıyırlar. Ancaq havaya böyük emissiya buraxan bir çox müasir ölkələr, məsələn, Rusiya, Hindistan və Braziliya atmosferdə CO2 emissiyalarının toplanması üçün əhəmiyyətli dərəcədə daha az tarixi məsuliyyət daşıyırlar. Çünki onların havaya CO2 tullantıları müvafiq olaraq 6 faiz, 3 faiz və 0,9 faiz təşkil edir. Eyni zamanda, 2000–2019-cu illərdə ABŞ-də istixana qazı emissiyaları 11,5 faiz, Avropa İttifaqında 18,5 faiz azaldığı halda, Çində 178 faiz, Hindistanda 100 faiz, Vyetnamda 234 faiz, Cənubi Afrikada 48,5 faiz, İndoneziyada 50 faiz artıb. Ümumilikdə, aşağı və orta gəlirli ölkələrdə bu müddət ərzində istixana qazı emissiyaları 85 faiz çoxalıb, yüksək gəlirli ölkələrdə isə 5 faiz azalıb.

Beləliklə, tarixən böyük emissiyalar əsasən, inkişaf etmiş iqtisadiyyatlar tərəfindən atılırdısa, yeni minillikdə vəziyyət dəyişdi. Qlobal iqlim siyasətində əsas problemlərdən birinin kökü də budur. İnkişaf etməkdə olan ölkələr məsuliyyət daşımadıqları iqlim dəyişikliyi nəticəsində dəymiş ziyanı kompensasiya etmək və “yaşıl” transformasiyanı maliyyələşdirmək üçün inkişaf etmiş ölkələrdən ödənişlər tələb edirlər. İnkişaf etmiş ölkələr, öz növbəsində, inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal səylərdə daha çox iştirak etmələrinin zəruriliyini vurğulayırlar. Çünki onlar, həqiqətən, planetə keçmiş zərərin əsas səbəbkarları olsalar da, qlobal iqlim dəyişikliyinin gələcəyinin inkişaf etməkdə olan ölkələrin hərəkətlərindən asılı olduğunu aydın görürlər.

Lakin anlamaq lazımdır ki, bu qarşıdurmada heç bir tərəfin aşkar üstünlüyü yoxdur. İnkişaf etmiş ölkələr beynəlxalq təşkilatlarda və qlobal səviyyədə qərar qəbuletmə sistemlərində ənənəvi üstünlükdən, eləcə də iqtisadi güc baxımından udurlar. İnkişaf etməkdə olan ölkələr mübahisə etmək çətin olan iqlim ədaləti diskursunu öz tərəflərinə çəkirlər.

İnkişaf etməkdə olan ölkələrdə tullantıları (ton hesabı ilə) azaltmağın daha ucuz olması da əsaslı şəkildə vacibdir. Lakin orada “yaşıl” investisiyalar üçün mövcud kapital yoxdur. İnkişaf etmiş ölkələrdə, əksinə, “yaşıl” kapital var, ancaq emissiyaları azaltmaq üçün səylər baha başa gəlir. Planetar nöqteyi-nəzərdən inkişaf etmiş ölkələrin maliyyə resurslarının inkişaf etməkdə olan ölkələrdə yerləşən aşağı xərcli emissiyaların azaldılması layihələrinə yönəldilməsi optimal olardı, lakin siyasi baxımdan bu, mümkün görünmür.




2022-ci ildə Şarm əş-Şeyxdə BMT-nin İqlim Dəyişikliyi ilə bağlı tərəflərin 27-ci konfransında İtkilər və Zərərlər Fondunun yaradılması haqqında qərar qəbul edilib və bu fonddan iqlim dəyişikliyinin təsirlərinə ən həssas olan dövlətlərə vəsaitlər ayrılacağı nəzərdə tutulub. Lakin təqdim olunan vəsaitin həcmi, donor və resipiyentlərin dairəsi hələ də müəyyənləşdirilməyib. Skeptiklər qeyd edirlər ki, Parisdə, hətta inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə dəstək üçün ayırmağa söz verdikləri ildə 100 milyard dolları belə səfərbər etmək hələlik mümkün olmayıb. Ən böyük vəzifə təkcə daha yoxsul ölkələrə dəymiş ziyanı qismən kompensasiya etmək deyil, bu gün qlobal emissiyaların dinamikasını müəyyənləşdirən inkişaf etməkdə olan aparıcı ölkələrdə dekarbonizasiyanı dəstəkləmək üçün daha çox vəsait toplamaqdır. Bəşəriyyət hələ də bu problemi həll etməkdən uzaqdır.

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı ziddiyyətlər bəzən iqlim dəyişikliyi ilə davamlı inkişafın digər problemləri arasında yaranan boşluqdan irəli gəlir. Ayrı-ayrı hallarda bir problemin həlli digərlərini ağırlaşdırır. Beləliklə, iqtisadi artım, yoxsulluğun aradan qaldırılması və yoxsul ölkələrdə insanların ucuz enerjiyə çıxışı bəzən mədən yanacaqlarından istifadənin artırılmasını tələb edir ki, bu da istixana qazları emissiyalarının azaldılması məqsədlərinə ziddir.

Bundan əlavə, 2019-cu ildə daha az inkişaf etmiş ölkələr qlobal istixana qazı emissiyalarının 3,5 faizdən azına cavabdeh idilər. Onlara karbonsuzlaşdırmaya görə kömək etmək, gələcək emissiyaların qarşısının alınmasına sərmayə qoymaq vacib sayılır. Bütün digər kateqoriyalı dövlətləri məntiqinə görə, gələcək emissiyalar qlobal iqlim üçün təhlükəli miqyasda o zaman mövcud olacaq ki, bu dövlətlərin sürətləndirilmiş iqtisadi artım üçün stimulları olsun. Bu baxımdan, iqlim problemləri ilə əlaqəli ən az inkişaf etmiş ölkələrə beynəlxalq yardımın inkişaf edə biləcəyi 3 ssenari mümkün görünür.

Ən pessimist ssenaridə yardım, təxminən, cari miqyasda mövcuddur, ancaq bu, sürətli böyümə çarxını işə salmaq üçün kifayət deyil. Belə bir ssenaridə bu ölkələr qlobal orta temperaturun artmasına heç nə vermirlər, çünki onlar sosial-iqtisadi inkişaf baxımından pis vəziyyətdə qalırlar, bir çoxları silahlı münaqişələrə qoşulmaqda davam edir və əhalinin əhəmiyyətli bir hissəsində baza resursları (təmiz içməli su, qida və elektrik enerjisi) yoxdur. Belə bir vəziyyətdə təbii ki, insan hüquqlarının pozulması və ətraf mühitin nəzarətsiz istismarı davam edir.

Daha real ssenari inkişaf etmiş dövlətlərdən az inkişaf etmiş ölkələrə yardımın artırılmasını nəzərdə tutur, lakin bu, onların sənaye dövründə inkişaf etmiş və 2010–2020-ci illərdə inkişaf edən iqtisadiyyatlarla eyni inkişaf yolu ilə getməsinə gətirib çıxarır: sürətli iqtisadi artım istixana qaz emissiyalarının müvafiq artımı ilə müşayiət olunur və bu da qlobal iqlimə son dərəcə mənfi təsir göstərir. Bu ssenari o halda mümkündür ki, inkişaf etmiş iqtisadiyyatlar aşağı karbonlu inkişaf texnologiyaları ilə deyil, maliyyəni bölüşməyə hazır olsunlar. Daha az inkişaf etmiş ölkələrə isə karbon tutumlu sənayelər və ən ucuz mədən yanacaqları vasitəsilə böyümək daha sərfəli olar.

Nəhayət, optimist ssenari “yaşıl” transformasiyanın uğurla həyata keçirilməsi üçün zəruri olan həm maliyyə, həm də texnologiyanın ən az inkişaf etmiş iqtisadiyyatlara transferini nəzərdə tutur. Lakin indiki reallıqlarda onun həyata keçirilməsi ehtimalı çox azdır.

**(ardı var)**

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

# Nəbatat Bağı – cənnətmisal məkan

## *Açıq səma altında təbii laboratoriya*

**Coğrafi mövqe, relyef müxtəlifliyi, torpaq iqlim amillərinin rəngarəngliyi ölkəmizin flora və faunası üçün mühüm şərait yaradıb. Həmçinin Kiçik və Böyük Qafqaz, eləcə də Talış dağ silsilələri və onların Kür–Araz ovalıqlarından keçərək Xəzər dənizi ilə təmasda yaratdığı ekosistem təbiətin zənginliyini daha da artırıb.**

Müasir dünyanın ekoloji durumu getdikcə ağırlaşır, bu səbəbdən də bəşəriyyət çox çətin sınaqlarla, sıxıntılarla üzləşir. Baş verən iqlim dəyişikliyi təbiətə ciddi zərər vurmaqla yanaşı, insanlardan da yan ötmür. Yer kürəsində yaşıl kütlənin həcmi get-gedə azalır, istiləşmə dərəcəsi isə yüksəlir.

Bitki növlərinin və ümumilikdə, yaşıl kütlənin yox olması və ya azalması, eyni zamanda, onun təkamülü təbii prosesdir. Azalma təkamülü təbii üstələdikdə ekosistemdə tarazlıq pozulur. Təssüf ki, bu proses indiyədək artan istiqamətdə davam edir.

Məlum olduğu kimi, biomüxtəliflik Yer kürəsində canlı orqanizmlərin məcmusunu özündə əks etdirən bioloji anlayışdır. Biokütlənin get–gedə azalması isə bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatların daim diqqət mərkəzindədir. Beynəlxalq Təbiəti Mühafizə İttifaqının tərtib etdiyi nəsli kəsilməkdə olan bitki növlərinin “qırmızı siyahı”sı ilbəil yenilənir. Son araşdırmalardan məlum olub ki, 150 mindən çox növün, təxminən, 28 faizi təhlükə altındadır. İqlim dəyişikliyinin artan təsiri ilə qarşılaşan növlər daha çox çətinliklə üzləşir və onların sıradan çıxma ehtimalı yüksək olur. Belə növlərin cəmləşdiyi ərazilərdə isə xüsusi qorunmalar, məsələn, qoruqlar, yasaqlıqlar, milli parklar, nəbatat bağları və s. yaradılır.

Ölkəmizdə də biomüxtəlifliyin qorunması və davamlı inkişafı ekoloji siyasətin əsas xətti olaraq daim diqqətdə saxlanılır. “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı inkişafına dair Milli strategiya və fəaliyyət planının təsdiq edilməsi haqqında” Azərbaycan Prezidentinin 24 mart 2006-cı il tarixli Sərəncamında nadir bitkilərin repatriasiyası, insan amillərinin ətraf mühitə təsirinin azaldılması, xüsusi mühafizə olunan ərazilərin sayının artırılması, elmi-tədqiqat işlərinin aparılması qarşıya mühüm vəzifə kimi qoyulur.

*

Beynəlxalq Təbiəti Mühafizə İttifaqının tərtib etdiyi nəsli kəsilməkdə olan bitki növlərinin qorunması və yaşadılmasında önəmli rol oynayan yuxarıda bildirdiyimiz kimi, xüsusi qorunan ərazilərdən biri də nəbatat bağlarıdır. Bu bağçılığın tarixi çox qədimdir. Belə ki, sözügedən sahənin inkişafına insanların hələ ibtidai icma quruluşu dövründə yaşayış yerlərinin yaxınlığında



bəzi qida əhəmiyyətli bitkilərin əkilib–becərilməsindən başlanıb və daimi məskunlaşma ilə sıx bağlı olub.

Müasir nəbatat bağları elmi-tədqiqat, tədris və maarifləndirmə məqsədi ilə dünyanın müxtəlif botaniki-coğrafi ərazilərindən gətirilən toxum və canlı bitki nümunələrinin yeni torpaq-iqlim şəraitində yetişdirilməsi (introduksiya, aklimatizasiya) işləri görülən, xüsusi mühafizə olunan canlı təbiət abidəsidir. Eyni zamanda, nəbatat bağları təbiətdə təhlükəyə məruz qalan növlərin qorunub saxlanılması və çoxaldılaraq yenidən təbiətə qaytarılması (reintroduksiya) üçün ən etibarlı yerdir. Burada, həmçinin xarici floradan gətirilən yeni növlərin yerli torpaq iqlim şəraitinə tədricən uyğunlaşmaları üzərində elmi-tədqiqat işləri aparılır.

Azərbaycannın Mərkəzi Nəbatat Bağında Qafqaz florasının nadir və nəsli kəsilməkdə olan 144 növ bitki kolleksiyaları, həmçinin Şərqi və Orta Asiya, Şimali və Cənubi Amerika, Aralıq dənizi hövzəsi və digər regionlardan olan 2 minə yaxın bitki növ və çeşidləri yerləşdirilib. Burada giləmeyvəli qaraçöhrə, dəmirağacı, adi şabalıd, Qafqaz xurması, Hirkan şümşadı kimi relikt, eləcə də Eldar şamı, Eldar armudu, Kuznetsov söyüdü, itikənarlı süsən, Nizami itburnu kimi endemik növlər qorunub saxlanılır. Kolleksiyalarda elə növlər vardır ki, onlara, məsələn, Çin püstəsi, bataqlıq sərvi, atlas sidri, nəhəng sekvoyya, yaşılçiçək pittosporum, Arizon sərvi və s. Azərbaycanın digər ərazilərində təsadüf olunmur.



Mərkəzi Nəbatat Bağı vasitəsilə ekoloji maarifləndirmə insanların təbiətə qarşı formalaşmasında və sivilizasiyasında başlıca amildir. Ekoloji marifləndirmənin əsas prinsipləri canlı təbiəti sevmək və qorumaq hissinin aşılanması, ətraf aləmə intizamlı yanaşma, ekomaterialların sistemli və fasiləsiz öyrənilməsi, qlobal və milli əlaqələrin davamlı inkişafı, ekotərbiyənin, eləcə də təhsilin səmərəliliyinin artırılmasıdır. Mərkəzi Nəbatat Bağına davamlı gəzintilərin təşkili ilə buna nail olunur.

Bağın elmi əməkdaşları ziyarətçilərə ətraf mühiti öyrənmək, bitkilərin təbii həyat formalarını müəyyənləşdirmək, onların bioekoloji xüsusiyyətlərini təhlil etmək, bitkilər üzərində fenoloji müşahidələri araşdırmaq, ətraf mühitin çirklənməsinin səbəblərini aydınlaşdırmaq və aradan qaldırmaq prinsipləri barədə məlumat verir, onları bitkilərin budanılması, forma verilməsi, diblərinin yumşaldılması kimi praktik işlərə cəlb edirlər.

Mərkəzi Nəbatat Bağında minlərlə ağac, kol, ot bitkisi becərilir. Burada, ümumilikdə, 50 mindən çox ağac və kol, minlərlə qida və dərman əhəmiyyətli ot bitkiləri becərilir. Bu bitkilərin ekoloji təmiz meyvə, giləmeyvələri insanlar və quşlar tərəfindən yeyilir, eyni zamanda, bitkilərin müxtəlif orqanlarından (yarpaq, çiçək toxumu, kök və s.) müalicəvi dərman kimi geniş istifadə olunur. Bizim sələflərimiz olan dəyərli alimlərin Mərkəzi Nəbatat Bağını Bakının “oksigen balonu” adlandırmalarında böyük həqiqət var. Belə ki, bir ədəd orta böyüklükdə yarpaqlı ağacın il ərzində 2 nəfəri oksigenlə təmin etdiyi nəzərə alınsa, buradakı yaşıllıqların əhəmiyyəti haqqında aydın təsəvvür yaranar.

Mərkəzi Nəbətat Bağının özəlliklərindən biri də tam formalaşmış və davamlı inkişafda olan ekosistemdir. Burada quşların, vəhşi heyvanların (dovşan, tülkü, çaqqal, sincab), müxtəlif növ sürünənlərin, suda-quruda yaşayanların, ibtidai su bitkilərinin, göbələklərin, ali çiçəkli bitkilərin birgə təbii yaşayışı hər bir canlı üçün əlverişlidir.

Hazırda bağın elmi əməkdaşları tərəfindən ərazidə bitki növmüxtəlifliyinin zənginləşdirilməsi, onlara qulluq, bitkilərin qorunub saxlanılması ilə bağlı tamamilə yeni yanaşma tətbiq olunur. Belə ki, son bir il ərzində Mərkəzi Nəbatat Bağının ərazisində yüzdən artıq yeni bitki növləri əkilib, ərazidə əvvəllər mövcud olan və məhvolma təhlükəsi ilə üzləşən növlər müəyyənləşdirilib və onların bərpa olunması tədbirləri hazırlanıb. Bununla yanaşı, sayı azalmaqda olan bitki növlərinin artırılması, eyni zamanda, yeni növ və sortların gətirilməsi işləri də davam etdirilib. Bütün bunlar isə COP29-un missiyasından irəli gələn tələblərin icrasına bağın bir töhfəsi kimi qiymətləndirilə bilər.

***Həsən BABAYEV,***
***biologiya elmləri doktoru, dosent***
***Asif MEHRƏLİYEV,***
***biologiya üzrə fəlsəfə doktoru, dosent***




# “Yaşıl” iqtisadiyyata keçidin vergi təminatı

## *2030-cu ilədək ölkəmizdə istixana qazları 35 faiz azalacaq*

**COP29 Azərbaycanın qlobal iqlim dəyişikliyi ilə mübarizədə mövqeyini gücləndirir. İqlim konfransının əsas prioriteti isə iqlim maliyyəsidir. Bununla yanaşı, COP29 çərçivəsində iqlim dəyişikliyi üzrə digər vacib mövzulara – mitiqasiya və adaptasiya istiqamətlərinə də üstünlük veriləcəyi gözlənilir. Eyni zamanda, COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin bildirdiyinə görə, danışıqlardan kənar önəmli istiqamətlər olan “İkiillik şəffaflıq hesabatları”, “Müəyyənləşdirilən milli töhfələr”, “Milli adaptasiya planları”nın hazırlanması və təqdim edilməsi məsələlərinə də diqqət yetiriləcəyi gözlənilir. Bu tədbir çərçivəsində Azərbaycanın COP29 Sədrliyi 14 əsas təşəbbüs irəli sürür. Məqsəd yalnız milli deyil, qlobal səviyyədə yeni yanaşmalar və innovativ həll yolları təklif etməkdir. Azərbaycan bu təşəbbüslərlə qlobal səviyyədə “yaşıl” iqtisadiyyata keçidi dəstəkləyir, eyni zamanda, beynəlxalq səviyyədə etibarlı və məsuliyyətli tərəfdaş kimi mövqeyini gücləndirir.**




Ölkəmizdə son illərdə “yaşıl” iqtisadiyyata keçid istiqamətində mühüm addımlar atılıb, enerji mənbələrinin genişləndirilməsi, enerji səmərəliliyi və dövri iqtisadiyyatın inkişafı sahələrində ciddi nailiyyətlər qazanılıb. 2030-cu ilə qədər baxışı təmin edən Milli Prioritetlər sənədində dayanıqlı inkişaf və ətraf mühitin qorunması əsas hədəflərdən biri kimi müəyyənləşdirilib. Başqa sözlə, Milli Prioritetlərdə respublikamızın “yaşıl” iqtisadiyyata keçidinin sürətləndirilməsi, təbii sərvətlərin səmərəli idarə olunması, karbon emissiyalarının azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma və enerji səmərəliliyinin artırılması kimi konkret ekoloji məqsədlər yer alıb.

Belə bir yanaşma isə təsadüfi hal sayılmır. Çünki yaşadığımız indiki dövrdə iqtisadi cəhətdən dayanıqlı, təmiz və sağlam gələcəyə keçid ən aktual çağırışlardan biridir, mütərəqqi cəmiyyət quruculuğunda atılan məsuliyyətli addımdır. Ümumiyyətlə, dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün “yaşıl” iqtisadiyyata keçid böyük əhəmiyyət kəsb edir.

Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərlinin sözlərinə görə, “yaşıl” enerji növlərinin yaradılması və dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Respublikamızda elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılması nəzərdə tutulur. 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının emissiyasını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmaq da hədəfdə olan vəzifədir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, eləcə də Naxçıvan Muxtar Respublikası da daxil olmaqla sözügedən ərazilər “yaşıl” enerji zonası kimi müəyyənləşdirilib, ölkəmizdə 2024-cü il “Yaşıl” dünya naminə həmrəylik ili” elan edilib. Məqsəd iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsinə töhfələri artırmaq olub.

DVX rəisi forumda çıxışı zamanı diqqətçəkən bir məqama da toxunaraq qeyd edib ki, beynəlxalq təcrübədə geniş tətbiq olunan karbon emissiyasının azaldılması məqsədilə respublikamızda “karbon vergisi” və ya analoji verginin tətbiqi imkanlarının qiymətləndirilməsinin, “karbon vergi”sinin vergitutma obyekti olan karbon emissiyasının ölçülməsi sisteminin yaradılmasının tətbiqi kimi proseslər hazırda hökumətdə həmkar qurumlarla müzakirələrin mühüm istiqamətidir.

Onun sözlərinə görə, bununla bağlı bir sıra beynəlxalq təşkilatlarla, beyin mərkəzləri, təhsil müəssisələri və əlaqəli sənayelərlə əməkdaşlıq əlaqələri mövcuddur. Bu sahədə həm təcrübələr öyrənilir, həm mövcud təcrübələrin yaratdığı çağırışlar birgə müzakirə edilir, həm də ölkəmiz üçün düzgün vergiqoyma siyasəti müəyyənləşdirilir.

“Yaşıl” iqtisadiyyatın stimullaşdırılmasında vergi siyasətinin mühüm rol oynadığını qeyd edən DVX-nin rəisi, həmçinin qeyd edib ki, bərpaolunan enerji mənbələrinə sərmayə qoyuluşunun, istehsal sektorunda və ixrac olunan məhsullarda “karbon izi”nin azaldılmasına yönələn siyasətin vergi alətləri vasitəsilə dəstəklənməsi milli vergi sisteminin diqqət mərkəzindədir.

Hazırda ətraf mühitin qorunması istiqamətində bir çox tədbir həyata keçirilir və vergi alətləri də bu prosesə fəal dəstək verir. Ölkədə dayanıqlı iqtisadi inkişafın, eləcə də iqlim əsaslı “yaşıl” iqtisadiyyata keçidin gerçəkləşdirilməsi yalnız bizneslərin üzərinə əlavə vergiqoyma ilə deyil, həm də bərpaolunan enerji mənbələrindən istifadə və yaxud “yaşıl” texnologiyalardan istifadənin vergilərlə təşviqi hesabına mümkündür.

Ölkəmizdə aşağı emissiyalı məhsul və sənayeləri təşviq edən qanunvericilik aktları qəbul edilib. Elektrik və hibrid avtomobillərə, elektrik mühərriki ilə işləyən nəqliyyat vasitələrinin enerji doldurucularına elektrik enerjisi ötürülənməsindən əldə edilən gəlirlərə münasibətdə tətbiq olunan təşviqlər bunun bariz ifadəsidir. “Yaşıl” enerjinin istehsalını həyata keçirənlər üçün iqtisadi stimulların verilməsi gündəmin prioritetidir.

# Bakı İqlim Fəaliyyəti Həftəsi strateji təşəbbüslərlə yekunlaşıb



**COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat ofisindən bildirilib ki, Bakı İqlim Fəaliyyəti Həftəsi innovativ təşəbbüslərlə başa çatıb və qlobal iqlim fəaliyyəti çərçivəsində Azərbaycanın lider mövqeyini daha da möhkəmləndirib. Sentyabrın 30-dan oktyabrın 4-dək davam edən bir həftəlik toplantıda 700-dən çox nümayəndənin iştirakı ilə 30-dan artıq tədbir keçirilib. Beynəlxalq iqlim ekspertləri, hökumət rəsmiləri, gənclər və özəl sektor liderlərini bir araya gətirən həmin tədbirlərdə “yaşıl” maliyyə, ədalətli keçid, metan emissiyalarının azaldılması, su və dayanıqlı qida sistemləri, eləcə də digər mövzular müzakirə olunub.**

Həftə iqlim dəyişməsi, sağlamlıq, rifah və aktiv həyat tərzi arasında əlaqəni vurğulayan Bakı Bulvarı boyu “Təbliğatını tətbiq et” iqlim fəaliyyəti yürüşü ilə yekunlaşıb.

Bakı İqlim Fəaliyyət Həftəsində əldə olunan iddialı nəticələr və əməkdaşlıq əlaqələri Azərbaycanın iqlim fəaliyyətində qlobal lider mövqeyini bir daha təsdiqləyib.

Beləliklə, İqlim Fəaliyyət Həftəsi noyabrda keçiriləcək COP29 çərçivəsində Azərbaycanın ambisiyaları artırması və fəaliyyətə təkan verməsi üçün münbit zəmin yaradıb.

# Elm “təmiz dünya”nın açarıdır

**BMT-nin COP29-da iqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai iqlim fəaliyyətində tədqiqat və əməkdaşlığın genişləndirilməsi mövzusunda keçirilən konfransındakı çıxışında iqlim problemlərinin fəsadları ilə mübarizə istiqamətində müəyyənləşdirilən hədəflərə çatmaq üçün elmin gücündən istifadə etməyin zəruriliyini bildirib.**



O qeyd edib ki, dünya artıq kritik dönəmdədir: “Alimlərin fikrincə, planetə zərər verə biləcək nəticələrin astanasındayıq. İqlim dəyişiklikləri ilə əlaqədar ən son elmi biliklərin qlobal siyasətə təsirini gücləndirmək vacibdir. Bu istiqamətdə beynəlxalq əməkdaşlığın gücləndirilməsi zəruridir. Ölkələr ən yaxşı təcrübələri bölüşmək üçün birlikdə fəaliyyət göstərməlidir. Özəl sektorun da bu fəaliyyətdə fəal tərəfdaş olması önəmlidir”.

N.Arpadarai vurğulayıb ki, akademik və tədqiqat əməkdaşlıqları iqlim araşdırmalarının önündə gedir: “İqlim tədqiqatlarına və inkişafına maliyyələşdirmənin artırılması, bu tədqiqatlara əlçatanlığın təmin olunması lazımdır. Hazırda iqlim dəyişikliyi sahəsində irəli sürülən 14 təşəbbüs aktualdır. Biz bu təşəbbüslərdən biri kimi insan kapitalının artırılması və ətraf mühitlə bağlı maarifləndirmənin genişləndirilməsini irəli sürmüşük”.

# Ölkəmizdə bərpaolunan enerji istehsalı 6 ildə 3 dəfə artacaq

**Norveçin “Rystad Energy” müstəqil tədqiqat və analitik şirkətinin proqnozlaşdırmasına görə, Azərbaycanda hidroenergetika daxil olmaqla bərpaolunan enerji mənbələrindən 2030-cu ilədək elektrik enerji istehsalı həcmi 3 dəfə artacaq. Bu ilin sonunadək həmin sahədə ümumi istehsal ötən ilki 7 faizdən 22 faizə yüksələcək.**



Araşdırmada bildirilir ki, Azərbaycan öz enerji balansında bərpaolunan enerji mənbələrinin payını artırmaq səylərini gücləndirir ki, bu da daxili karbon izini və təbii qaz ixracını azaltmağa imkan verəcək. Ölkə günəş və külək enerjisinin potensialını artıraraq, hazırkı 10 faizdən az olan bərpaolunan enerji mənbələrinin elektrik enerjisi istehsalındakı payını üçdəbirə çatdıracaq.

Azərbaycanda bu hədəfə çatmaq üçün 2 milyard dollarlıq “yaşıl” enerji təşəbbüslərinə sərmayə qoyulub. İndiyədək bu layihələrə beynəlxalq miqyasda böyük maraq göstərilib və respublika cari ilin noyabr ayında COP29 sessiyasına evsahibliyi edərək bu öhdəlikləri möhkəmləndirməyi planlaşdırıb.

Ölkə daxilində bərpaolunan enerji mənbələrinin payının artması Azərbaycan üçün 2027-ci ilədək Avropaya qaz ixracını 2 dəfə artırmaq və uzunmüddətli enerji strategiyasına “yaşıl” hidrogen istehsalını əlavə etmək məqsədlərinə çatmaqda kömək edəcək.

“Rystad Energy” şirkətindən bildirildiyinə əsasən, Azərbaycanda qeyri – qalıq yanacaqla əlaqəli enerji xərcləri 2020-ci ildə 1 faizdən az idisə, ötən il 7 faizdən çox olub və onilliyin sonuna qədər bu göstərici 20 faizi ötəcək. Bu isə quraşdırılmış gücün builki 19 faizdən 2027-ci ilə qədər 30 faizə qədər artmasına səbəb olacaq. Bununla belə, ölkə həm ixrac ambisiyalarını, həm də artan daxili tələbatı ödəmək üçün qalıq yanacaqlarına sərmayələri artırmağa davam edəcək.

Xatırladaq ki, “Yaşıl” enerji potensialının səmərəli istifadəsi istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirən, təmiz enerji mənbələrindən istifadənin genişləndirilməsinə prioritet vəzifələrindən biri kimi yanaşan Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə isə 157 QVt təşkil edir.

# COP29-a hazırlıq yüksək səviyyədədir

**BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi Vladanka Andreeva “İqlim fəaliyyəti üçün yürüş” toplantısı çərçivəsində mediaya açıqlamasında COP29-a hazırlığın yüksək səviyyədə görüldüyünü deyib.**



V.Andreyeva bildirib ki, dünyanın 29-cu iqlim konfransının Bakıda keçirilməsinə çox az vaxt qalıb: “BMT COP29-un uğurlu olmasını çox istəyir. Bu, Azərbaycan hökumətinin evsahibliyi etdiyi beynəlxalq toplantıdır. Qlobal temperatur artımını Selsi üzrə 1,5 dərəcədən aşağı məhdudlaşdırmaq üçün təcili iqlim tədbirlərinin görülməsi üçün beynəlxalq ictimaiyyətin ortaq nəticəyə gəlməsi çox vacibdir”.

BMT-nin rezident əlaqələndiricisinin sözlərinə görə, BMT-nin Azərbaycandakı qrupu məlumatlılığı artırmaq, iqlim dəyişikliyi və iqlim fəaliyyəti ilə bağlı müzakirələr aparmaq üçün COP29-un sədrlik komandası ilə sıx əməkdaşlıq edir.

# “Sarıqışlaq” SES 14 ton karbonun qarşısını alır

**Prezident İlham Əliyevin Zəngilan rayonuna səfəri çərçivəsində istifadəyə verilən “Sarıqışlaq” Su Elektrik Stansiyasının fəaliyyəti haqqında “Azərenerji” ASC-nin nümayəndəsi Ramiz Vəliyev bildirib ki, stansiya rayonda Oxçuçay üzərində yerləşən silsilə təşkil edən 4 enerji infrastrukturundan (Zəngilan, Cahangirbəyli, Şayıflı) biridir. “Sarıqışlaq” SES 10,5 meqavat gücə malikdir.**



Stansiyada “yaşıl” enerjinin istehsalı üçün quraşdırılan 2 ekoloji turbin qəza şəraitində öz enerjisini və çay suyunun məcrasını saxlaya bilir.

R.Vəliyev qeyd edib ki, “Sarıqışlaq” SES-də tikilən 110 kilovoltluq açıq paylayıcı qurğu burada istehsal olunan enerjinin “Şayıflı”nın enerji sisteminə ötürülməsini də reallaşdırır. İl ərzində “Sarıqışlaq” SES 33,3 milyon kilovat-saat enerji istehsal edir. Stansiya havaya atılan 14 ton karbon qazının qarşısını alır. Bundan başqa, 33,3 milyon kubmetr qaza qənaət edir”.

“Azərenerji” rəsmisi sonda vurğulayıb ki, başqa SES-lərdən fərqli olaraq 24 saat dayanmadan işləyən bu 4 silsilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında istifadəyə verilən ən böyük stansiyalardan biridir və hazırda 24 saat dayanmadan ekoloji təmiz enerji istehsal edir

# Dağ bölgələrində də iqlim dialoqu keçiriləcək



**Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömuraliyev qurumun 15-ci ildönü ilə bağlı “Anadolu” nəşrində yazdığı məqalədə BMT-nin 29-cu iqlim sessiyası çərçivəsində dağ bölgələrində iqlim dəyişikliyi dialoqunun həyata keçirilməsinin planlaşdırıldığını və bu istiqamətdə dayanıqlılıq tədbirlərinin, eləcə də davamlı inkişafın gerçəkləşdirilməsi ilə əlaqədar müzakirələrin də nəzərdə tutulduğunu qeyd edib.**

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

X Bakı Beynəlxalq Kitab Sərgisi davam edir

# Sərhədsiz söz dünyası

**Bakı EKSPO Mərkəzində ziyarətçilərin böyük marağına səbəb olan yubiley sərgisi çeşidli tədbirlərlə zəngindir. Yazıçı və şairlərlə birbaşa ünsiyyət, nəşriyyatların işi ilə tanışlıqlar hər bir iştirakçıda xoş təəssüratlar yaradır.**

Sərgi çərçivəsində yazıçı-publisist Nüşabə Məmmədlinin “Zəfər zənguləsi” 60 çiçək+bir çələng” və “Heydər Əliyev. Azərbaycanın zəngin mədəniyyəti var” və Vəsimə İsmayılqızının “Heydər Əliyevin Vətən səfərləri” çoxcildliyinin təqdimat mərasimləri, yazıçı-dramaturq Elçin Hüseynbəylinin, şair Qəşəm Nəcəfzadənin, sərginin fəxri yazarı Rövşən Abdullaoğlunun və onlarla başqalarının oxucularla görüşləri, populyar yazıçı Elxan Elatlının “Ölümsüz qətl” romanının müzakirəsi, qəhrəman hərbçilərimizin iştirakı ilə “Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı” adlı kitab sərgisi yaddaqalan olub.



Şuşanın azad olunmasında fədakarlıq göstərmiş xüsusi təyinatlıların komandiri və Şuşaya Azərbaycan Bayrağını sancan polkovnik Rəşad Aslanovdan bəhs edən “Şuşaya bayraq asan cəngavər” kitabı da ekspozisiyada yer alıb. Kitabın müəllifi hərbçi şair Zəminə Xınalıdır. Oçerklərdə Vətən müharibəsindəki şücaətlərinə görə “Qarabağ” ordeni və medallarla təltif edilmiş polkovnikin döyüş yolu geniş işıqlandırılıb. Onu da deyək ki, sərginin tərəfdaşı olan “Azərtac”ın stendi ilə tanışlıq zamanı hərbçilərə Vətən müharibəsində xidməti vəzifələrini yerinə yetirərkən şəhid olan agentliyin əməkdaşı Məhərrəm İbrahimov barədə də söhbət açılıb.

Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Dövlət Dillər, Pedaqoji, Mədəniyyət və İncəsənət universitetlərinin stendlərinə baxanlar çox olub. Elm və təhsil ocaqlarının sərgilədikləri əsərlər Azərbaycanın elmi-mədəni ictimaiyyəti üçün çox önəmlidir. Bu stendlər vasitəsilə ölkənin elmi-pedaqoji potensialı ilə bağlı ətraflı məlumat ala bilirlər. Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə keçirilən “Günlərdən şeir” təqdimatlarına da çoxlu ziyarətçi toplaşır.

**Dünya şöhrətli detektiv yazıçı Çingiz Abdullayevin sərgi barədə təəssüratları maraqlıdır:**

– Bu gözəl EKSPO sərgisinin ən maraqlı məqamlarından biri kitabsevərlərin arasında olmaq, gənc oxucuların gəlib avtoqraf almaları, bizimlə şəkil çəkdirmək istəmələridir. Burada yüzlərlə uşağı kitablarla görmək mənim üçün ən böyük zövqdür. Uşaqlar varlığımıza məna verir və gələcəyə zəmanət yaradırlar. Onu da deyim ki, general Polad Həşimovdan tutmuş, Qarabağı azad edən zabit və əsgərlərimizədək nə qədər qəhrəman mənim oxucum olub. Şəhid anaları mənə bu barədə çox danışır. Bu o deməkdir ki, mən boş yerə yaşamamışam.

**Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin Kitabxanalar və Nəşriyyatlar Baş İdarəsinin şöbə müdiri Ahmet Özekmekçi qardaş ölkəyə aid stend barədə məlumat verərək deyib:**

– Türkiyədən 8 nəşriyyatı özümüzlə gətirmişik. Onlar burada Azərbaycan nəşriyyatları ilə əlaqələr yaradır, görüşlər keçirirlər. Yarmarkada İstanbul Ticarət Palatası ilə birlikdə 2 minə yaxın kitabımız sərgilənir. Baş İdarənin “Türk ədəbiyyatının xarici dünyaya açılması” adlı layihəsi var və bu layihəyə əsasən Azərbaycanda 28 nəşriyyata 135 yazıçının 217 əsəri ilə dəstək göstərilib. Həmin əsərlərdən 172-si çap olunub, digərləri çap prosesindədir.

Yeri gəlmişkən, ötən müddət ərzində Azərbaycan Milli Kitabxanasının məsul işçiləri bizimlə bir neçə dəfə görüşüblər, qarşılıqlı peşəkar fikir mübadiləsi aparılıb. Ümid edirəm ki, yaxın günlərdə kitabxanaçılıq və xidmət sahəsində əməkdaşlığımız daha da güclənəcək.

Sərgi çərçivəsində Qazaxıstan Prezidentinin müşaviri, Malik Otarbayevin Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr olunan “Gözlədiyimiz xoşbəxtlik” kitabı da oxuculara təqdim olunub. Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel və digər natiqlər əsərin əhəmiyyətindən danışıblar. Sonda imza sessiyası keçirilib.




**Qazax ədəbiyyatının tanınmış nümayəndəsi Malik Otarbayev insanların mənəvi zənginləşməsində görkəmli ədəbiyyatın əhəmiyyətini xüsusi qeyd edib:**

– Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən böyük Türk şairlərinə olan diqqət və dəstək əsl örnəkdir. Bu il Azərbaycanda məşhur qazax yazıçısı Berdibek Sokpakbayevin 100 illiyi qeyd olunub. UNESCO üzrə də yubileylə bağlı geniş tədbirlər proqramı hazırlanıb. Bu çərçivədə 10-cu Bakı Beynəlxalq Kitab Sərgisində yazıçının “Mənim Adım Kojadır” adlı məşhur əsəri ilk dəfə Azərbaycan dilində oxuculara təqdim olunub. Həmçinin bu il qazax şairlərinin ilham mənbəyi olmuş dəyərli şəxsiyyət Məhəmməd Füzulinin 530 illiyi qeyd edilir, onun əsərlərini gənclərimizə tanıtmaq çox vacibdir. Bu, yalnız Azərbaycan–Qazaxıstan münasibətləri üçün deyil, ümumilikdə Türk dünyasının mənəvi birliyinin və potensialının güclənməsi üçün böyük əhəmiyyət daşıyır. Keçən il böyük Azərbaycan yazarının əsərləri qazax dilinə tərcümə edilərək Qazaxıstanda təqdim edilib.

Builki sərgidə Türk dünyasının görkəmli yazıçıları tərəfindən qələmə alınan kitabların təqdimatları həmişə yaddaşlarda qalacaq. Kitabların tərcüməsi xalqların bir-birini daha yaxşı tanımasına və qardaşlıq bağlarının möhkəmlənməsinə xidmət edir. Sərgi çərçivəsində Qazaxıstanın tanınmış şairi, filoloq-alim, pedaqoq, Əməkdar mədəniyyət xadimi Dauletkerey Kapoğlunun “Üşüyən küçələr”, görkəmli qazax alimi, akademik Darxan Kidralinin “Daşa yazılan tarix” kitabının təqdimatları da bu baxımdan istisna deyil.

**Dünya şöhrətli alman yazıçısı Vulf Dornun oxucularla görüşü və imza saatı da hər kəsə xoş təsir bağışlayıb. O, jurnalistlərə deyib:**

– Bakıya ikinci dəfədir gəlirəm və paytaxtınıza heyranam. Bura həm də tarixi şəhərdir. Bu gün biz Xalça Muzeyində olmuşuq. Xalçalarda istifadə olunan simvollar əsrarəngizdir, hər birinin öz mənası var. Bundan əlavə, İçərişəhərə də getdim... Mən çox şadam ki, “Gecə qurdlarındır” adlı yeni kitabım indi Azərbaycanda təqdim olunur. Bu, mənim şəxsi hekayəm olub və COVID-19 pandemiyası nəticəsində baş vermiş itki haqqındadır”.

Qətər Dövlətinin Mədəniyyət Nazirliyinin nümayəndəsi Əhməd əl-Emadi, Mərakeşin “De Bros” nəşriyyatının prezidenti Tarik Slaiki, Omanın paytaxtı Məsqət şəhərindəki daimi Beynəlxalq Kitab Sərgisinin rəhbəri Ahmed Ayravaxi, Rusiya Tərcümə İnstitutunun direktoru, tanınmış şair Yevgeni Rezniçenko, eləcə də Azərbaycan Milli Kitabxanasında növbəti iclası keçirilən Asiya Hekayəçilik Komitəsinin üzvləri də 10-cu Bakı Beynəlxalq Kitab Sərgisinə ziyarətləri barədə fikirlərini məmnuniyyətlə bölüşüblər. Koreya, Qazaxıstan, Qırğız Respublikası, Monqolustan və Tacikistandan mədəniyyət nazirliklərinin nümayəndələri Azərbaycan kitab sənayesi ilə yaxından tanış olublar.

Nəhayət, qeyd edək ki, sərginin əsas özəlliklərindən biri maraqlı kitabların endirimli qiymətlərlə oxuculara təklif olunmasıdır. “Qanun”, “Əli və Nino”, XAN nəşriyyatları kitablara 20-90 faiz endirim aksiyaları ilə oxucuları sevindirirlər.

Naşirlər kitab sərgisini şirkətlərin çap məhsullarını nümayiş etdirmək və satmaq, habelə yerli və xarici nəşriyyatlarla, müəlliflərlə danışıqlar aparmaq və müqavilələr imzalamaq üçün unikal fürsət kimi dəyərləndirirlər.

*Ə.ƏLİYEV*
*XQ*

Adil Cəmil – 70

# Dağlar oğlu şeiriyyət ucalığında

**Qələm dostumuz Adil Cəmilin özündən əvvəl imzasını tanımışam. Gözəl şeir və oçerkləri, yaraşıqlı görkəmi həmişə diqqət çəkib. Yaxından bələd olunca isə görmüşəm ki, şeirləri elə onun ürəyinin şəklidir, işıqlı duyğuların səmimi davranışlarının təcəllasıdır.**



Ünsiyyətimiz elə çox olmasa da, Səməd Vurğun demişkən, gözüm gözündən uzaq olsa da, könüldən könülə yollar görünüb. Elə yubileyi ərəfəsində işıq üzü görmüş “Könüldən könülə” kitabı onun bir şair-tərcüməçi kimi növbəti yaradıcılıq hesabatıdır.

Tanınmış şair, ədəbiyyatşünas alim, tərcüməçi və publisist, Əməkdar jurnalist Adil Cəmilin artıq ömrünün 7-ci onluğunu “xərclədiyinə” inanmaq çətindir. Yəqin ki, ruhu xeyli cavan olduğu üçün “şübhə” yaradır. O da var ki, mətbuatda işıq üzü görən ilk şeiri “Bahar” (1970) olan şairin qoca görünməyə haqqı yoxdur. Bir də, insanın yaşı pasporta yazılmış tarixlərlə ölçülmür ki... Hələ 50 yaşında şair özü bu barədə yazıb:

***Yaşamağı bacarana***
***Yer üzündə yer başqadır.***
***Nə yaşda bilsə özünü,***
***İnsan elə o yaşdadır.***

Yaradıcılığını halal zəhmətindən rişələnən “qələm fəhləsi” Adil Cəmil öz ömrünü belə səciyyələndirib:

***Doğranıb bir doğru söz qabağında,***
***Əyri əyrilərmiş düz qabağında.***
***Mənim ki həyatım göz qabağında –***
***Kim deyər yolumdan sapıb yaşadım.***

Tanrının dərgahına günahsız gedəcəyinə əmin olan şairə arzu edirik ki, hələ yaşayıb-yaratsın, oxucularını yeni-yeni halal şeirləri ilə sevindirsin. Yubileyində biz ona gül vermək əvəzinə, o bizə dünya xalqlarının poeziya çələngi olan yeni kitabını ərməğan eləyib. Onun kitablarından biri belə adlanır: “Sözümün canı var”. Biz də istərdik ki, özünün, sözünün, közünün canı hər zaman ürəklərimizi isindirsin.

Cəmilin ilk kitabının təqdimatı 1980-ci ildə Kəlbəcər Mədəniyyət evində keçirilib. Kəlbəcərin işğalı ərəfəsində yazıb. Sabir Rüstəmxanlının buraxdığı “Azərbaycan” qəzetində dərc etdirdiyi səs-küylü məqaləsi də olub, yağı tapdağında qalmış torpaqlara poetik ağılar yazdığı da.

...“Manas” eposu və türk dastançılıq ənənəsi” mövzusunda dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülüb (2004). “Manas”ı dilimizə uyğunlaşdırıb. Eyni adlı dastan-poema yaradıb. Araşdırmasının ən mühüm cəhəti əsərin bir sıra məqamlarının oğuz türklərinin “Kitabi-Dədə Qorqud” dastanları ilə müqayisəli aspektdə öyrənilməsidir. Ömrünün 35 ilini bu işə həsr edib. Bişkekdə – “Manas”ın 1000 illiyində eposdan kiçik tərcüməsini Ulu öndər Heydər Əliyevə göstərdiyində Ümummilli liderimiz ona deyib: “Elə monumental epopeyadan cəmi bunu tərcümə eləmisən?!” Əlavə də edib ki, bu işi davam etdirməyin yaxşı olardı. Ulu öndərin tövsiyəsi ilə Adil Cəmil həm tərcüməni davam etdirib, həm də epopeyanı dastan-poema şəklində fərdi yaradıcılıq süzgəcindən keçirib.

Onun elmi fəaliyyəti danılmazdır, amma, unudulmaz xalq şairi B.Vahabzadənin özü haqqında dediyi “Qatlaydı dizinin altına qoyar alim Bəxtiyarı şair Bəxtiyar” ifadəsini tam mənası ilə Adil Cəmilə də şamil etmək olar. Şairin “Seçilmiş əsərləri” də çıxıb və mənim bu ada bir “iradım var: buradakı birinci söz artıqdır, çünki Adil Cəmilin elə bütün əsərləri seçilmişdir, elə olmasaydı, üzə çıxarmazdı ki...

Bir neçə il əvvəl elə özü kimi şeirə könül verən övladı Orxan Cəmilin itkisi onu sarsıtsa da, “Mənim yas yerimə gələn kəsləri Mən özüm qapıda qarşılayıram” – deyə kədərlənsə də, Allahın verdiyi səbrlə mətanətli, dəyanətli olub. Bu gün Hüseyn Arifdən, Xəlil Rza Ulutürkdən, Qaçay Köçərlidən aldığı dözümü, Aşıq Şəmşirdən, Ənvər Rzadan, Məmməd Aslandan, Sücaətdən, Bəhmən Vətənoğludan aldığı estafeti mərdanə davam etdirir.

İndiyədək 20-dən artıq kitabın müəllifi, Azərbaycan ədəbiyyatını dünyada layiqincə təmsil edən, Beynəlxalq Aytmatov Akademiyasının fəxri akademiki, TURKSOY-un Totkoqul Satılqanov, “H. B.Zərdabı”, “Araz”, “Qılınc və qələm”, “Qızıl kəlmə” mükafatçısı olan ünlü şair ötən il Kəlbəcərin görüşünə gedib, sevincdən ağlayıb. Oxucular Böyük Qayıdışdan sonra onunla növbəti Kəlbəcər görüşünü intizarla gözləyir, dağlar qoynunda vüsal şeirlərini dinləmək istəyirlər.

Oxucular Adil Cəmilin yeni tərcümə toplusunun səhifələrində milliyyətcə bolqar olan şair İvan Vazovun, çuvaş Georgi Yefimovun, Aleksandr Qalkinin, rus şairləri Valentin Pryaxinin, Nikolay Rıjovun, Vsevolod Azarovun, Konstantin Vanşenkinin, belarus Vasil Zuyonokun, özbək Osman Əzimin, qırğız Alıkul Osmanovun, eləcə də rusdilli Azərbaycan şairləri Leyla Əliyevanın, Aleksandr Xaldeyev, türkiyəli, filippinli, kubalı, əlcəzairli qələm sahiblərinin şairlərin şeirləri ilə sevə-sevə tanış olurlar.

Əlbəttə, şeir tərcüməsi nəsrdən xeyli çətindir. Gərək müəllifin duyğu aləminə sadiq qalasan, çevirdiyin misralar dilə yata, bir də forma eyniliyi ola, müəyyən qəlibi qoruyasan. Adil Cəmil kimi peşəkar tərcüməçi üçün bunu həssaslıqla etmək asan olmasa da, çətin də deyil. Kitabı oxuduqca tərcüməçinin zəhmətinin hədər getmədiyi özünü qabarıq göstərir. Onun çox oxunaqlı çevirmələri həm də üz tutduğu müəlliflərin yaradıcılığına rəğbətindən yoğrulub.

Bulaq istedadını dərya yaradıcılığına ustalıqla sərf edən Adil Cəmilə daha böyük uğurlar diləyi ilə:

*Əli NƏCƏFXANLI*
*XQ*

# Prezident təqaüdü – ali etimad

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev 2024–2025-ci tədris ilində Azərbaycanın ali təhsil müəssisələrinə daxil olan tələbələrə prezident təqaüdlərinin verilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, qəbul imtahanlarında ən yüksək nəticələri göstərən 102 tələbə prezident təqaüdü alacaq.**

**Bakı Ali Neft Məktəbi 33 nəfər Prezident təqaüdçüsü ilə Azərbaycan universitetləri arasında yenə də 1-ci yeri tutub. Bu ali təhsil ocağı 5-ci ildir ki, yüksək təqaüdə layiq görülən tələbələrinin çox olması ilə öncüllüyünü qoruyur. Ali məktəbə 697.5 balla qəbul olmuş Aytac Əliyeva təəssüratlarını bizimlə bölüşdü:**

– 102 tələbədən biri olmağın sevinc və qürurunu yaşayıram. Əslində, gözlədiyim nəticə idi. Prezident təqaüdünü qoruyub saxlamağın özü də böyük məsuliyyətdir.

**Azərbaycan Dövlət İqtisad Universitetinə (UNEC) qəbul olan tələbələrdən 12 nəfəri Prezident təqaüdünə layiq görülüb. Builki ali təqaüdçülər arasında ilk dəfə olaraq, I ixtisas qrupu üzrə tələbə də yer alıb. Qəbul imtahanlarında 692,8 bal toplayan Nicat Şirinov rəqəmsal iqtisadiyyat fakültəsinin “İnformasiya təhlükəsizliyi” (tədris ingilis dilində) ixtisasına qəbul olub. Nicat dedi:**

– Hər ixtisas qrupu üzrə 25 nəfərə verilən bu təqaüddə mənim də adımın olması qürurvericidir. Mən həm də universitet üzrə ən yüksək bal toplayan tələbəyəm və bu, mənim üzərimə ikiqat məsuliyyət qoyur. Gərək etimadı öz zəhmətimlə doğruldam.

**Prezident təqaüdünü qazanmış digər 10 tələbə UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbinin maliyyə ixtisasına, 1 tələbə isə Maliyyə və mühasibat fakültəsinin maliyyə ixtisasına qəbul olub. 669.4 bal toplamış Elcan Hüseynov bu təqaüdə layiq görülməsinin sevincini belə ifadə etdi:**

– Saatlı rayonu Qədim Abdıloğlu adına Gomuşçu kənd tam orta məktəbin məzunuyam. Prezident təqaüdü almaq tələbə üçün qürurdur. Bu xəbəri eşidəndə çox sevindim. İlk olaraq ailəmə dedim. Onlar da bu uğuruma şad oldular.



**Maliyyə ixtisasını seçən Ülvi Həbibli Lənkəran şəhər Həzi Aslanov adına 3 saylı tam orta məktəbi bitirdikdən sonra 681.6 balla tələbə adını qazanıb. O, dedi:**

– Ölkəmizdə tələbələr üçün ayrılmış ən yüksək səviyyəli təqaüdü qazanmaq, sözsüz ki, mənim də arzum olub. Düşünürəm ki, bu uğurum təhsil həyatında mühüm dönüş yaradacaq.

– Ağcabədi rayon 2 saylı tam orta məktəbin məzunu Yunis Səfərli də 102 tələbədən biridir. O, 671.9 balla UNEC-in maliyyə ixtisasında təhsil alır. Təqaüdə layiq görüldüyü üçün Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Türk Dünyası Gənc Yazarlarının I Forumu

**Bu günlərdə 25 yaşı tamam olan Dünya Gənc Türk Yazarlar Birliyinin Bakı Forumu keçirilib. Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğız Respublikası və Güney Azərbaycan nümayəndələri məclisdə “Türk dünyası ədəbi-mədəni əlaqələrin inkişafı – yeni ideyalar, yeni çağırışlar” mövzusu ətrafında geniş müzakirələr aparıblar.**

İctimai birliyin başqanı İntiqam Yaşar qurumun hesabat məruzəsi ilə çıxış edib, görülən işlərdən danışıb. Sosial Tədqiqatlar Mərkəzinin media və kommunikasiya departamentinin müdiri Əziz Əlibəyli bildirib ki, əsas missiya gənc türk yazarlarının yaradıcılığına dəstək göstərməkdir. Bu baxımdan Dünya Gənc Türk Yazarlar Birliyi Türk dünyasının gənc yazarlarını ortaq platforma ətrafında toplamış təşkilatdır.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun icraçı direktoru, dosent Mehman Həsən yetərincə işlərin görülməsinə baxmayaraq, Türk dünyası ədəbiyyatının dərin tədqiqə ehtiyacı olduğunu diqqətə çatdırıb, bu istiqamətdə müxtəlif tərcümə işlərinin, kitab çapının, konfrans və simpoziumlar keçirilməsinin vacibliyini vurğulayıb. Qazaxıstan Yazıçılar Birliyinin katibi Devletkerey Kapulı Türk dünyasının şeir, sənət, ruh dünyası olduğunu söyləyib.

Layihə çərçivəsində çap olunmuş “Türk dünyası gənc yazarları” kitabının redaktoru, Bakı Dövlət Universitetinin doktorantı Mələykə Mirzəli, Azərbaycan Ədəbiyyat Fondunun baş direktoru Varis Yolçuyev, ustad yazıçı və şairlər gənclərə uğurlar arzulayıblar. Mərasimin sonunda Dünya Gənc Türk Yazarlar Birliyinə verdiyi informasiya dəstəyinə görə “Xalq qəzeti”nə, eləcə də bir qrup media qurumuna plaketlər təqdim edilib.

*R.FİKRƏTOĞLU*
*XQ*

*Yaxın Şərq*

# Gerçək məhşər



**Düz bir il, 1 gün əvvəl, yəni 2023-cü il oktyabrın 7-də HƏMAS yaraqlıları Qəzzadan İsrailin nəzarətində olan ərazilərə gözlənilmədən hücum edərək onlarla adamı qətlə yetirmiş və əsir aparmışdılar. İsrailin Müdafiə Ordusu dərhal yerüstü hərbi əməliyyatlara başlamış, Qəzzaya qoşun yeritmişdir. Məhz həmin gündən regionda son onillərin ağır zorakılıqlarla müşahidə olunan ən böyük savaşı başlamışdır.**

Əslində bunun adı qisas və nifrətdən doğan amansız müharibədir. İsrail hərbçiləri İranın siyasi və hərbi cəhətdən tam dəstəklədiyi HƏMAS, “Hizbullah” və Yəməndəki husi yaraqlıları ilə vuruşur. Birbaşa İran-İsrail müharibəsinin də başlanması ehtimalı böyükdür. Bir sözlə, bölgədə eskalasiya günbəgün güclənir.

Hörmətli oxucu, icazənizlə indi dediklərimizi əyani sübuta yetirən bəzi operativ xəbərlərə nəzər yetirək. BBC yazır ki, dünən İsrail Hərbi Hava Qüvvələri Beyrutda radikal “Hizbullah” təşkilatının hərbi obyektlərinə növbəti dəfə zərbələr endirib. Bu zərbələrdən sonra orada silahların olduğunu göstərən partlayışlar qeydə alınıb. Təbii ki, baş verən güclü partlayış zamanı dağıntılar altında qalan çox sayda insan var. Eyni zamanda, Livan da “borclu” qalmır. Bu ölkədən açılan artilleriya atəşləri nəticəsində İsrailin şimalında 10 nəfər yaralanıb.

İsrailin Hərbi Hava Qüvvələri dünən Qəzza zolağının şimalında Fələstin qaçqınlarının Cəbaliyə düşərgəsi ərazisinə də aviazərbələr endirib. Məlumata görə, hədəf HƏMAS tərəfdarlarının silahlı birləşmələri, xüsusilə yeraltı infrastruktur obyektləridir.

Ürəkağrısı ilə bildirmək lazımdır ki, son aylar Qəzza bölgəsində faktiki olaraq humanitar fəlakət yaşanır. İsrail Ordusunun aramsız aviazərbələri nəticəsində burada ölən və yaralananların sayı artıq 42 mini ötübdür. Aralarında minlərlə ahıl, qadın və uşaqlar da var.

Böyük güclər isə regionun ən böyük dövləti olan Türkiyənin İsrail ilə fələstinlilər arasında sülh danışıqlarına təcili başlanılması ilə bağlı təkliflərini görməzdən gəlir. Ankara və demək olar ki, bütün sivil dünya problemin yalnız “iki millət, iki dövlət” prinsipi əsasında həll oluna biləcəyini düşünür.

Son həftələr bir çox ərəb dövlətləri də “iki barışmaz rəqibi” bir araya gətirməyə cəhd edirlər. Bir müddət əvvəl Misir və Qətər liderləri regionda sülhlə bağlı planlarını açıqlayıblar. Onların da təşəbbüsləri qulaqardına vurulur. BMT Təhlükəsizlik Şurasında qəbul olunan qərar və qətnamələrə isə heç kim məhəl qoymur.

Bəli, bir əsrin üçdə ikisi qədər yaşı olan Fələstin – İsrail münaqişəsini durduran, yaxud durdurmaq istəyən yoxdur. Silahlar sussa, əmin-amanlıq yaransa, yerli xalqlar inkişaf və tərəqqi edə bilərlər. İndi isə bu zavallı millətlər neft sataraq pulları silah və sursat almağa verirlər. Necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur.

Görünən odur ki, ABŞ bölgədə ən yaxın müttəfiqi olan İsraili İranın mümkün hücumlarından qorumaq üçün əraziyə xeyli sayda əsgər və hərbi texnika göndərib. Ehtimal olunur ki, daha böyük miqyaslı savaşlar irəlidədir.

Ekspertlər hesab edirlər ki, “kollektiv Qərb” Rusiya-Ukrayna münaqişəsini donduraraq, əsas gücünü “Yaxın Şərq düyünü”nü çözməyə yönəltmək niyyətindədir. Şıdırğı silah alveri gedir. İmperialistlərin daha çox qazanmaq şansı yaranıb. Çünki lokal və qlobal savaşları körükləyən üçün müharibə böyük biznes deməkdir. Həyatın acı reallığı budur!

Bir sözlə, dünya yeni qlobal düzənə hamilədir. Beynəlxalq münasibətlərdə haqq-ədalət zəfər çala bilərmi? Bu suala birmənalı cavab vermək çox çətindir. Bütün millətlər üçün məqbul, ədalətli qanunlar, təəssüf ki, heç vaxt yazılmayıb. Ümid edək ki, nə vaxtsa, yazılacaq.

***Məsaim ABDULLAYEV***
***XQ***

*Arxivdən sızmalar*

# Sovet kəşfiyyatı Stoltenberqi casusluğa cəlb etməyə çalışıb

**NATO-nun sabiq baş katibi Yens Stoltenberq “Financial Times” qəzetinə oktyabrın 4-də dərc maraqlı müsahibə verib. Cənab Stoltenberq bildirib ki, gəncliyində Norveçdə işləyən SSRİ Dövlət Təhlükəsizlik Komtəsi (DTK) zabiti ilə müntəzəm görüşüb. O, 1980-ci illərdə Norveç Fəhlə Partiyasının gənclər təşkilatı olan İşçi Gənclər Liqasına rəhbərlik edərkən Osloda DTK ilə əlaqə saxlayıb. “Bu, çox qəribə idi. Atam mənə dedi ki, Rusiya səfirliyində yalnız DTK-nın adamları ilə danışmaq lazımdır, çünki yalnız onların hər hansı təsiri var”, – Stoltenberq bildirib.**

Cənab Stoltenberq müsahibədə deyib ki, utandıracaq heç bir iş görməyib: “Mən heç vaxt utanacağım bir iş görməmişəm. Ancaq əsas ideya ondan ibarət idi ki, onlar məni şam yeməyinə dəvət etdilər. Osloda eyni restoranda ayda bir dəfə Kirillov adlı bir oğlanla eyni masada böyük krevetli sendviç yeyirdim. O da DTK-dan idi. Buna heç bir şübhə yox idi”. NATO-nun sabiq baş katibi deyib ki, Norveçdə diplomatik pərdə altında olan DTK agenti Viktor Qruşkonu tanıyan atası oğluna Norveç kəşfiyyat xidmətləri ilə hər belə görüşə razılıq verməyi məsləhət görüb.

Sabiq NATO katibinin sözlərinə görə, 1991-ci ildə Norveç əks-kəşfiyyatı onunla əlaqə saxlayıb və belə bir təklif verib: “Kirillovu qaçqın olmağa inandırmaqda bizə kömək edə bilərsinizmi?” Mən bu adamı 10 ildir tanıyıram. Sonuncu nahar zamanı dedim: “Mən səni tanıyıram, sən məni tanıyırsan, bu yana keçmək istəyirsənsə, mənimlə əlaqə saxla: Norveç gözəl ölkədir. Onlar sizin qayğınıza qalacaqlar”.

Kirillov bu təklifi qəbul etməyib. Stoltenberq daha sonra açıq DTK arxivlərindən öyrənib ki, sovet kəşfiyyatı ona “Steklov” kod adını verib. Norveçin NRK televiziya kanalı 2000-ci ildə Norveçdə diplomatik pərdə altında işləyən DTK agenti Boris Kirillovun 1991-ci ildə Yens Stoltenberqi casusluğa cəlb etməyə çalışdığını bildirib. Norveç mətbuatının yazdığına görə, cənab Stoltenberq 1989-cu ildə DTK-nın diqqətini çəkib və hətta xüsusi dosye də açıb. “Belə dosyelər, adətən, “hazırlıq mərhələsində” olan və ya artıq DTK-nın “məxfi əlaqələri”ndən biri hesab edilən insanlar üçün nəzərdə tutulurdu”, – NRK bildirib.



Kirillovun Stoltenberqi casusluğa cəlb etməyə cəhd etməsi faktını Qərbə qaçan DTX agenti Mixail Butkov bildirib və Norveçdəki DTK şəbəkəsini ifşa edib. “Kommersant” qəzeti hələ 2000-ci ildə yazmışdı ki, Butkovun ifşaedici bəyanatlarından sonra Kirillov da daxil olmaqla bir neçə sovet diplomatı “diplomatik statusa uyğun gəlməyən fəaliyyətə” görə Norveçdən qovulub. 2000-ci ilin oktyabrında Rusiya Xarici Kəşfiyyat Xidmətinin nümayəndəsi Tatyana Samolis DTK-nın Stoltenberqi (o vaxt o, Norveç hökumətinə rəhbərlik edirdi) casusluğa cəlb etməsi ilə bağlı xəbərləri şərh etməkdən imtina edib: “Bütün ölkələrin kəşfiyyat xidmətlərində formalaşmış ənənəyə görə, biz bu və ya digər şəxsin bizim agentliyimizdə iştirakı və ya olmaması ilə bağlı şərh vermirik”.

Yens Stoltenberq jurnalist kimi karyerasına 1979-cu ildə “Arbeiderbladet” qəzetində başlayıb, lakin iki ildən sonra siyasətə yönəlib. 1981-ci ildə Norveç Fəhlə Partiyasının mətbuat katibi olub. 1980-ci illərin ortalarından partiyanın mərkəzi idarə heyətinin üzvü, onun gənclər qanadına rəhbərlik edib, Gənc Sosialistlərin Beynəlxalq İttifaqının vitse-prezidenti seçilib. 1990-cı ildə Norveçin Ətraf Mühit Nazirliyinin dövlət katibi vəzifəsini tutub. 2000-ci ildə o, Norveç tarixində ən gənc baş nazir olub (41 yaş). 2014-cü ildə NATO-nun baş katibi seçilib. Cari il oktyabrın 1-də postunu tərk edib. Onu bu vəzifədə Hollandiyanın keçmiş baş naziri Mark Rutte əvəzləyib.

***S.ELAY***
***XQ***

*Sabahımızı düşünərkən*

# Böyük idman yolu uşaq dünyasından başlanır

**Yüksək texnologiyalar, müasir qurğular və kompüter oyunları dövründə uşaqların fiziki fəaliyyəti getdikcə azalır. Onlar vaxtlarını həyətdə və ya idman meydançasında deyil, daha çox virtual aləmdə keçirirlər. Fiziki fəaliyyətin olmaması və oturaq həyat tərzi böyüməkdə olan orqanizmə mənfi təsir göstərir, yuxunun, ümumi sağlamlığın pozulmasına səbəb olur. Mütəxəssislərin bildirdiklərinə görə, idman fəaliyyəti gündəlik hərəkət ehtiyacını ödəməyə və uşağın bədənini nizamlı saxlamağa kömək edəcəkdir.**

Ölkəmizdə idmanın inkişafı üçün yaradılan böyük imkanlar uşaqların erkən yaşlarda idmanla məşğul olmalarını əlçatan edib. Sadəcə müvafiq qurumlar, eləcə də valideynlər gələcək nəslin sağlamlığı üçün onları idmana yönəltməlidirlər.



## İdman mübarizlik yaradır

***Olimpiya çempionu, 2 qat dünya çempionu Fərid Mansurov uşaqları lap kiçik yaşlardan mübarizəyə alışdırmağın vacib olduğunu dedi:***

– Uşaqlıqda həmişə mübarizəyə meyilli olmuşam. Karate, taekvondoda və digər idman növlərində özümü sınasam da, sonda güləşçi kimi şöhrət qazandım. Bunu hamı bilməlidir ki, qələbə uğrunda bütün gücünü toplasan da, sonda qalibiyyəti mübarizə ruhu gətirir. Həyatda bir şey diqqətimi çox çəkir: Bir çoxları qələbənin bir addımlığında dayandıqları üçün uğursuzluğa düçar olurlar. Bunun üçün də uşaqları lap kiçik yaşlarından mübarizəyə alışdırmaq lazımdır. Onlar özlərini sınamaqdan çəkinməməlidirlər. Belə olarsa, hər bir çətinliyin öhdəsindən rahat gələ bilərlər.

## Yelkən və yeni oyunlar

Sevindirici məqamlardan biri isə ölkəmizdə inkişaf etməkdə olan idman növlərinin uşaqlar arasında kütləviliyinin təmin edilməsi üçün atılan addımlardır.

Bakı şəhəri 8 nömrəli orta məktəbdə olduğumuz zaman öyrəndik ki, Yelkən Federasiyası məktəbdə bir sıra tədbirlər keçirib.

***Bu idman növü üzrə İLCA və Optimist B komandasının baş məşqçisi Seyhun Yıldız Azərbaycan Yelkən Federasiyasının son illər ərzində 30-a yaxın ümumtəhsil məktəbində görüşlər keçirdiyini dedi:***

– Yelkən idmanı ilə tanış olan və maraqlanan şagirdlər, ildə 4 dəfə təşkil edilən yay məktəblərinə yazılmaqla bacarıqlarını inkişaf etdirmək şansı qazanırlar. Bu, sadəcə, yelkən idmanına deyil, digər növlərə də marağın artmasına təsir edə bilər. Çünki şagirdlər fərqli idman növləri arasındakı əlaqələri başa düşməyə başlayırlar.

Baş məşqçinin sözlərinə onu da əlavə edək ki, məktəblərdə keçirilən bu cür idman görüşləri şagirdlərin komanda işini öyrənməsinə, məsuliyyət hissini inkişaf etdirməsinə və özünüifadə bacarıqlarının güclənməsinə də kömək edir. Fiziki sağlamlıq, dözümlülük və güc kimi keyfiyyətlərin formalaşması balaca dostlarımızda özünəinam və qərarvermə qabiliyyətini gücləndirir. Bu cür tədbirlər, yelkən idmanı ilə yanaşı, digər idman növlərinə də yönəlmiş məktəb proqramlarının əhəmiyyətini artırır və şagirdləri idmanla fəal məşğul olmağa təşviq edir.



## Erkən yaşların üstünlüyü

Bu gün Azərbaycanda uşaqların idmanla məşğul olması üçün hər bir şərait yaradılıb. Yetər ki, uşaqlarda idmana həvəs oyadaq. Uşaqların erkən yaşlarda idmanla məşğul olmaları ilə bağlı ümumi müşahidələr göstərir ki, bu sahədə vəziyyət elə də ürəkaçan deyil. Belə ki, uşaqların çox az hissəsi erkən yaşlarda idmana gedirlər. Sorğu apardığımız məktəblərdən 1-də, Bakı şəhəri Nəsimi rayonu Namiq Axundov adına 1 nömrəli tam orta məktəbdə üç 1-ci sinfin yalnız birində (rus bölməsi) 2 uşaq idmanla (cüdo, üzgüçülük) məşğul olur. Üç 2-ci sinifdən də birində (bu da rus bölməsi) 2 uşaq cüdo və gimnastikanın sirlərini öyrənir. İdmanla məşğul olan uşaqlar və onların valideynlərinin fikirlərinə görə, məşqlər nəinki dərslərə mane olmur, əksinə asudə vaxtlarını daha səmərəli keçirə bilirlər.

## Niyə məhz cüdo?

Diqqətçəkən məqam isə odur ki, uşaqlar gimnastika, üzgüçülük kimi yüngül idman növləri ilə yanaşı, döyüş növlərindən olan cüdoya da maraq göstərirlər. Təbii ki, bu da onunla bağlıdır ki, Cüdo Federasiyası uşaqlar arasında kütləviliyin təmin edilməsi məqsədilə məktəblərdə maarifləndirici tədbirlər təşkil edir. Onlardan “Söz verirəm” sosial kampaniyasını diqqətə çatdırmaq lazımdır.

Kampaniyanın orta təhsil müəssisələrində təşkilində əsas məqsəd ölkəmizdə idmana olan marağı daha da artırmaq, cəmiyyətdə sağlam həyat tərzini təbliğ etməklə yanaşı, həm də son zamanlar gənclər və yeniyetmələr arasında qlobal səviyyədə aktual olan qısnamaya (bullinq) qarşı mübarizədir. Kampaniya uşaqları həmişə mübariz olmağa, yaşıdlarına hörmətlə yanaşmağa, dostluq, nəzakət, cəsarət kimi dəyərlərə hörmət etməyə çağırır. Bu çağırışa tanınmış cüdoçular, idmançılar, həmçinin ictimai fəal şəxslər də qoşulub.

## İdman və dərslər

Sorğu zamanı idmanla məşğul olmayan uşaqlar və onların valideynlərinin fikirlərini də öyrəndik.

6–8 yaşlı uşaqların əksəriyyəti hər hansı idman növü ilə məşğul olmaq istədiklərini bildirdilər. Söhbət etdiyimiz valideynlərin çoxu isə 10 yaşdan yuxarı uşaqları idmana verməyin tərəfdarı olduqlarını dedilər. Bəziləri işlədikləri üçün vaxtlarının olmadığını, digərləri isə idman məşqlərinin dərslərə mane olacağını əsas gətirdilər.

Olimpiya çempionu F.Mansurovun fikrincə isə, bədəndə idman vərdişləri uşaqlıqdan formalaşmalıdır. 5–6 yaşdan idmana istiqamətləndirilən uşaqlar sağlam yetişməklə yanaşı, həm də xarakterləri inkişaf edir, düzgün vərdişlər yaranır. Onu da qeyd edək ki, kiçikyaşlılar atletika, gimnastika, stolüstü tennis və bu kimi yüngül növlərlə məşğul olub, tədricən digərlərində hazrlıqlarını davam etdirə bilərlər. Yaddan çıxarmaq olmaz ki, idman uşaqlar arasında sağlam rəqabət mühiti yaratmaq üçün gözəl vasitədir. Nailiyyətlərimizin çox olmasını istəyiriksə, uşaqları mübarizə ruhuna kökləməliyik. Çünki qələbə mübarizə ilə qazanılır.

***L.AZAD***
***XQ***

“Oğuz-9” ASC səhmdarlarının nəzərinə!

“Oğuz-9” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 22 noyabr 2024-cü il saat 15.00-da Oğuz rayonunun Qarabaldır kəndində keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** ASC-nin 2023-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**2.** Digər məsələlər.

Ünvan–Oğuz rayonu, Qarabaldır kəndi.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 220 (30624) 8 oktyabr 2024-cü il, çərşənbə axşamı

## İdman xəbərləri

### Dünya çempionatında 3 medal

**Azərbaycanın cüdo üzrə gənclərdən ibarət milli yığması Tacikistanın paytaxtı Düşənbədə keçirilən dünya çempionatını 3 medalla başa vurub. İdmançılarımız Kənan Nəsibov (+100 kq) yarışın gümüş, Süleyman Şükürov (81 kq) və Əjdər Bağırov (100 kq) bürünc mükafatını qazanıblar.**



Dünya çempionatında ağır çəki dərəcələrində medalların əldə olunması xüsusilə sevindiricidir. Əjdər Bağırov Olimpiya çempionu Zelim Kotsoyevdən 7 il sonra 100 kiloqram çəki dərəcəsində Dünya çempionatının medalını qazandırıb. Kənan Nəsibovun nailiyyəti isə tarixə bir ilk kimi düşüb. Belə ki, buna qədər ən ağır çəkidə heç bir cüdoçumuz analoji yarışın mükafatçısı olmayıb.

### Atıcımız dünya birincisi olub

**Azərbaycanın güllə atıcısı İmran Qarayev Perunun Lima şəhərində keçirilən gənclər arasında Dünya çempionatının qızıl medalını qazanıb.**



50 metr məsafəyə atəş açmada idmançımız finalda 552 xalla Rumıniya təmsilçisini geridə qoyaraq mundialın qalibi olub. Komandamızın digər üzvü Sofiya Barxalova isə bürünc medal qazanıb. Qızlar arasında 50 metr məsafəyə atəş açmada idmançımız 535 xalla fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

### Uqandada bürünc mükafat

**Azərbaycan badmintonçuları Uqandanın paytaxtı Kampala şəhərində keçirilən beynəlxalq turnirdə uğurla çıxış ediblər.**




Yarışda yarımfinala kimi irəliləyən Era Maftuha 3-cü yeri tutub. O, finalın bir addımlığında turnirin qalibi olan Malayziya təmsilçisi Lo Çşi Veyə 3 setdə məğlub olub. İdmançımız yarımfinala kimi Uqanda, Birləşmiş Ərəb Əmirlikləri və Maldivi təmsil edən rəqiblərini üstələyib.

Kişi badmintonçuların qoşa yarışında Aqil Qəbilov və Diki Panqestu Malta, Şotlandiya və İtaliyanı təmsil edən badmintonçuları mübarizədən kənarlaşdırmağı bacarıb. Yarımfinala yüksəlməklə bürünc medalı təmin edən Aqil və Diki 1/2 finalda hindistanlı rəqiblərinə hər iki setdə uduzub.

*Leyla QURBANOVA*
*XQ*

## Yeni tamaşalar

# “İblis” səhnəmizə şər güvvələrlə qayıtdı

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı özünün tarixi günlərindən birini yaşayırdı. Əməkdar İncəsənət Xadimi, Dövlət mükafatı laureatı Mehriban Ələkbərzadənin quruluşunda “İblis və...” tamaşasının premyerası teatrsevərləri bir araya gətirmişdi. Bundan əvvəl tamaşanın qastrol təqdimatı sentyabrın əvvəllərində Sankt-Peterburqda - Aleksandrinski Teatrında keçirilmişdi. Yeri gəlmişkən, bu, Azərbaycan teatr tarixində Aleksandrinski Teatrında premyerası keçirilən ilk tamaşadır.**





Hüseyn Cavidin “İblis” faciəsinin motivləri əsasında hazırlanan tamaşanın janrı fəlsəfi dekonsrtruktiv-metadramdır. Qərbdə də, Şərqdə də çox araşdırılan, diqqət çəkən İblis mövzusu Hüseyn Cavid yaradıcılığında Tanrı konsepsiyası ilə özünəməxsus çalarda həll edilib. Hüseyn Cavid İnsan, İblis, Tanrı konsepsiyasını özünəməxsus formada ortaya qoyur. Onun İnsan, İblis, Tanrı haqqındakı fikirləri yaradıcılığının böyük, daxili qüvvəsi və mahiyyətidir. Bu tamaşa Hüseyn Cavidin “İblis” əsəri əsasında dekonstruksiya da adlana bilər.

Hüseyn Cavid bu əsəri dünyanı təhdid etməkdə olan müharibələr əleyhinə yazıb. İnsanların tarixi faciəsinə ürəkdən acıyan şair bəşəriyyəti qan içində boğan şər qüvvələrə etirazını özünün “İblis” əsərilə bildirir, günahsız axan qanlara səbəb olan müharibələrə birdəfəlik son qoyulmasını istəyib. Buna görədir ki, “İblis” faciəsi öz aktuallığı ilə bu gün də böyük əhəmiyyət kəsb edir.

Mehriban Ələkbərzadənin təfsirində isə biz bir qədər fərqli situasiya ilə tanış oluruq. Səhnədə İblisi və onun varislərini görürük. Ümumiyyətlə, nağıllarımızda, əfsanələrimizdə hadisələrdə iştirak edən divlər, cinlər mövhumi İblisin sələfləridirlər. “İblis” sözünün lüğəti mənasına dair bir sıra mülahizələr mövcuddur. “İblis” sözü öz mənşəyini yunan dilində olan “dia oxos” sözündən alır və bunun da mənası “klevetnik” (iftiraçı, böhtançı) deməkdir. Şərq xalqları ədəbiyyatında iblis, şeytan sözləri Avropa, o cümlədən rus və yunan ədəbiyyatında demon adıyla məşhurdur. Dal, Uşakov, Volin kimi rus lüğətçiləri qədim yunan mifologiyasında kinli ruh, demon olduğunu və xristian mifologiyasına görə “diabolos” (iftiraçı) mənasında işləndiyini qeyd edirlər.



Cavidin yaratdığı İblisin sübut etmək istədiyi fikir budur ki, Allahın yaratdığı insanlar şərin mənbəyidir. Bu fikir “İblis və...” tamaşasında fərqli interpretasiyada təqdim olunur. Tamaşanın başlanğıcında İblis və varisləri tamaşa zalında peyda olurlar və səhnədəki güzgü tamaşaçıları ilğım kimi özündə əks etdirir. Bu, rejissorun uğurlu tapıntısıdır. Cavidin fəlsəfi ideyası bu tamaşada bir az da şaxələnir, İblis əvvəlki məzmunundan daha geniş və dərin mənaya malik surətə çevrilir. O, insanın mənəvi aləminə nüfuz edən, mənfi ehtirasları ifşa edən bir vasitədir. Rejissorun müraciət etdiyi mövzu və onun bədii-estetik realizəsi bir-birini tamamlayır. Ümumiyyətlə, Mehriban xanımın quruluş verdiyi tamaşalar (“Kod adı: VXA”, “Əsrə bərabər gün” və sair) özəl və faciəvi bir zamanın salnaməsi kimi fərqli rakursdan tamaşaçıya təqdim olunur və yaddaşa həkk olunur. Bu, ayrıca bir yazının mövzusudur.

Yeni səhnə əsərinin quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, geyim üzrə rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Həsənov, bəstəkarı Azər Hacıəsgərli, məsləhətçisi Əməkdar mədəniyyət işçisi Azər Turan, rejissor assistentləri Nərmin Həsənova və Ceyran Başarandır.

Tamaşada Əməkdar artistlər Ayşad Məmmədov (İblis), Elnar Qarayev (İblisin varisi-1), Elşən Cəbrayılov (İblisin varisi-2), aktyorlar Murad İsmayıl (Arif), Elsevər Rəhimov (Vasif), Əməkdar artist Vəfa Rzayeva (Rəna), aktyor Elçin Əfəndi (İbn Yəmin), əməkdar artist Elşən Rüstəmov (Elxan), Xalq artisti Kazım Abdullayev (İxtiyar şeyx), aktyorlar Lalə Süleymanova (Xavər), Vüsal Mustafayev (Vasifin dostu), Elçin Nurəliyev (Çavuş, Haydut) və Tural İbrahimov (Kanuni, Haydut) iştirak edirlər.

Ayşad Məmmədov obrazın daxili dramatizmini peşəkarlıqla göstərə bilir, səhnədə İblisə çevrilməyi bacarır. O, Azərbaycan teatr və kinosunda maraqlı obrazlar yaratmış aktyordur və İblis onun potensialının tam açılmasına imkan verir.

Vəfa Rzayevanın Rənası da geniş plastikası, dinamizmi, çılğınlığı ilə tamaşaçıda məmnunluq hissi doğurur. Lalə Süleymanova Xavər obrazının öhdəsindən uğurla gəlir, onun hiss və həyəcanları son dərəcə təbiidir.

Bir az da kəm-kəsirdən danışaq. Murad İsmayılın Arifi bəzi məqamlarda süni təsir bağışlayırdı. Düşünürəm ki, o, bu obrazın üzərində bir qədər də işləsə mükəmməlliyə nail ola bilərdi. Bundan başqa, musiqinin bolluğu, sanki, aktyorların ifasına maneçilik törədirdi. Bu həm də tamaşaçının diqqətini yayındırırdı. Aktyorların səsi zalda çox zəif eşidilirdi. Bu nüansları çıxmaq şərtilə “İblis və...” tamaşası Azərbaycan teatrı üçün əlamətdar bir hadisədir.

***Kənan HACI,***
***yazıçı-publisist***



### Ən çox maaş alan siyasətçilər...

**Sinqapurun baş naziri Lourens Vonq hazırda dünyada ən çox maaş alan hökumət rəhbəridir. Belə ki, onun illik maaşı təqribən 1,69 milyon dollar təşkil edir. “Forbes” nəşrinin yazdığına görə, ən yüksək illik əmək haqqı alan dövlət və hökumət başçılarının siyahısında sonrakı yerləri aşağıdakı şəxslər tuturlar:**

İsveçrə prezidenti Viola Amherd (569,5 min dollar).
Avstraliyanın baş naziri Entoni Albaniz (412,5 min dollar).
ABŞ prezidenti Co Bayden (400 min dollar).
Avstriya kansleri Karl Nehammer (316,7 min dollar).
Yeni Zelandiyanın baş naziri Kristofer Lakson (310,5 min dollar).

Maraqlıdır ki, hökumət rəhbərləri arasında ən az maaş alan Efiopiyanın baş naziri Abiy Əhməd Əlidir. Onun illik məvacibi 1,7 min dollar təşkil edir.

Yeri gəlmişkən, Rusiya prezidenti Vladimir Putinin illik maaşı 113,6 min dollara bərabərdir (10,2 milyon rubl). Xatırladaq ki, dövlət başçısı 2024-cü il prezident seçkiləri öncəsi MSK-ya 2017-2022-ci illər arasında 67,5 milyon rubl qazandığı barədə bəyannamə təqdim etmişdir. Bu məbləğə əmək haqqı, pensiyalar, həmçinin bank depozitləri, qiymətli kağızlar və əmlakın satışından əldə edilən gəlirlər daxildir.

***R.İLQAR***
***XQ***

### Tibb üzrə Nobel mükafatçıları

**Amerikalı alimlər Viktor Ambroz və Qari Ravkan 2024-cü ildə tibb üzrə Nobel mükafatına layiq görülüblər. Bu barədə oktyabrın 7-də Nobel Mükafatı Komitəsinin mətbuat xidməti məlumat yayıb.**




Xəbərdə deyilir: “2024-cü il Fiziologiya və Tibb üzrə Nobel mükafatı mikro RNT-nin kəşfinə və onun transkripsiyadan sonrakı gen tənzimləməsindəki roluna görə Viktor Ambros və Qari Ravkana verilib”.

Qeyd edək ki, oktyabrın 8-də fizika, 9-da kimya üzrə Nobel mükafatı laureatlarının adları açıqlanacaq. Ədəbiyyat üzrə Nobel mükafatının sahibi oktyabrın 10-da bəlli olacaq. Oktyabrın 11-də sülh və nəhayət, oktyabrın 14-də iqtisadiyyat elmləri üzrə mükafatın sahibləri elan ediləcək.

***P.ƏMİRCANOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2234
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00